*Sevgi Miri*

# *İRFANİ HİKMƏTLƏR*

**BAKI-2016**

Redaktor:*Fuad Məmmədov*

***Sevgi Miri*** "İrfani hikmətlər". Bakı, 2016, - 256 səh.

***Könlüm irfandan para-paradır,***
***Gözümdə yaş bir ayparadır,***
***Heyrətdə qalan könlüm,***
***Bilir yolu hayandır.***

$S\frac{742000000}{079}850-2016$

© «Sevgi Miri», 2016

# *Bismillahir rahmənir rahim*

## SÖZ QƏDRİNİ

***Dedi:*** Söz qədrini hikməti sevən bilər,
Özünə ibrət götürər,
Uçub nəğmə qanadında,
Könlünə nəqş edən bilər.

Söz qədrini arif olan bilər,
Canına can edər,
İlham verib ruhumuza,
Ancaq haqqı bilən bilir.

Söz qədrini aşiq olan bilər,
Dünyadan üstün görər,
Açıb söz xəzinəsini
Ondan götürən bilər.

Söz qədrini Yaradan bilər,(Surə 2. Ayə 269)
Seçdiyinə elmi, hikməti, verər,
Onu könüldən sevəni,
İlhamıyla dindirər.

Söz qədrini dənizdə üzən bilər,
Dərindən, incilər gətirər,
Gecə-gündür deməyib,
İlhamıyla yazan bilər.(Surə 42. Ayə 51)

Söz qədrini düşüncəsi dərin bilər,
Könlü sevgiylə, döyünər,
Qaçırmayıb ilhamı,
Sevgisi ilə saxlayan bilər.

Söz qədrini müdrüklər bilər,(Surə 42. Ayə 51)
Sehrli aləmə götürər,
Qoyub dünyada hikməti,
Sevgiyə laiq olan bilər.

Söz qədrini möminlər bilər,
Altundan üstün görər,
Xalqa goyub ibrəti,
Əməli düz olan bilər.

Söz qədrini Sevgi bilər,
Hikmətdən ibrət götürər,
Sevdiyi hikməti ilə,
Sizi sevgiyə, haqqa səsləyər.

Könlüm irfandan para-para,
Gözümdə yaş bir ayparadı.
Heyrətlə qalan könlüm
Bilir yolu hayanadır.

Çoxu mənə şübhəli baxar,
Könlümü yüz yerdən oxlar.
Şahidi olan Allah
Onu hey sağaldar.

***Dedi:*** Sanmasınki görmürük,
Lağ edəni bilmirik.
Sənə lağ edənin
Cəzasını biz veririk.

## GƏRƏK CƏHD EDƏSƏN

***Dedi:*** Düşməyəsən həvəsdən,
Məqsədə doğru gedəsən,
Ümidini itirməyib,
Duaları edəsən.

Gərək cəhd edəsən,
Pillə-pillə gedəsən,
Qurtulub günahdan,
Saf-çürük edəsən.

Gərək cəhd edəsən,
Allahdan güc diləyəsən,
Qaçırmayıb namazı,
Nəfsini aclıqla enəsən.

Gərək cəhd edəsən,
Əzaba düşməyəsən,
Tövbə edib günaha,
Keçmişə xətt çəkəsən.

Gərək cəhd edəsən,
Şeytana aman verməyəsən,
Sevindirməyib məlunu,
Yeni səhifəyə keçəsən.

Gərək cəhd edəsən,
Gələcəyini düşünəsən,
Peşiman olmayıb,
Əzaba düşməyəsən.

Gərək cəhd edəsən,
Könlünü dinləyəsən,
Düşməyib həvəsdən,
Peşiman gəzməyəsən.

Özünə dur deyəsən,
Sevməyi öyrənəsən,
Səmimi olub Rəbbinlə,
Dərdini onunla böləsən.

Demə səni dinləmir,
Günahını görmür,
Tövbəni gözləyib,
Əzabını gecikdirir.



## ŞAHİD OLAN ALLAHIM

Zalımın zülmünə,
Şahid olursan,
Cəzasını verib,
Səbrlə dayanırsan.

***Dedi:*** Zalımın zülmünə,
Səbrlə dayanıram,
Sevən aşiqlərdən,
İlham alıram.

***Dedim:*** Yox olsan belə dünya,
Çox qəmgin olmusan,
Bu qədər zülmə
Şahid olmusan.

***Dedi:*** Səbrim sonsuzdur,
Cəhənnəmin ömrü kimi,
Zalımın zülmü qurtarmaz,
Sonsuzluğa kimi.

***Dedim:*** Keşkə sevindirəydim,
Savabla gələydim,
Zalımın zülmü,
Aradan gedəydi.

***Dedi:*** Zülümlə dolan dünya,
Bir gün çalxanacaq,
Yer məhvərindən çıxıb,
Qoynundakını atacaq.

Böyük ürəyin böyük dərdi var,
İlham verən sevənlərim var.
Dərdini mənlə bölüb,
Dərdinə gülənlərim var.

***Dedim:***Zalım olanlar,
Şeytanla birləşib,
Hər yerdə qan töküb,
Dünyanı qiyamətə götürüb.

Mən günahkar bəndənəm,
Hey imtahan verənəm,
Əgər zalım olsam
Cəhənnəmə gedənəm.

***Dedi:*** İradə araddır gülüm,
Cənnətdə yeri görünənim,
Öz dərdini qoyub,
Dərdimi çəkənim.

## SƏN SƏADƏTİ ÇOX GÖRDÜN MƏNƏ

Səadəti çox gördün mənə,
Ömür boyu gözləmişdim.
Verdiyin kədərin
Əzabını bilməmişdim.

Səadəti çox gördün mənə,
Onu verə bilərdin.
Gəzdirib eşqin göylərində,
Xoşbəxt edə bilərdin.

Səadəti çox gördün mənə,
Qurumadı göz yaşlarım,
Gəzdim onu axşam, səhər,
Qəmdən bir qala qurdum.

Səadəti çox gördün mənə,
İndi versəndə istəmirəm,
İsinmişəm könlümün oduna
İsinmərəm, yalançı baharına.

Səadəti, çox gördün mənə,
Səadət tapmadın,
Mənə verdiyin əzab,
Bir gün qayıtdı sənə.

Səadəti çox gördün mənə,
Əsl səadətə çatmışam,
Sevgimlə qazanıb ilhamı,
Yazib yaratmışam.

Zirvədə əkmişəm, sevgi kolları,
Gül açacaq butaları,
Eşqin zirvəsinə çatanlar,
Qoxlayacaq butaları.

Solmayacaq əsən küləkdən,
Bəsləyəcək axşam, səhər,
Yayılacaq küləklə dünyaya,
Hikmətdən götürəcək bəhər.

## OLA BİLMƏZ

Ya Vəfiyyi isminə salam olsun,
Vəfada sənə tay ola bilməz.
Biri söyləsə də vəfalıyam,
Səndən vəfalı ola bilməz.

Necə gözəl olsa da dünya,
Cənnətdən gözəl ola bilməz,
Biri bilsə də hikməti,(Surə 2. Ayə 269)
Səndən çox bilə bilməz.

Mən mömünəm deyib,
Çoxu ibadət etsədə,
Möminin kim olduğunu,
Səndən gerisi, görə bilməz.

Dərdi olsada talehim,
Könlümə hayandı sevgin,
Can-candan ayrı deyil,
Qeyrisi ağrını görə bilməz.

Dünyanın əlində deyil ixtiyarı,
Səndədir hər ixtiyarı
Əgər verməsən fərman
Bir damla yerə, düşə bilməz.

Sevgi dildə söyləsəndə eşqini,
Könlüm söylədi mənə eşqini,
Rəbbintək səni sevən,
Vəfalı heç kəs ola bilməz.



## KÖNLÜMÜ HİKMƏT ÜÇÜN YARATMIŞ

Könlümü şükür üçün,
Həm hikmət üçün.
Həm sevmək, sevilmək
Həm iman üçün yaratmış.

İmansız, sevgisiz olan,
Könül səsini dinləməyən,
Özündən razı olub,
Hikməti boş söz sanar.

Hikmət haqqın səsidir,(Surə 2. Ayə 269)
Könlün ali nəğməsidir,
Ona əməl edən,
Haqqın sevimlisidir.

Hikmət ürəkdən su içər,
Hikmətsiz ürəyə zülmət çökər,
Hikmətdən ibarət götürən,
Özünə işıqlı yol seçər.

Hikmət ruha ruh verər,
Nurlu aləmə götürər,
Hikmətdən uzaq olan,
Şeytanla yol gedər.

Hikmət, insana güc verər,
Ürəyinə nur ələr,
Qönçə güllər açdırıb,
Gələcəyə götürər.

Hikmət tarixdə yaşayar,
Doğru yola aparar,
Hikməti sevməyənin,
Könlü zülmətdə qalar.

## NECƏ GÖZƏLDİR, GÖZDƏKİ YAŞLAR

Peşimanlıq duyub ağlayar,
Rəbbinə könül bağlayar,
Tövbə edib günaha,
Özünü danlayar.

Necə gözəldir, gözdəki yaşlar,
Yanağdan süzülər,
Göydəki mələklərdə,
Ona salam göndərər,

Necə gözəldir, gözdəki yaşlar,
Allah üçün ağlayar,
Dərdinə şükür edib,
Səbrlə dayanar.

Necə gözəldir, gözdəki yaşlar,
Ruhumuzu təmizləyər,
Nəğmə dolu könlümüzün,
Nəğməsini dinləyər.



## SƏDƏT NƏDİR?

***Dedi:*** Aza qane olmaqdı,
Könlü ilhamla dolmaqdı,
Rəbbiylə dost olub,
Ona sadiq qalmaqdı.

Bu dünyanı boş sayıb,
Ötələrə inanmaqdı,
Dərdinə şükür edib,
İşi haqqa buraxmaqdı.

Qul olmayıb nəfsinə,
Düşməyib şeytan tələsinə,
Qorxub haqqın səsindən,
Həm vicdan mühakiməsindən.

Uzaqlarda arama,
Sədət uzaqda deyil,
Sənin öz əlindədir,
Düz işin əməlindədir.

Gərək kəşf edəsən,
Halına şükür edəsən,
Qorxmayıb zalımdan,
Ədaləti gözləyəsən.

Səadət halallıqdadır,
Gözü toxluqdadır,
Aşiq olub Allaha,
Cismi yoxluqdadır.

Dərdə şərik olmaqda,
Səbrlə dayanmaqda,
Sadiq olub Rəbbinə,
İlhamı saxlamaqdadır.

***Dedim:*** Şükürlər olsun böyüklüyünə,
Həm də mərhəmətinə
Səni sevən qullarına
Lütv etməyinə.



## BİZİM KİTABXANAMIZ

Allah rəhmət etsin,
Kitabxananın sahibi,
Qırçın xanıma.
Toplamışdı başına
Oxucularını.
Sankı kitabxana eviydi
Qırçın xanımın.
İndi ruhu göydədir
Verdiyi kitablar
Könüllərdədir.
Kiçik oxucusuydum
Üçüncü sinifdə.
Oxuyurdum dünya ədəbiyyatını
Saf-çürük edirdim,
Hikmətdən ilham alıb
Yazırdım vərəqlərə,
Hikmətli kəlmələr
Dərman idi könlümə,
İllərlə oxuyurdum
Özümə naxış toxuyurdum,
İndi, həmin naxışları,
Yazıram dəftərlərə,
İnşallah kitablarım
Düzülər rəflərə.
Oxuyub ibrət alar,
Savab qazanar,
Bizim kitabxanamız.
Çıxmayır yadımdan,
Gün yolum başlayıb,
Onun yolundan
Hikməti oxuyub,
Müəllifə rəhmət oxuyar.

Məndə rəhmət oxuyuram,
Dünyada iz qoyub,
İmana gətirənə,
Hikməti ellərə qoyub,
Savabı edənə.

## İSLAMIN YOLUNDA

***Dedi:*** İslamın yolunda tufan var,
İmtahanla sınanman var,
Əhdə vəfalı olana
Cənnətdə hər cür təam var.

İslamın yolunda tufan var,
Qiyamətdə dirilməyə inanan var,
Gedib o nurun işığı ilə,
Cəhənnəmdən qurtulman var.

İslamın yolunda tufan var,
Şeytana uyanlar var,
Düşünməyib gələcəyini,
Bu günlə yaşayan  var.

İslamın yolunda tufan var,
Zalıma uyan var,
Məhzəbi bəhanə edənə
Əbədi cəhənnəm var.

İslamın yolunda tufan var,
Hey çaxnaşma salan var,
Şəhid edib çoxunu
Dünyanı xaraba qoyan var.

İslamın yolunda tufan var,
Kafirdən qorxmayıb yaşadan var,
Zalımdan uzaq olub
Allahın lütvünə inanan  var.

İslamın yolunda tufan var,
Allahdan ilham alan  var,
Yazıb irfanla gecə-gündüz,(Surə 2. Ayə 269)
Gələcəyə inanan  var.

İslamın yolunda tufan var,
Allah dinini sevməyən  var,
Kəbə dolub daşarkən,
Paxıllıqdan yanan  var.

İslamın yolunda tufan var,
Namərdə baş əyməyən  var,
Baş əyib bir Allaha,
Namazdan qalmayan  var.



## NƏFSİNİ ENMƏK İSTƏYƏNƏ

***Dedi:*** İnsanları əzanlar,
Hər gün haqqı səsləsə də,
Könül səsini dinləməyən,
Onu dinləməyəcək.

Güclü düşmənlə qalıb baş-başa,
Etibar yoxdu belə yoldaşa,
Günahdan qurtulmayan,
Nəfsinienməlidir.

Nəfs hökm edər,
Haqq yolundan döndərər,
Nəfs ilə dost olana
Allah şeytan göndərər.

Çoxu özündən bezmiş,
Günaha girmiş,
Haqqa dönmək istəsə də,
Nəfsinə yenik düşmüş.

Beləsini qınamayın,
Ona köməyə qalxın.
Nəfsini enməyi,
Ona anladın.

Günahı özgədə axtarma,
Nəfsinlə cihada qalxasan,
Onu enmək üçün,
Aclığdan qorxmaysan.

Bir gün imtanhan etsən,
Bəhrəsini görərsən,
Hey təkrar edib,
Qələbənə sevinərsən.

Nəfsini boş buraxmayasan,
Günaha batmayasan,
İmtahan etmək üçün,
Addım atasan.

Nəfsini qoyub şeytanla vuruşma,
Günahı özündə axtar!
Güclü olan nəfsini
Aclıqla tərbiyəyə qalx.

Özünə əhsən deyəcəksən,
Gec qaldım, düşünəcəksən,
Hey təkrar edib,
Özünü örnək göstərəcəksən.

Olacaqsan asudə dərdi qəmdən,
Rəbbinlə olacaqsan həmdəm,
Baxmayıb nəfsin sözünə,
Şeytan vəsvəsə versədə,

Özünü kəşf edəcksən,
Dərindən düşünəcəksən,
Şəriəti öyrənib,
Möminliyə yüksələcəksən.

Dünya gözündən düşəcək,
Nurlu aləmi görəcək,
Mələklər sənə sevinib
Yeni səhifəyə keçəcək.
Kim cana gəlibsə, günahından,

Deyilənə əməl etsin,
Əcəli gəlməmiş,
Nəfsini islah etsin.

Allahı köməyə çağrısın,
Ona kömək etsin.
Tək özünə güvənməyib,
Ondan ilham alsın.

Nicat yolu haqqa gedən yoldadı,
Nəfsi ilə vuruşmaqdadı,
Allahı razı salıb,
Sevgisini qazanmaqdadı.

Güclü düşmən yolun üstündə,
Səni yıxacaq günün birində,
Kəs başını o əfi ilanın,
Səni çalmağa çalışanı.

Günahın kökünü kəsməli,
Onu budaqda gəzməməli,
Boy atan kökü,
Hey təmizləməli.

Zamanla kamilliyə ucalacaq,
Arzulara çatacaqsan,
Gedib, haqqın yolu ilə,
Savabı qazanacaqsan.

Ondan böyük səadət ola bilməz,
Dünya səni aldada bilməz,
Sənə haqqdan gələn ilhamı,
Başqası verə bilməz.

Könlün sevgiylə dolacaq,
Şükürlə səadətə çatacaq,
Bəsirətin açılıb,
Simaları tanıyacaq.

***Dedim:*** Dolanım başına pərvanətək,
Olmuşam eşqindən divanətək,
Gəzər ilhamım dünyanı,
Rəbbimdir şahidi olanın.

Ağıllı hikmətdən ibarət alacaq,
Özünə savab qazanacaq,
Hikətdən ibrət almayanı,
Şeytan azdıracaq.



## BU GÜNLƏ YAŞAYANLARA

Hər gün təmizlənir,
Günahını görmür,
Qəflətdə qalıb,
Şeytanın yolu ilə gedir.

Bəzəyib üst-başını geyinir,
Cürbəcür geyimlə öyünür,
Gəzib dünyanın çox yerini,
Dünyadan kam götürür.

Əkib-biçib təamları yeyir,
Yada bazardan alıb gətirir,
Toya şənliyə gedib,
Elmin zirvəsi ilə öyünür.

Gündəlik təlabatı yerinə yetirir,
İbadətini etmir,
Düşünməyib axirətini,
Savabı etmir.

Bu günlə yaşayan çoxdu,
Nəfsindən xəbəri yoxdu,
Vicdanı dinləməyənin,
İlhamı yoxdu.

Var qarşıda böyük imtahan,
Savabı dünyada qazan,
Nəfsin istəyinə uymayıb,
Yeni günlə oyan.

Güclü düşməndi... nəfsin,
Səni yıxar günün birində,
Cəhənnəmə sürükləyər,
Xəbərin yox özündən.

Nəfs insanı əsir edər,
Xəcalət qoyub sevinər,
Əgər onu ac saxlasan,
Onugücsüz edər.



## HARADASAN

Ürəyimdə qalıb arzularım,
Dilimdədir dualarım.
Əldə deyil ixtiyarın
Yolları bağlananım.

Xəyalın gözümdən getmir,
Məni keçmişə götürür,
Əzəldəm yazılan taleyim,
Bilməm hara götürür.

Sellər tək qoynuna alıb,
Hər dağa-daşa çırpır,
Əzabda qalan yolumu,
Nurlu aləmə götürür.

Bahar eşqi ilə yaşasamda,
Qismətim əzablar olub.
Saçıma taxtığın güllər,
Vaxtsız, vədəsiz solub.

Həsrət, qalmışam bahara,
Qismətim tufanlar olub,
Gözləmişəm illəri,
Gələcək səadətli günləri.

Qura bilmirəm taleyimi,
Yollarım bağlanıb mənim,
Yaxın olsa da xoşbəxtlik mənə,
Allahın hökmü ilə verilir yenə.

Şirin röyatək gülümsər keçər,
Xoşbəxtlik məndən yan keçər,
Layiq olmayan qapıdan girib,
Qiymət bilməyənin bəxtinə düşər.

Taleyimdən mənə qəm payı düşər,
Sevinc məndən gen gəzər,
Çoxu xoşbəxt sansa da məni,
Öz dərdim özümə elə bəs edər.



## ƏN BÖYÜK HAKİMİN QARŞISINDA DURACAĞIQ

Qorxudan canımız titrəyəcək,
Savab, günah araya gələcək,
Savabsız olanların,
Üzü hey göyərəcək.

İndidən duyuram aqibətimi,
Çəkirəm gələcəyin dərdini,
Layiqli qul olmaq üçün,
Qazanım hörmətinu.

Dünya gözümdən düşər,
Ömürdən günlər düşər,
Bir də günün birində,
Dünyamı dəyişmək düşər.

Kiminin günahı göz önündədir,
Kiminin günahı gizlindədir,
Sanmasın günhaı gizli qalar,
Könüllərin ahı yerdə qalar.

Ən böyük hakim Rəbbimdir,
Hakimlərdən həlimdir.
Elə ədalət tərəzisi var,
Misqalı gözündən yayınmaz.

Cəmi dərddən ona sığındım,
Sevgimlə ona inandım.
Səhv etməmək üçün,
İmandan qala qurdum.

Cəmi müşkülüm ona əyandır,
Hər kəsi gözəl tanıyandır,
Məzluma kömək olub,
Zalımı şeytanla azdırandır.

Könlümüz Rəbbin evidir,
Onu təmiz saxlayaq,
Layiqli qul olub,
İslamı yaşadaq.

Əzmlə sevgiylə yaşayaq,
Günahdan qurtulaq,
Yaşamağa küsdürəndən,
Uzaq olaq.

Lütvü böyük Allahım,
Sənsən mənim pənahım,
Olsa da qulunda nöqsan,
Darda qoymayanım.

Yetib vəslinə qurtulaydım,
Bu dünya möhnətindən,
Savabı toplayıb,
Utanmayaydım töhmətindən.

## SEVƏRKƏN SINANACAQSAN

***Dedi:*** Sevərkən sınanacaqsan,
Dərd altında qalacaqsan,
Səbr edib dözsən,
Rəbbin sevinci olacaqsan.

Sevərkən sınanacaqsan,
Layiqli yeri tutacaqsan,
Ya möminlə bir sırada durub,
Ya şeytanla qalacaqsan.

Sevərkən sınanacaqsan,
Əzmlə dayanacaqsan,
Şəriətdən güc alıb,
Ondan çıxmayacaqsan.

Sevərkən sınanacaqsan,
Dözümü imanından alacaqsan,
Göz yaşı ilə yatıb,
Göz yaşı ilə oyanacaqsan.

Sevərkən sınanacaqsan,
Sabaha inanacaqsan,
Kafirdən uzaq olub,
Möminlə dost olacaqsan.

Sevərkən sınanacaqsan,
Əlləri qoynunda qalacaqsan,
Yoxluqla imtahan edilib,
Layiqli yeri tutacaqsan.

Sevərkən sınanacaqsan,
Sanma cənnəti qazanacaqsan,
Hey imtahan olunub,
Səbrlə dayanacaqsan.

Sevərkən sınanacaqsan,
Kafirlə rastlaşacaqsan,
Şeytanla imtahan olunub,
Özündən çıxarılacaqsan.

Sevərkən sınanacaqsan,
Dözümü haqqdan alacaqsan,
Sevgi yolunu tutub,
Allahı unutmayacaqsan.

Sevərkən sınanacaqsan,
Ümidlə yoldaş olacaqsan,
Mətin dayanıb,
Gələcəyə inanacaqsan.

Sevərkən sınanacaqsan,
Möminləri xatırlayacaqsan,
Səndə onlar kimi
Rəbbin sevinci olacaqsan.

Sevərkən sınanacaqsan,
Vardan, yoxdan olacaqsan,
Rəbbin qarşısında,
İmtahanı unutmayacaqsan.

Sevərkən sınanacaqsan,
Şeytanla vuruşacaqsan,
İnsan simasındakı şeytanları,
Həmən tanıyacaqsan.

## SEVGİDİR

Sevgidir sənə doğru aparan,
Sevgidir məni yaşadan,
Dərdləri unutdurub,
Səbrlə dayandıran.

Sevgidir mənə güc verən,
Namərdə baş əydirməyən,
Tək önündə diz çöküb,
Məni bağışla deyən.

Sevgidir haqqı-nahaqdan ayıran,
Var olduğuna inanan,
Dünyanın boş olduğuna,
Haqq dünyasına inanan.

Sevgidir ümiddən əl çəkməyən,
Hər işi səndən istəyən,
Səhv etməyə qorxub,
Ümidsizlik istəməyən.

Sevgidir sonsuz eşqinə inanan,
Hər şeydə olduğuna inanan,
Verilən imtahandan,
İnşallah üzüağ çıxan.

Sevgidir insanlığa çağıran,
Zülmətdən işığa çıxaran,
Ruhu əzabdan sıxılsa da,
Varlığınla rahat olan.

Sevgidir anaların anası,
Nəslin davamçısı,
Namərdin əlindən,
Sənə duaçı.

Sevgidir yazmaqla doymayan,
Sevməkdən usanmayan,
Arzulara yetmək üçün,
Duadan qalmayan.

Sevgi sözünü hər sətrə yazsam azdır,
Sevgisiz insanı şeytan azdırar,
Həyatın mənası sevgidir ancaq,
Sevgisiz xoşbəxt olmayacaq.



## ŞÜKÜR HAQQ ETMİSƏN

Şükür haqq etmisən,
İnsani yerdə yerləşdirmisən,
Zalımları tanıyıb
Özündən uzaq etmisən.

Əlləri yetmir sizə,
Vuruşdursun sizi-sizə,
Zalımların gücü azdır,
Gücü yetməz sizə.

***Dedi:*** Bizim halımıza qalırsan,
Zalımları tanıyırsan,
Aləmlərin Rəbbinin
Gücünə inanırsan.

***Dedim:*** Hüzuruna gələrkən,
Qorxudan titrəyəcəm,
Ümidimi itirməyib,
Sevgimə güvənəcəm.

Üzümə baxmasan,
Halım necə olar,
İnandığım Rəbbim,
Xəyallarım puç olar.

***Dedim:*** Hər gün sorğu, sual edəsən,
Özünə hesab verəsən,
Tövbə edib günaha,
Təkrar etməyəsən.

Mən asıq sarı alma,
Yetişib sarı alma,
Uyma şeytan fitnəsinə,
Duadan əsla qalma.

***Dedim:***Dua mənim silahımdı,
Onunla atəşi söndürürəm,
Mənə xain olana,
Neylənət göndərirəm.

Hər lənət göndərəndə,
Əzaba salırsan?
Sonraya saxlayıb,
Səbrlə dayanırsan.

***Dedi:*** Dua atəşi söndürür,
Onları peşiman edir,
Sübhü qılmayanda,
Yenə ümid verir.

## KEŞKƏ BU DÜNYADAKI KİM SƏNİ CƏNNƏTDƏ DƏ VƏSF EDƏYDİM

Keşkə mələklərlə birlikdə,
Səni vəsf edəydim.
Verib sözü biri-birimizə,
Aşiqlərin vəsf edəydi.

Arzulara çataydım,
İncilər mərcanlar, taxaydım,
Bəzəyib dəftərimi incilərlə,
Hikmətlə vəsfini yazaydım.

Cənnətdə sevgimiz gültək açar,
Sevgisiz qullar kənardan baxar,
Əgər daxil olsa cənnətə,
Sevən qullara şübhəylə baxar.

Allah seçiləni toplayar cənnətə,
Onlardan ilham alsın,
Nə işi var kafirin cənnətdə,
Hey qalmaqal salsın.

***Dedi:*** Söhbəti şirin özü məzəli,
Var cənnətin belə gözəli,
İnşallah sənədə qismət olar,
Gözəl köşklər qururlar.

***Dedim:*** Bilirəm var bəzi nöqsanım,
İnşallah olmaz nöqsanım,
Yenə röyalar görərəm,
Sirrinizi faş etmərəm.

***Dedi:*** Əhdinə vəfalı olsan əgər,
Sənə daim müsdələr gələr,
Sənə verilən ilham,
Səninlə birgə cənnətə gələr.

## MƏNDƏ NÖQSAN AXTARAN

Günahımla xətamla,
Rəbbim məni belə sevir,
İlhamı verib könlümə,
İlhamıyla dindirir.

Ey nöqsan axtaran,
Nöqsanını görmürsən,
Nəfsini təmizləyib,
Haqqa yüksəlmirsən.

Ey nöqsan axtaran,
Əvvəl borcunu verəsən,
Özünü islah edib,
Nəfsini enəsən.

Ey nöqsan axtaran,
Şeytanı görəsən,
Dinləyib vicdanını,
Ona əməl edəsən.

***Dedi:*** Xətasız qul olmaz,
Günahlar təkrarlanmaz,
Haqqa dönənlər,
Əli boş qalmaz.

Düzəldər əyər əskiyini,
Özündən razı olmaz,
Şeytanı sevindirib,
Əlləri boş qalmaz.

Ən əsəbi anında,
Şeytan var yanında.
Zərər vermək üçün,
Dolaşar hey qanında.

Onu peşiman etmək üçün,
Lənət oxumaq işin,
Dua oxunan zaman,
Mələk yetirər özün.

## HÜNƏRİNİ SAYMAQLA BİTMƏZ

Hünərini saymaqla bitməz,
Bəsirətsiz səni görməz,
Ruhu çirkin olan,
Gözəllə, bir ola bilməz.

Hünərini saymaqla bitməz,
Gövhərlərini üstəlik,
Sifətlərin gözəldir,
Eşqinsə sonsuz.

Hünərini saymaqla bitməz,
Can ruhsuz dirilməz,
İmanı kamil olanı,
Şeytan aldada bilməz.

Hünərini saymaqla bitməz,
Zalım mömini sevməz,
Şeytan paxıllıqdan,
Yoldan çəkilməz.

Hünərini saymaqla bitməz,
Heç kəs saya bilməz,
Tək olan Allah,
Özünə şərik götürməz.

Hünərini saymaqla bitməz,
Nəfskar haqqa gəlməz,
Üzdə gözəllik axtaran,
Mömini görə bilməz.

Hünərini saymaqla bitməz,
Mələklər şeytanı sevməz,
Sevgisiz olanlar,
Möminliyə yüksəlməz.

Hünərini saymaqla bitməz,
Kafir günahını görməz,
Səmimi tövbə etsə,
Birdə günah etməz.

Kim ilham verərsə Allaha,
Oda verər ona ilham.
Dünya  aldada bilməz,
Axirəti üstün tutar dünyadan.

Dünyamızı dəyişəcəyik,
Qiyamətdə diriləcəyik,
Ruhumuz ucalanda göylərə,
Ayılacayıq yuxudan.

Həqiqət o zaman aşikar olacaq,
Kimi sevinib, kimi peşiman olacaq.
Savab kisəsini boş götürənin,
Gözləri dolub boşalacaq.

## İLHAMI ARTIRAR KÖNÜL SEVGİSİ

İlhamı artırar könül sevgisi,
Kimin varsa, belə sevgisi,
Rəbbinə yaxınlaşdırar,
Ona olan könül sevgisi.

Nəfs araya girməz,
Bəsirət gözüylə görərsən onu,
Heç kəsə bənzətməyib,
Bilməzsən necədi donu.

Onu haqq olan yerdə axtar,
Həm göydə, yerdə axtar,
Qərar tuta bilməsən,
Ancaq könlündə axtar.

Rəbbimiz  bizimlədir,
İmanımızda dinimizdədir,
Dünyaya sığmayan,
Sonsuz eşqimizdədir.

Oxucum məni dərk etmək üçün,
Gərək tutasan, haqqın yolunu,
Yalnış yola getməyib,
Verəsən haqqın borcunu.

Düşünə-düşünə oxuyasan,
Çün düşüncə verib insana,
Boşuna keçirməyib zamanı,
Xatırlayasan imtahanı.

Mənəmlik gözünü tutmasın,
Hikmətdən ibraət alsın,
Faydalı elm öyrənib,
Dünyada iz qoysun.

Şöhrətə, şana çatmasamda,
Var şöhrətim mənim,
Çoxu görməsə də elmimi,
İmanlılar görər elmimi.

Allah verər elmi seçilənə,
Keçirər imtahandan zaman-zaman,
Tut Allahın ipindən,(Surə 2. Ayə 269)
Şeytan azdırmasın zaman-zaman.

Ağırdır imtahanımız,
İnşallah az olar günahımız,
Azad olsa da iradəmiz,
Var alın yazımız.

Səmimi haqqa yetə bilərik,
Günahı tərk edə bilərik,
Yolumuzda duran şeytanı,
Sevgimizlə enə bilərik.

Söz xəzinəsindən incilər gətirmişəm,
Dərindən dərin düşünmüşəm,
Dünyaya gəlməyəcəyimi,
İnşallah savabı etmişəm.

Rəbbim möhlət versin,
Kitablarım çap üzü görsün,
Bəşəriyyət oxuyub,
Özünə ibrət götürsün.

Dəyişmərəm dünyaya  bir vərəqin,
Ruhuma ruh verir hər vərəqin,
Bilirəm Rəbbim soracaq,
Hanı bir vərəqin.

## HİKMƏT DOLU ŞEİRLƏRİM

Hikmət dolu şeirlərim,
Könüllərdə qalacaq.
İbrət alanlar,
Doğru yolda olacaq.

Hikmət dolu şeirlərim,
Könlümün səsidir,
Rəbbin mənə
Lütv etməsidi.

Hikmət dolu şeirlərim,
Könlümdən su içmiş,
Bunları yazmaq üçün,
Rəbbim məni seçmiş.

Hikmət dolu şeirlərim,
Tarixdə qalacaq,
Dodaqlarda səslənib,
Könüllərdə yaşayacaq.

Hikmət dolu şeirlərim,
Könüllərə təsəllidir,
Doğru yolu göstərən,
Rəbbin ali səsidir.

Sevgimdən ilham alıram,
Tək Allaha inanıram,
Röyamdakı gizli səslə,
Hikmətləri yazıram.

Hikmət nədir deyə,
Çoxu çox düşünəcək,
Onu yazmağa,
İnsanın gücü yetməyəcək.

Hikmət haqqın səsidir,
Könüllərə süzülər,
Dodağlarda səslənib,
Doğru yolu göstərər.

Hikmət sevgi ilə yoğrular,
İnsanlara paylanar,
Röyada anladılıb,
Doğru yola aparar.

Hikmət çarəsinin dərmanı,
Rəbbin fərmanıdır.
Onu yazanların,
Könlü yaralıdır,
Yetməz vüsalına
Yolu bağlıdır.

## BU QİSAS YERDƏ QALMAZ

Qurumaz göz yaşımız,
Alınmaz qisasımız,
Şəhidlər nigarandır,
Yerdə qalmaz qisasımız.

Qisas günü olacaq,
Allah kömək olacaq,
Şəhidlər sevinib,
Qisasımız alınacaq.

Yer, göy ağlayır,
Sizə yas saxlayır,
Hər şəhid yanında,
Əzizinə yer saxlayır.

Səs-səsə verəcək şəhidlər,
Azadlıq nəğməsi oxuyacaq,
Mələklər kömək edib,
Ruhları şad olacaq.

Düşmənin üzü qaralacaq,
Hər iki dünyadan olacaq,
Zəfərlər bizimlə olub,
Torpaqlarımız alınacaq.

Nə qədər qisas alınmayıb,
Düşmənin azğınlığı artacaq,
Anaların göz yaşı,
Elə hey axacaq.

## DÜNYA BİR UÇURUMDUR

Dünya bir uçurumdur,
Hər kəsi özünə çəkər,
İmana gələnlər,
Ondan gen gəzər.

Çox gözəl yaradıb,
Aydan, gündən nur alıb,
Hər kəsə ömür paylanıb,
Dünya qoynuna alıb.

Bənzər əfi ilana,
Hey başına dolana,
Fürsət düşən zaman,
Hey bizi çala.

Əvvəl dost olar,
Şirin şərbət içirər,
Həyata küsdürüb,
Uçuruma göndərər.

İnanmayın siz ona,
Dostdur o şeytana,
Əvvəl üzə gülüb,
Cəhənnəmə göndərər.

Hər şeyi dünyadaqalacaq,
Savablar yazılacaq,
Savabsiz gedənlər,
Əzabda qalacaq.

Çoxu dünyadan doymaz,
Axirəti yada salmaz,
İmtahanı unudulub,
Savabıyığmaz.

Olum ani anlayacaq,
Geri yol olmayacaq.
Savabım azdır deyib,
Özünü danlayacaq.

Nəyimə gərəkdir  dünya,
Gətirəcək oyuna,
Şirin-şəkəriçirib,
Cəhənnəmə göndərəcək.

Xoşbəxt o kəsdir,
Gəncliyində müdrükdür,
Aldanmayıbdünyaya,
İmanı böyükdür.

Bax yuxuda bir ölümdür.
Çoxu ayıla bilməz.
Neçə il yaşadığına,
Heç kəs əmin ola bilməz.

Gəlin cənnəti dəyişməyək,
Bu vəfasız dünyaya,
Bir gün məhv olub,
Qupquru torpaq olana. (Surə 18. Ayə 8)

Keşkə savabımız çox olaydı,
Bizi peşiman qoymayaydı,
Sevginin hikmətlərini,
Bütün dünya oxuyaydı.

## GÖRMƏSƏ İMANI YOX ALLAHA

***Dedi:*** Görməsə inamı yox Allaha,
Allahda görünərmi, insana.
Onda hər şey adiləşər,
İnsan qaçar özü-özündən.

Hərçi-mərçlik başlar dünyada,
Heç kəs ibadət etməz.
Gecə-gündüz rahat olmayıb,
Başlar sorğu suala.

Heç növbə qutarmaz,
Hər kəs iş gücdən olar,
Evdə rahat olmayıb,
Canı Allahın yanında olar.

Hər kəs gəlib gələcəyini öyrənər,
Çoxu özündən iyrənər,
Sualları hey verib,
Qurtarmaq bilməyər.

Onun üçün gizli saxlamışam simamı,
Yoxlamışam insandakı imanı,
Bəsirəti açıq olanlar,
Bəsirətlə görər Yaradanı.

Heç kəsə bənzətməyib,
Səbrlə axirətə inanar,
Dünyaları düşünüb,
Boş yaranmadığını anlayar.

Sahibini görməsədə,
Bilir vardır sahibi,
Əldən gedəcək,
Sahib olduqları.

Könlün para-paradır,
Bilirsən yolun hayanadır,
Sənə gələn hikmətlər,
Düzülüb yan-yanadır.

***Dedim:*** Könlümdən qiymətli heçnə yox,
Onu sənə vermişəm,
Sevginə inanıb,
Gələcəyi gözləmişəm.

Bilirəm görünməyəcəksən,
Səbr diləyəcəksən,
İlhamınla dindirib,
Yalnışı dəyəcəksən.

***Dedi:*** Həm gözəl ruhun,
Həm də mərhəmətin var,
Nankorluq görəndə,
Əbədi dönməyin var.

***Dedim:*** Barışmıram laqeyidlə,
Həm də zalım olanla,
Özünü ağıllı sanıb,
Yuxarıdan aşağı baxanla.

Düşüncəsini, sözündən anlayıram,
Düşüncəsizdən kənarda qalıram,
Buraxıb vicdanına,
İmanlıdan ilham alıram.

Hər kəs eyni ola bilməz,
Cürbəcür insan var.
Düşüncəsi dar olan,
Batində şeytan var.

İnsan barışmaz özü-özüylə,
Görər bəsirət gözüylə,
Düşüncəsi dar olan,
Görməz könül gözüylə.

Zirvədə olmaq istəməz,
Özünə əziyyət verməz,
Qəlbi geniş olan,
Qəfəsdə davam gətirməz.

Azadlığı üstün tutar,
Ondan zövq alar,
Bir canlıyı incitməyib,
Başqasına rəfa görməz.

Hər zaman sülh istəyər,
Olmasa qəmğin gəzər,
Ümid edib sabaha,
Gələcəyi gözləyər.

Xoşbəxt olar o zaman,
Rəbbiylə tənha qalsa,
İlhamıyla danışıb,
Suallara cavab alsa.

Çoxu məni başa düşməz,
Könlümdəki gövhəri görməz,
Qiymət verən Allah,
Lütvünü əsirgəməz.

Lütvünə şükürlər olsun,
Könlüm sevgiylə dolsun,
Zalımlara göz qoyan,
Mələklərin sağ olsun.

Zalımları görürsən,
Səbrlə gözləyirsən.
Səni sevən aşiqlərə,
Ümid bəsləyirsən.

İnşallah savabsız qalmaram,
Ümidi boşa çıxmaram,
Şeytanı peşiman edib,
Cənnəti qazanaram.

Allahdan ən çox,(Surə 2. Ayə 269)
Elm verilmiş qorxar.
Şeytan vəsvəsə versədə,
Haqqı danmaz.

Qaçası bir yerim yoxdur,
Haqqa təslim olmuşam,
Görüb böyüklüyünü,
Ona könül bağlamışam.

## YALANÇI BAHARSAN

Sən qışın içində,
Yalançı baharsan.
Məni xoşbəxt etmək üçün,
Sevgidən uzaqsan.

Sən ömrü az olan.
Məni uzaqdan qınayan
Yaxına gəlməyib
Talehi kəm olansan.

Sən özünü sevdirən,
Mənə dərd verən.
Qışda açan çiçəkləri,
Məndən əsirgənəsən.

Sən unudulmayan,
Xatirimdə yaşayan.
Bir gün peşiman olub,
Məni arayansan.



## UNUT KEÇMİŞİ, GƏLƏCƏYƏ BAX
## HƏR ŞEYİ ALLAHA BURAX

*Bir xanıma*

Acı taleyinə baxıb,
Xəbərdar oldum,
Gözümyaşı süzülüb,
Dilimdə təəssüf qaldı.

Ötən ötüb, keçən-keçib,
Odu yanan ocaq sönüb,
Bir zaman səni sevən,
Sanma doğru yolu seçib.

Sanma xoşbəxt olacaq,
Allah qisasını alacaq,
Haqq yolundan çıxanı,
Şeytan azdıracaq.

Dünyanın ələyi ələnəcək,
Yüngül olan küləklə gedəcək,
Haqq yolunu tutan,
Tərəzisi ağır gedəcək.

Unut vəfasızı sığın Allaha,
Mən sığındığım tək,
Sənə asan gələcək,
Çox işin düzələcək.

Vəfasız atıb gedəcək,
Allah dadına yetəcək,
Könlümdəki hikmətdən,
Səndə ibrət götürəcək.

Çoxu halıma şübhəli baxar,
Könlümü min yerdən oxlar,
Şahidi olan Rəbbim,
Onu hey sağaldar.

Halımdan aşiqlər anlar,
Necə anlar nadanlar.
Allah aşiqini,
Dəli sanarlar,

İmtahandan əla alasan,
Peşiman olmayasan,
Bəhanə gətirib şəraiti,
İbadətdən qalmayasan.

Çoxlu hikmətlər yazdım,
Könlünə sevgi toxumu əkdim,
Böyütmək sənə qalar,
Sevgin yoluna işıq saçar.

Əlimi üzmüşəm dünyadan,
Gedən nakam gedər dünyadan,
Dünya elə vəfasız ki,
Şirin gələr o dünyadan.

Şeytan səni çaşdıracaq,
Doğru yoldan azdıracaq,
Vacib olan namazı,
Sənə unutduracaq.

Onu hər an yanında bil,
Lənətlə həyata küsdür,
Toplayıb savabları,
Haqqın üzünü güldür.

Xoşbəxt o kəsdir, həm elmdə,
Həm də dindədir.
Sanma dinsiz elmdədir,
Nədə elmsiz dindədir.

Kəs vəfasızla iltifatı,
Sevgini Rəbbində axtar,
İbadət et axşam, səhər,
Möminliyə yüksəl.

İslama hayiq olub,
İz qoy dünyada,
Sevilib mələklərlə,
Cənnəti gəz o dünyada.

Vərəqəm bitdi sözüm bitmədi,
Bəzən gələmi yetmədi,
Səsləsəmdə ibadətə çoxunu,
Sevgisizə sözüm yetmədi.

Ağlı olan ibrət götürəcək,
Özünə gələcək seçəcək,
Aldanmayıb dünyaya,
Allahın yolu ilə gedəcək.

## YA RƏBBİM, SƏN GİZLİNDƏ HƏM AŞİKARDASAN

Sən gizlində, aşikardasan,
Uzaqda yaxındasan,
Sevənlərin,
Könül dünyasındasan.

Sən gizlində, aşikardasan,
Şah damardan yaxındasan,
Zalıma fürsət verib,
Sonunda şikardasan.

Sən gizlində, aşikardasan,
Möminlərə duadasan,
Sevgi dolu ürəklərdə,
Sənə dost olanlasan.

Sən gizlində, aşikardasan,
Sevənin dünyasındasan,
Sənə sadiq qulların,
İnamındasan.



## BOŞ ƏLLƏ GETMƏ

Boş əllə gəlmişik,
Boş əllə gedəcəyik,
Bu fani dünyada,
İmtahan ediləcəyik.

Çoxu o dünyaya inanmaz,
Haqq dünyasını qazanmaz,
Dünyaya bağlı qalıb,
Namazı qılmaz.

Bəlkə bu gün öləcəyik,
Arzuyla yetməyəcəyik,
Düzəltməyib səhvi,
Günahla gedəcəyik.

Şeytan aldadıb minbir oyunla,
İmdan dindən çıxaracaq,
Vəd edib xoşbəxtliyi,
İslamdan çıxaracaq.

Gərək mətin dayanaq,
Fitvasından qorunaq,
İslamın haqq dini olduğunu,
Qurandan oxuyaq.

İmansız olsan əgər,
Olar çox nöqsan,
İmanda mətin olsan,
Maneləri aşarsan.

Getmə boş əllə,
Qazan əbədi dünyanı,
Düşünüb gələcəyini,
Doldur savab kisəni.

Doldur  savabla sevinəsən,
Cənnət mələkləri ilə gedəcən,
Peşiman olmayıb,
Geriyə yol yox, biləsən.



## ƏN GÖZƏL NƏĞMƏ ALLAH ÜÇÜN OXUNANDIR

Ən gözəl nəğmə,
Allah üçün oxunandır.
Aşiqlərin könlündə,
Hikmətlə anladılandır.

Könül nəğməsini söyləyər,
Sevgisiylə bəsləyər,
Dəftərə köçürüb,
Önündə səçdə edər.

Vəsf etməkdən doymaz,
Qələmi yerə qoymaz,
Rəbbə olan sevgisini,
Ondan qeyrisi duymaz.

Şükür edər halına,
Betərindən qorxar,
Rəbbin var olduğuna,
İmanıyla inanar.

O nəğmə könüllərdə bəslənər,
Dodağlarda səslənər,
Dağlar, dənizlər səs verib,
Dünyalara səpələr.

O nəğmə aşiqlərin nəğməsidir,
Rəbbin ilhamla səsidir,
Gözlə görə bilmədiyimiz,
Bəsirətin səsidir.

O nəğmə nəğmələrdən gözəlidir,
Çün Rəbbimi vəsf edir,
Nə qədər vəsf etsə də,
Yenə azdır deyir.

O nəğmə nəğmələrin şahidir,
Deyənin könlü yaralıdır,
Hey yazsada nəğməsini,
Yetməz vüsalına yolu bağlıdır.

O nəğmə gələcəyə səsləyər,
Günahdan qurtul gəl deyər,
Tövbə edib günaha,
Cənnəti məkan et deyər.

O nəğmə könüllərdə yoğrular,
Hey dualda olar,
Ən böyük sevgisini,
Yaradanda tapar.

O nəğmə haqqa səsləyər,
Hikmətlərin söyləyər,
Savabı topla deyə,
Gələcəyə səsləyər.

O nəğmə Rəbbi sevindirər,
Ona ilham verər,
Allah bərəkət versin deyə,
Mələklər dua edər.

Yaradana şükürlər olsun,
Bəlalar uzaq olsun,
Allahı eşqi ilə sevmək,
Sonsuza qədər olsun.

O nəğmə gələcəyə götürsün,
Yoluma incilər düzsün,
Gözləyən Rəbbimə,
Sevənlər savabla getsin.

O nəğmənin odu sönməsin,
Sevgi imtahanı əla versin,
Düzəldib nöqsanı,
Şeytanı peşiman etsin.



## KÖNLÜM HEÇ BARIŞMIRDI

Məndən sonra nə qalacaq,
İzim bir gün yox olacaq,
İnşallah kitablarım,
Dünyada oxunacaq.

Oxuyub çoxusu
İmana dinə gələcək,
Yaşadıb islamı,
Şəriətlə gedəcək.

Hər kəs yaxşı əməl goyub,
Rəhmətə səbəb olsun,
Qoyduğu əməllər,
Cənnətdə gültək açsın.

İslam bayrağı altdında,
Sevgi ilə birləşək,
Tək Allaha inanıb,
Ona təslim olaq biz.

Haqqdan əl çəkməyək,
Yolundan dönməyək,
Baş əyib kafirə,
Şeytanı sevindirməyək.

Əl açıb Yaradana,
Dua ilə istəyək
Baş əyib dərgahına,
Zirvələrə gedək.

Hər iki dünyada,
Əzabdan qurtulaq,
Zamanı boş keçirməyib,
Dünyada iz qoyaq.

Baxıb ilham alsınlar,
Möminlər çoxalsınlar,
Lailahə illallah kəlməsi ilə,
Namaza hazır olsunlar.

Allah mətin olanladı,
İslamı yaşadanladı,
İmanda kamil olub,
Məğrur dayananladı.

Əbədi cənnət qazanaq,
Peşiman olmayaq,
Azad aşiq olub,
Sevməkdən usanmayaq.

Yüz ölçüb bir biçək,
Sirat körpüsündən keçək,
İmanı çoxaldıb,
Atəşlərə girməyək.

Sülh nəğməsi oxuyaq,
Savabı toplayaq,
Bizə verilən ömrü,
Boş yerə xərcləməyək.

Bəlkə sabah öləcəksən,
Ruhlarla birləşəcəksən,
Əməl dəftərini
Nə zaman düşünəcəksən.

Ağıllı tədarükünü edər,
Əyər əksiyini düzəldər,
Ölümün gələcəyini
Hər an gözləyər.

Nəfsini daim enər,
Özüylə hesab çəkər,
Dinləyib könül səsini,
Şəriətlə gedər.

***Dedi:*** Ömür yar deyil,
Hər insan bəxtiyar deyil,
Könül səsini dinləməyən,
Mömünlərə yar deyil.

## SƏN BİR BAXÇA QOYUBSAN

*Mərhum bacım Qəribəyə ithaf edirəm*

Sən bir baxça qoyubsan,
Barını yeyən rəhmət desin,
Savabı yazılıb,
Ruhun əzab çəkməsin.

Sən bir baxça qoyubsan,
Səni xatırlayaq,
Hər yerdə izini görüb,
Sənə rəhmət oxuyaq.

Sən bir baxça qoyubsan,
Səni hey gözləyir,
Bəzən küsüb bizə
Barını az verir.

Sən bir baxça qoyubsan,
Doyunca yeməmisən,
Bizə halallıq verib,
Onu satma demisən.

Sən bir baxça qoyubsan,
Ətri bizə xoş gəlir,
Sənin yoxluğunu,
Nəğməsi ilə söyləyir.

Sən bir baxça qoyubsan,
Çox kəsi doydurur,
Hey zəkatı verilib,
Yeyən rəhmət oxuyur.

Sən bir baxça qoyubsan,
Hey bizi gözləyir,
Kölgəmdə dincəlib,
İbadət et deyir.

## İNSAN QOCALSA DA EŞQ QOCALMIR

Çox bahar ötüb keçsə də,
Eşqin baharı solan deyil.
Qayğılar çox olsa da,
Könül eşqi unudan deyil.

Könlümün güşəsindən,
Nəğməsi ilə oyanacaq,
Uca zirvədən,
Səsini dünyaya yayacaq.

Qoşulub küləyə,
Dönəcək sevgili mələyə,
Qar altında bənövşələrin,
Qoxusu dolacaq ürəyə.

Yandıracaq könlü naz ilə,
Deməyəcək nazı az elə,
Şəhla gözdən süzülüb,
Eşqini söyləyəcək avaz ilə.

Eşin yaşı yox qocalan deyil,
Eşqi sonsuz qocalan deyil,
Cismi qocalsada dünyada,
Eşqi solan deyil.

Çoxu eşqdən dastan yazdı,
Dünyada yadigar qoydu,
Sevgi eşqini dünyada qoyub,
Sizə səadət arzuladı.

Eşqin ən böyük zirvəsindəyəm,
Dünyaya baxa bilirəm,
Eşqinlə fəth edib dünyanı,
Dünyaları görə bilirəm.

Eşqin ən böyük zirvəsindəyəm,
Meyvəsini dərə bilirəm,
Hikmətlə bəzəyib könülləri,
Rahat gedə bilərəm.

Eşqin ən böyük zirvəsindəyəm,
O zirvədə qalmaq istərəm,
Bəzəyib eşqimlə zirvəni,
Könüldən könülə gedə bilirəm.

Eşqin ən böyük zirvəsindəyəm,
Allah aşiqlərini seçə bilirəm.
Dildə sevirəm deyənin,
Könlünü görə bilirəm.

Eşqin ən böyük zirvəsindəyəm,
Fəth etmək çətin olub,
Enməyi anlıq olsa da,
Sevgimlə onu saxlayım gərək.

Eşqin ən böyük zirvəsindəyəm,
Arxayın olmayım gərək,
Mənə bir şey olmaz deyə,
Bəd nəzərdən qorunum gərək.

Eşqin ən böyük zirvəsindəyəm,
Sevgisiz fəth etməyəcək,
Aldanıb şeytana,
Əliboş gedəcək.

Nədən sevgisizdir çoxusu,
Dərin düşünən azdır doğrusu,
Əldə olsada imkanı,
Dəyərləndirmir zamanı.

Sanır dünya yaşayacaq,
Bəlalardan qaçacaq,
Yığdığı var dövlət,
Onu yaşadacaq.

İnsan hərisdir dövlətə,
Dövlət gəlsə də dövlətə
Ac gözü doydura bilməz,
Dövlət gəlsə də dövlətə.

## SAHİLLƏR

Ucu-bucağı görünmür,
Dalğayla quçaqlaşır.
Pıçıldayıb nəğməsini,
Dənizlə danışır.

Tənha qalıb gecələri,
Ay ilə danışır,
Gündüz günəşdə yanıb,
Dalğalarla savaşır.

Sorub yollardan,
Bir gələnim varmı deyir,
Qış yaxınlaşır,
Tənha qalacam deyir.

Yağmurla yuyulur,
Dalğaya qucaq açır,
Qorxmayıb sərt dalğadan,
Yuyulmağa çalışır.

Verib hər gün imtahan,
Qiyaməti gözləyir,
Lütvünü qazanıb,
Əmrini gözləyir.

Həsrət qalıb dənizə,
Bir gün torpaqla birləşəcək,
Sahil adını unudub,
Xarabaya dönəcək.

## ODU SÖNDÜRÜB, KÜLÜ İLƏ OYNAYANA

Dar gündə tutmayıb əldən,
Sanır tutacaq əldən,
Odu söndürüb bir zaman,
Köz gəzir külündən.

Ata yurdunu seyr edir,
Gəzir sevgini axşam-səhər,
Nemətlər düzülsədə önünə,
Şükür gəlməz dilinə.

Gözləri qalıb yollarda,
Gedənlər birdə gəlməz,
Zamanında tutmadı əldən,
İndi bir şey gəlməz əldən.

Hələ o sevgini çox gəzəcək,
Özündə günah görməyəcək,
Dinləməyib vicdanını,
Özünü haqlı biləcək.



## SEVGİSİZ OLANA YAZIĞIM GƏLİR

Batmış qəm dəryasına,
Nəfs qoymaz yetsin yarısına,
Özünə zülüm edənin,
Kimsə gəlməz fəryadına.

Sevgisiz olana yazığım gəlir,
Aldanıb dünya malına,
Ondan bir şey götürməz,
Savab yadına düşməz.

Sevgisiz olana yazığım gəlir,
Düşünməz aqibətini,
Sonunda peşiman olar,
Göz yaşı daim axar.

Sevgisiz olana yazığım gəlir,
Dəyərmi savabsız getməyə,
Zamanı boşuna keçər,
Ömrü sevgisiz bitər.

Sevgisiz olana yazığım gəlir,
Ancaq nemətləri düşünər,
Sanır onunla xoşbəxtdir,
Dünya ondan ibarətdir.

Sevgisiz olana yazığım gəlir,
Hər zaman dardadır,
Əlləri qoynunda qalib,
Könlü zindandadır.

Sevgisiz olana yazığım gəlir,
Bədbəxtliyini düşünürəm,
Bu gözəl dünyaya,
Yük olduğunu görürəm.

Sevgisiz olana yazığım gəlir,
İnsan sevgidən güc alar,
Sevgisiz olanları,
Dünya tələyə salar.

Cahana sevməyə gəldim,
Şükür sevgimlə yüksəldim,
Açıb könlümdə bir səhifə,
Səni vəsf eylədim.

Vəsfin o qədər gözəl ki,
Görməsəmdə görə bilirəm,
Könlündəki gövhərləri,
Yaratdığında görürəm.

## NAMƏRD ƏLİNDƏN

Namərd əlindən,
Diyarbadiyar oldum,
Keçmişi unudub,
Yeni səhifə açdım.

Acı kədərlə,
Qaysaq tutsada yaram,
Dərd məni tərk etmədi,
Könül olsada aram.

Boynu bükük qaldım,
Soldum axşam-səhər,
Yenə ümidi itirmədim,
Könlümə dolsada qəhər.

Könlüm oldu qəm dəryası,
Dərddən özümə bir qala qurdum,
Dolanıb hər gün başına,
Bir haqqa sığındım.

***Dedim:*** Səbr et dərdli könül,
Bir gün unudarsan,
Sığınıb Rəbbinə,
Yeni səhifə açarsan.

***Dedi:*** Kim mənə bir addım atsa,
Onu naümid qoymaram,
Tövbəsini qəbul edib,
Yeni səhifə açaram.

Ummadığı bir yerdən,
Müjdələr göndərərəm,
İlhamını artırıb,
Düşüncəsini gücləndirirəm.

***Dedim:***Oxucum mən mat qaldım,
Bilirəm mat qalacaqsan,
İrfanla söylədiyi hikmətdən,
Faydalanacaqsan.

Kim səmimi tövbə etsə,
Aşiqilə yüksələr,
Düşünüb gələcəyini,
Nəfsini aclıqla enər.

Könlüm irfandan para-paradır,
Gözümdə yaş bir ayparadır,
Heyrətdə qalan könlüm,
Bilir yolu hayandır.

Rəbbim hər kəsdən mehribandır,
Sevənə hayandır,
Çətinlik olur qismətim,
Bilirəm bu imtahandır.

## AZƏRBAYCAN ƏSGƏRİ

Düşmənlə qalıb üz-üzə,
Vətən oğullarımız.
Çox zaman eşidilir,
Gözəl sorağınız.

Allah sizi saxlasın,
Düşmən gülləsindən,
Ölkəmə göz tikən,
Xainlərin fitnəsindən.

Yorğanınız səngərdir,
Orada isinirsiniz,
Qorxmayıb düşməndən,
Geri çəkilmirsiniz.

Fitnə fəsad qurub,
Basqın hazırlayırlar,
Şəhid edib əsgərləri,
Ödül alırlar.

Sizə dua edirəm,
Zəfər diləyirəm,
Sevənlərinizə,
Səbr diləyirəm.

***Dedi:*** Hələ çox sürəcək,
İllərin davasıdır,
Düşmən geri çəkilməz,
Zorla savaşasıdır.

Cahana bir gün silkələnəcək,
Qiyamət gəlirəm deyəcək,
Keyf edən zalımlar
Hey göz yaşı tökəcək.

***Dedim:*** Hər şey sənin əlindədir,
Yollarını bağlagınan,
Fitnə fəsad quranları,
Bəlalara salginan.

Vətənim çiçəklənsin,
Xoş sədası gəlsin,
Düşmən bağrı çatlayıb,
Yurdu xaraba gəzsin.

Vətənim göz dağı olub,
Gözlərinə batsın,
Allah bizi qoruyub,
Düşmənə zərbə vursun.

Şəhidlərimiz nalə edir,
Ruhları dincəlməyir,
Yerləri cənnət olub,
Qisas gününü gözləyir.

Mən nakam anayam,
Dərdinizi çəkirəm,
Sizə dua edib,
Onunla dincəlirəm.

## VƏFA GÖZLƏMƏ

***Dedi:*** Bəzən küsüb həyata,
Vəfasızdan vəfa gözləmə.
Sən bağlan Rəbbinə,
Ondan əlini üzmə.

Peşiman olmazsan,
Əli qoynunda qalmazsan,
Vəfasız əzizlərə,
Çox bağlanmarsan.

Ümid et sabaha,
Gülümsə sən həyata,
Bilki zalım,
Gələcək zavala.

Gör nə deyir sənə Rəbbin,
Kafirdən uzaq gəzəsən,
Söz anlamayana,
Hikməti söyləməyəsən.

Zalım yanıb yaxılacaq,
Göz yaşı ilə oyanacaq.
Əldə olan zamanın,
Qədrini anlamayacaq.

Mərhəmətlidi gülüm,
Çoxuna can yandırır,
Can yandırdikları
Canını yandırır.

***Dedim:*** Rəbbim özü görür,
İsbatına gərək yox,
Özü bilər nə edər,
Hər nə etsə haqq edər.

## HİRS AĞLIN ÖNÜNƏ KEÇƏNDƏ NƏLƏR OLAR?

***Dedi:*** Hirs ağlı alar əldən,
Hikmət gedər könüldən,
Sonrakı peşimançılıq,
Bir şey gəlməz əldən.

Hey yanıb yaxılarsan,
Dərdi dərli ağlayarsan,
Əldən verib fürsəti,
Özünü danlayarsan.

Gözü pərdələyər hirsin özü,
Şeytan bağlayar bəsirət gözü,
Allahı xatırlasan,
Şeytani kənar edər özü.

Gərək ağılla düşünəsən,
Allahdan kömək diləyəsən,
Təhlükəni sovuşdurub,
Hikmətdən ibrət götürəsən.



# MÖMİNLƏR BİR OX TƏK KAFİRLƏRİN GÖZÜNƏ BATAR

***Dedi:*** Mömin Rəbbin sevincidir,
Könlü sanki bir incidir,
Qiyamət qopan zaman,
Öndə birincidir.

Məsum uşaq kimidir,
Hər iki dünyada birincidir,
İslamı yaşadanlar,
Allahın sevincidir.

Kafir paxıllıq edər,
Özünü üstün görər,
Qiyamət qopan zaman,
Həqiqəti onda görər.

Arada ikilik salar,
Gözü daim ac olar,
Dünyadan köçəndə,
Mənzilə əliboş çatar.

Kini yerə göyə sığışmaz,
Daim fitnələr qurar,
Nahaq qanlar axıdıb,
Bundan xoş olar.

Sussamış insan qanına,
Doymaz gözləri,
Dünyasını dəyişəndə,
Acılar gözləri.

Çaşbaş qalar yollarda,
Qandal olar ayaqlarda,(Surə 88. Ayə 3)
Bir soranı olmaz,
Gözü qalar yollarda.

Çün ədaləti itirmişdi,
Yaşayacağını düşünmüşdü,
Keyf edib hər zaman,
Gələcəyini düşünməmişdi.

## MƏNİM KÖNÜL SƏSİM

İlhamla,
Könlümdən qopursan,
Ağ vərəqə yazılıb,
Sonra oxunursan.

Mənim könül səsim,
Sən haqqın səsisən,
Könlümə süzülüb,
Sonra səslənirsən.

Mənim könül səsim,
Sevgi ilə yoğrulmusan,
Mənə ümid verib,
Könlümü ovutmusan.

Mənim könül səsim,
Könlümün şuarisan,
Mənə ilham verən,
Könlümün vüqarısan.

Mənim könül səsim,
Səndən çox şey öyrənirəm,
Sükutla dinləyib,
Nəğmənideyirəm.

Mənim könül səsim,
Tarixdə yaşayacaq,
Dünya yaşamasada
Daim yaşayacaq.

Mənim könül səsim,
Məni yaşadansan,
Gələcəyə götürüb,
Haqqı tanıdansan.

Mənim könül səsim,
Sənin qiymətin yox,
Tanrı yanında,
Hörmətin çox.

Mənim könül səsim,
Sən sevilənə verilirsən,
Hikmətlə bəzənib,
Könülləri sevindirirsən.

Mənim könül səsim,
Sən çox ulusan,
Rəbbin hikmətli,
Şuarısan.

## XƏYAL VƏ HƏQİQƏT

İmtahan dünyasıdır,
Özümüzü aldatmayaq,
Səadətə çatmaq üçün,
İmtananı unutmayaq.

Gəlib yolun sonuna,
Boş olduğunu anlayırıq,
Aldanıb şirin dünyaya,
Savabdan oluruq.

Unudub ölümü,
Var dövlət toplayırıq,
Sanki illər var deyə,
Arxayın oluruq.

Həqiqətin gözünə,
Dik baxa bilmirik,
Ölüm adlı qonağı,
Heç sevməyirik.

Tutub ümidin əlindən,
Sabaha gedirik,
Ümid qanadında,
Biz ölümə gedirik.

Bitir dünya həyatımız,
Yeni dünyaya gedirik,
Harada yaşamaq üçün,
Yerimizi bilməyirik.

Geri dönüş olmayacaq,
Hesab kitabı bağlanacaq,
Axirəti düşünməyən,
Gözü yaşlı qalacaq.

Özümə səadət diləröm,
Hey ümid ederəm,
Sabah nəgətirəcəyini,
Bilmərəm.

***Dedi:*** Saralıb solmayasan,
Arxayın olmayasan,
Nədə ümidi itirib,
Naləc qalmayasan.



## MƏHZƏBİ BƏHANƏ EDƏNLƏRƏ

***Dedi:***Həqiqət kənarda qalıb,
İstədiyini söyləyir,
Məhzəbi bəhanə edib,
Günaha girir.

Çox yerdə qan töküb,
Özlərini haqlı bilib,
Ölkələri dağıdıb,
Haqlıyam deyirlər.
Məhzəb bir bəhanədir,
Aralığa atıblar,
İmanı zəif olanı
Bir yerə toplayıblar
Şəriəti oxumayan,
Ara sözə inanır
İllər gəlib keçəcək,
Zalımlar girib tökəcək
İmanlılar səbr edib,
Gələcəyini düşünəcək.

## YA RƏBBİM XEYLİ PUL TAPIM
## İNŞALLAH SAHİBİNİ GÖNDƏRƏRSƏN

***Dedi:*** Gör nə deyir Rəbbin,
Edir səni imtahan,
Aldanma şeytan fitnəsinə,
Bu yolda mətin dayan.

İtirib bir məzlum,
Gözü axtaracaq,
Göz yaşı töküb,
Özünü danlayacaq.

Rəbbin səni sinayar,
Nəfsin şahlıq edər,
Şeytan vəsvəsə verib,
Heç kəsə vermə deyər.

O pul xərclənəcək,
Sənsə əzab çəkəcək,
Vicdanın inləyib,
Xəcalət çəkəcək.

Nura-nur qatmalısan,
O pulu ayırmalısan,
Sahibi tapılanda,
Onu qaytarmalısan.

***Dedim:*** Pullar gəlib gedəcək,
Elə xərclənəcək,
Axirəti düşünən,
Savabı düşünəcək.

Sorğu sualdan qorxuram,
Hey xəcalət qalaram,
Cəhənnəmə atılıb,
Elə hey yanaram.

Keşkə sevindirəydim,
Könülləri hər zaman,
Lütfünü qazanıb,
Səadətə çataydım.

Ucadır gözəl Rəbbim,
Hər nöqsandan uzaqdır,
Lütfünü qazanmaq,
Yollarımız duzaqdır.

Sahibini göndərərsən,
Məndə rahat olaram,
Pulu qaytarıb,
Savabı qazanaram.

Çox şükürlər olsun,
İndi rahat olmuşam,
Pulu qaytarıb,
Şeytanı peşiman qoymuşam.

***Dedi:*** Rahat yata bilərsən,
Nəfsinə qalıb gəlmisən,
Çox borcun olsada
Vicdanı dinləmisən.

## NECƏ GÖZƏLDİR RƏBBİMİN KÖNLÜ

Çox gözəldir,
Rəbbimin könlü,
Çün.. gözəl yaradıb,
Gördüklərimi,
Əsirgəməyib gövhərlərini,
Sevgi ilə aşıb daşıb,
Sevənlər ondan danışıb
Könül gözü ilə görürəm
İnkar etmərəm gördüklərimi,
Nişanəsi var hər yaratdığında,
Kafir inkar etsədə varlığını,
Mömin düşünər varlığını
Hey vəsf edib
Arxayın olmaz sevgisindən.

## ZALIM ŞEYTANA

Hansı üzlə çıxacaqsan,
Rəbbin hüzuruna,
Qoymamısan insan,
Yetsin hüzüruna.

Çox get gəl edib,
Vəsvəsə vermisən,
Unudub cəhənnəmi,
Özünü güclü bilmisən.

Allah lənət etsin,
Sənin kimi zalıma,
İnsan düşməsin,
Sənin halına.

Tərslikdən dönməyib,
Özünlə öyünürsən,
Harada mömin görsən,
Dövrəsində yürüyürsən.

Məqsədin alçatmaqdır,
Qəsdən yıxmaqdır,
Göndərib cəhənnəmə,
Oranı doldurmaqdır.

***Dedi:*** Rəbbinə güvənəsən,
Duaları söyləyəsən,
Gəlməyib vəsvəsəsinə,
Allah lənət etsin deyəsən.

Rəbbinə inansanda,
Sanma vəsvəsəndən aralısan,
Könlün xəbər verəcək,
Hiylələrin deyəcək.

Olma arxayın ondan,
Bəlaların çoxu gəlir ondan,
Allah çoxusunu qutarsa da,
Zalımlar qutarmaz ondan.

Gözlərin yolda qalsada,
Rəbbindi səbr verənin,
Qərarsız olub üzülürsən,
Təbəssümlə göyləri süzürsən.

Taleh adlı bir yükün var,
Sən onu çəkməlisən,
İnşallah çap edib kitabları,
Ellərə verməlisən.



## HƏR ŞEYİ BURAX ZAMANINA

Çox şeyə tələssəkdə,
Hər şeyi burax zamanına,
Çox şey gizlində qalar,
Yetməsəkdə dünya təamına.

Hər iş səbrlə gələr başa,
Tələssək sanma şeşqoşa gələr,
İmtahanı unutmayana,
Bu dünya əfsanə gələr.

Zamanla dost olaq,
Onunla ağlayıb gülək,
Göndərilən imtahandan,
Üz döndərməyək.

Zaman Rəbbin əlindədir,
İstəsə geri döndərə bilər,
İstəsə irəli çəkib,
Bizi heyrətdə qoya bilər.

***Dedi:*** Kim imanla haqqa inansa,
Haqq dünyasını danmasa,
Qiyamətə inanıb,
Öləndən ibrət alsa,
Könül dünyasına səyahət edər,
Dünyanın boş yaranmadığını görər,
Hər gün ibadət edib,
İmanını gücləndirər.
Könül bağlamayəb dünyaya,
Vaxtını boşa keçirməz,
Savab üstündən savabı edər,
Tövbə edib günaha,
Düşüncəsini gücləndirər.

## İNSANIN ÖMRÜ İLİN FƏSLİNƏ BƏNZƏR

***Dedi:*** İnsanın ömrü ilin fəslinə bənzər,
Baharı yayı payızı qışı var.
İsti günəşi qasırqası tufanı,
Dünyanın hər cür imtahanı var.

Elə keçilməz qalalar qurar,
Səni vicdanına buraxar,
Sınayıb ədalətini,
Savabı dəftərinə yazar.

İmtahan üstündən imtahan gələr,
Şeytan səni həvəsdən düşürər,
Toplasan gücünü əgər,
Rəbbin müjdələr göndərər.

Gücü alasan imanından,
Həvəsdən düşməyəsən,
Sussa könlünün ilhamı,
Günahı özündə görəsən.

Unutmayasan əhdi peymanı,
Söndürməyəsən ilhamı,
Əli bağlı qalmayıb,
Gözləyəsən sözün məqamını.

## HEÇ DƏYƏRMİ

Bir vəfasız üçün,
Üzülməyə dəyərmi,
İlləri bada verib,
Gözləməyə dəyərmi.

Xəbər  tutmaz halından,
Dərdlə yanan canından,
İlləri bada verib,
Olarsan canından.

Könül yerinə daş gəzdirir,
Bir sorumsuz baş gəzdirir,
Əhdə vəfalı olmayan,
Savab kisəsini boş gəzdirir.

***Dedi:*** Vəfa axtarma vəfasızda,
Ancaq sevənlər vəfalı olar,
Vəfasız könüllər,
Kinlə nifrətlə dolar.

Sevən könül gültək açar,
Könlü duada olar,
Gələcəyini düşünən,
Allah qəzəbindən qorxar.

Atəşlə oynayanlar,
Bir gün atəşə girəcək.
Sorğu sualdan qorxanlar,
Nəfsini orucla enəcək.

***Dedim:*** Mən aşiqəm könlü dağlı,
Səndə gəzirsən könlü dağlı,
Dərman eylə könlümə,
Gəzməyim könlü dağlı.

***Dedi:*** Buda bir talehdir,
Onu yaşamalısan,
Talehinə düşən qəmi
Səbrlə daşımalısan.



## BU GÜN DOĞMA GÜNÜMDÜR

Bu gün doğum günümdür,
Sənə şükürlər olsun.
Arzulara çatım mən,
Tutub eşqin əlindən,
Sabahlara gedim.
Dünyada qoyub izimi,
Sözümü deyim
Hələ neçə nəğmələrim
Şəhanə əsərim
Mənə möhtac olan,
Bir yetimim var.

***Dedi:*** Əl götürmə xudadan,
Yaz-yarat durmadan,
Hər şeyi Allah verir,
Arxayın ol xudadan.

İnşallah gəzəcək şeirlərin dildən-dilə,
Ruhun baxacaq göydən yerə,
Yaradıb könüllərdən sevgi,
Ruhuna dualar ediləcək.
Şərəfə-şana yetəcəksən,
Günahı tərk edəcəksən,
Talehinə düşən qəmə,
Səbrlə dözəcəksən.

Yaradıb könlünü sevgi ilə,
Sənə səbir diləyər,
Saf arzu niyətinin,
Qiymətini verər.

Cahana birdə gəlməyəcəksən,
Gərək qədrini biləsən,
Sənə verilən ilhamı,
Ellərə yaya biləsən.

Tez əsib, tez coşursan,
Yenə səbrlə dayanırsan,
Yanında olan şeytanı,
Peşiman qoyursan.

Şükürlə yatıb oyanırsan,
Qəzəbimdən qorxursan,
Bəzən sahib olmayıb dilinə,
Sirrləri açıb danışırsan.

***Dedim:*** Könüllərdə olan Rəbbim,
Məni məndən çox sevən,
Dözüb çox zülmə,
Qiyməti axirətdə verən.
Könülləri sevgi ilə  dolduran,
Açıb rəhmət qapısını,
Lütvünü əsirgəməyəsən.

***10.10.2016***

## SOLAN ÇİÇƏKLƏR

Elə sevinclə açmış,
Solacağına inanmamış.
Gələn fəsli gözləyib,
Ümidi kəsməmişdi.

Ləçəyində var izi,
Nəğməsini söyləyir.
Hər gələn baharda,
Yenə açaram deyir.

Nalə edir bülbül,
Hey gülü soraqlayır,
Tez açıb solduğu üçün,
Hey ona ağlayır.

Yenə ümidlə gözləyir,
Baharda açacağını bilir,
Ayrılmayıb güldən,
Nağmasini söyləyir.

Biz solan çiçəklər tək,
Qıyamətdə diriləcəyik,
Bir də solmayıb heç,
Ayrı-ayrı yerlərə gedəcəyik.

## KƏLBƏLA ŞƏHİDLƏRİ

Ucalıb şəhidlik zirvəsinə,
Könül nəğməsini söyləyir.
Yad edir sizi sevənlər,
Adınıza nəğmələr deyir.

Tarixdə qaldı adınız,
Bizə örnək oldunuz,
İnsanlıq yox olmasın deyə,
İslamı yaşatdınız.

Sevənlər dua edir sizə,
Salam göndərir hər birinizə,
Könül baxçamdakı çiçəklər,
Nəğmə  söyləyir sizə.

Həm kədərlənib sevinirsiniz,
Bizi göylərdən izləyirsiniz,
Sevənlərinizə,
Dualar edirsiniz.

Sizinlə fəxr edirik,
Sizə sevgi bəsləyirik,
İslamı yaşadanlar,
Dərgahına üzüağ gedir.

Sevgi könüldən bağlıdır sizə,
Heyrandır möminliyinizə,
İnşallah bir gün gəlib,
Qoşulacaq sizə.

***Dedi:*** Cana can qatmalısan,
Hər gün əla almalısan,
Sübh namazını qaçırmayıb,
Gec yatmamalısan.

***Dedim:*** Gördüyünü danmaq olmaz,
Gec yatan tez oyanmaz,
Tez oyanmaq istəyən,
Gecə gec yatmaz.

Bilmədən namazı qaçırsaq,
Həvəsdən düşməməliyik,
Səhvimizi düzəldib,
Biz sevilməliyik.



## ÇİÇƏKTƏK AÇIR KÖNÜL

Çiçək tək açır könül,
Səni düşünəndə,
Sənə nəğmələr qoşur,
İlhamım gələndə.

Çiçəktək açır könül,
Quşlarıgörəndə,
Rənglərin gözəlliyini
Hər yerdə görəndə.

Çiçəktək açır könül,
Çiçəkləri görəndə.
Ruhunun incəliyini,
Gül çiçəkdə görəndə.

Çiçəktək açır könül,
Təbiəti görəndə,
Könül səni vəsf edib,
Nəğməsini söyləyir.

Çiçəktək açır könül,
Dünyaları görəndə,
Rəbbin böyüklüyünü,
Yaratdığında görəndə.

Çiçəktək açır könül,
Ruhum pərvaz edir,
Xəyalım dünyanı gəzib,
Nəğməsini eşidir.

Çiçəktək açır könül,
İmanlı görəndə,
Rəbbinə şükür edir,
İnsanlıq ölməyib deyir.



## BİR SƏN YETƏRSƏN MƏNƏ

Hər kəsim varkən,
Bir sən yoxdun.
İndi çox kəsim yox,
Sən varsan yetər.

Bütün dünya yıxılsada,
Bir kəsim qalmasada,
Könlüm sənlə xoşbəxdir,
Sən varsan yetər.

Sevginlə mən-mən oldum,
Suallar tək duruldum,
Bu yoxluq içində,
Ən zəngin mən oldum.

Ən böyük varım dövlətim,
Mənim könül səsimsən,
İki cahanda var olan,
Könlümün sevincisən.

Səmimi olduğumu,
Tək sən görürsən,
İlhamınla məni,
Hey dindirirsən.

Bu yalançı dünyada,
Tək gerçəyim sənsən,
Lütvünə inandığım
Könlümün sultanısan.

Bilirəm yolum hayanadır,
Bu dünya əfsanədir,
Əvvəli şirin yuxu,
Sonu qəmxanədir.

Böyük səadət ola bilməz,
Dünya gözümə görünməz,
Səni sevənlər,
Savabsız gedə bilməz.

Sən məzlumun yanındasan,
Günah etsədə,
Lütvünlə utandırıb,
Könül gözünü açmısan.

## TƏSLİM OLDUN KÖNÜL

Hey çırpınıb durardım,
Aram olmazdım
Vəslini arzulayıb,
Xəyallar qurardım.

Sanki xoşbəxtlik uzaqdadı,
Xoşbəxt ola bilmirdim,
Sənə yetmək üçün,
Pillə-pillə gedirdim.

Vəsilinə yetmişəm,
Dünyanın xoşbəxtiyəm,
Sənə təslim oldum,
Daha yoxdu qəmim.

Sevdirdin özünü,
Açdın könül gözünü,
Ən böyük dahisən
Gördüm eşqin gücünü.

***Dedi:*** Saf arzu niyətdəsən,
Nəfslə mübarizədəsən,
Unutma imtahanı,
Mələklərin dövrəsindəsən.

***Dedim:*** Sonsuz şükürlər olsun,
Günüm, sənlə açılıb dolsun,
Dualarım mənim,
Yoluma işıq olsun.

## DÜNYAYA NƏFSİN YOX KÖNÜL GÖZÜYLƏ BAX

*Bir nəfərə*

Nəfs səni  bəlaya salar,
Təhlükəyə aparar,
Səadət kənarda qalıb,
Könül gözünü bağlayar.

Nəfs səni candan edər,
Cəhənnəmə götürər,
Ruhunu əsir saxlayıb,
Aləmə güldürər.

Nəfs səni şəriətdən yayındırar,
Yalnış yolda azdırar,
Bəsirəti bağlayıb,
Sərhədləri aşdırar.



## DOĞRU SÖZÜ SEVMƏYƏNƏ

***Dedi:*** Doğru olanın,
Allah köməyinə çatar.
Xainin qismətinə,
Fitnədən torlar çıxar.

Namərd sevməz  mərdi,
Ələyəcək onu zaman,
Zəhər qatıb aşına,
Etdiyi çıxacaq qarşısına.

Sanma tərslikdən dönəcək,
Öz səhvini görəcək,
Günhaın əzabını,
Hər iki dünyada çəkəcək.

Gözü yolda qalan fasiqdir,
O, şeytana şeytan ona aşiqdir,
Tüfeyli qəzib yollarda,
Əzabdan don geyəcək.



## ÖZÜNƏ ƏZAB HAZIRLAYANA

Ruhu sönük olub,
İman nuru olmayıb.
Özünü haqlı sanıb,
Ədalətə inanmayıb.

Hələ hay həşirdədir,
Sanki göydədir,
Etmədiyi ibadəti,
Ona zərbədir.

Min bir dona girib,
İnanma könlü gülüb,
Üzdə üzə gülüb,
Arxada lağ edib.

Sanır belə qalacaq,
Daim şad olacaq,
Gülüb oynayıb,
Keyfi xoş olacaq.

Qalıb  əzabda,
Cəhənnəmdə yanacaq,
Etdiyi günahın,
Əvəzini alacaq.

***Dedi:*** Tutub eşqin əlindən,
Sən səhəri açginan,
Ruhu gözəl olanı,
İslama çağırginan.

Unutma əhdi-peymanı,
Kəsməyəsən duanı,
Ədalətli olub,
Susdurmayasan ilhamı.

## TƏHLÜKƏ

Bir addım təhlükəyə götürər,
Bir addım atsan təhlükədən qurtarar,
Tələsib ya səbr etmək
Özünə qalar.

Demə mənə bir şey olmaz,
Könül evim viran olmaz,
Haqq yolu ilə gedən,
Duadan əsla qalmaz.

Dua sənin silahındır,
Təhlükədən sovuşarsan,
Əl çəkib nadanlıqdan,
Möminlərə qarışarsan.

Küsməyəsən həyata,
Baxasan mənəviyyata,
Dili şirin söyləsədə,
Günahı ört basdır etsədə.

Gözə kül üfürəcək,
Hey nöqsan gəzəcək,
Şeytanın yolu ilə gedən,
İmanlını sevməyəcək.

Altdan-altdan güləcək,
Hikmətdən yan keçəcək,
Nöqsanını görməyib,
Hey lağ edəcək.

***Dedi:*** Aləmə car çəkiləcək,
Axırzaman gələcək,
Sevgi dolu ürəklər,
Ondan ibrət götürəcək.

## AXİRƏTİ DÜNYAYA SATANLARA

Aldanıb dünyaya,
Axirəti düşünməz,
Baxmaz könül səsinə,
Dünya dönsədə tərsinə.

İki əlli tutub dünyanı,
Sanki yaşadacaq onu,
Axirəti boş sayan,
Peşimanolar.

Düşünməz aqibətini,
Hikməti başdan atar,
Cahillikdən əl çəkməyəni,
Könlü zülmətdə qalar.

Hikmət bir nurdur,
Onu hey oxumalısan,
Deyilənə əməl edib,
Ondan ibrət almalısan.

Gedib onurun yolu ilə,
Azadlığa çıxmalısan,
Axirəti üstün tutub,
Dünyaya aldanmamalısan.

Kimsə bir şey götürməyib,
Ağıllı savab götürüb,
Ağılsız dövlət toplayıb,
Ancaq boş əllə gedib.

Bağlanacaq yollar,
Geri dönüş olmayacaq,
Savabsız gedənlər,
Peşiman olacaq.

Nə varsa burada qalacaq,
Sanma varın dadına çatacaq,
Etmədiyin savablar,
O dünyada xatırladılacaq.

Şəriətdən faydalanmayan,
Nəfsinəqul olar,
Əhdə vəfa etməyənin,
Könlü zülmətdə qalar.

Kafirlə mömini ayırmayan,
Haqq borcunu verməyən,
Hikməti boş soz sanar,
Ancaq dövlət toplayar.

## YA RƏBBİM NƏDƏN DÜNYANIN ÇOX YERİNDƏ MÜSƏLMANLAR QIRILIR?

***Dedim:*** Çox düşünüb sual etdim,
Dərdli halımı söylədim,
Dünyadakı zalımlara,
Allah lənət etsin dedim.

Kafirlər birlik olub,
Müsəlmanı hey qırıblar.
Şəhidləri çoxaldıb,
Cəhənnəmlik olublar.

Axırzaman yaxınlaşır,
Bəlalar çoxalır,
İslam əxlaqını sevməyən,
Keyfdə, damağda olur.

***Dedi:*** Zamanla görəcəksiniz,
Zəfərlərə yürüyəcəksiniz,
İslam bayrağı altında,
Müsəlmanlar birləşəcəksiniz.

Hər yerdə eşidiləcək əzan səsləri,
Kafirlərin kəsiləcək səsləri,
Möminlər birlik olub,
Deyəcək azadlıq nəğməsi.

Şeytan istəyir qələbə çalsın,
Ordusunu çoxaltsın,
İmansız olanları,
Bir yerə toplasın.

## MÜQƏDDƏS QURANI TƏHQİR EDƏNLƏRƏ

Allahdan qorxmayıb,
Qurandan çox yazmısan.
Bəsirəti bağlı qalıb,
Kor olmusan.
Özün kimilərini,
Toplamısan başına,
Yazdığın sözləri,
Yaymısan dünyaya.
Əlin yetsəydi,
Dünyaya ağa olardın,
Solub eşqin həvəsin,
Haqqa uzanıb əlin,
İslama böhtan deyib,
Dediyin böhtanlar
Axırına çıxıb.
İslam yaşayıb,
Yaşayacaq,
Hey nur saçacaq,
Sizin kimi kafirlər,
Cəhənnəmə atılacaq.
Heç kəs cəzasız qalmaz,
Günahı rahat buraxmaz,
Tövbə edənə
Günah yazılmaz.
Rəbbim mərhəmətlidir,
Lütvü ilə sədaqətlidir,
Müqəddəs kitablara
Etsən hörmət
O da verəcək qiymət.

## MÜKƏMMƏL

Mükəmməl yaradıb bizi,
Sevgi ilə bəzəyib könlümüzü,
Bəsirət gözü ilə baxsan,
Düşünüb ibrət alsan,
Tövbə ilə haqqa dönərsən,
Hikmət könlün bəzəyidir,
Gərək ibrət götürəsən,
Unudub dünyanı,
Haqqa doğru gedəsən,
Cəhənnəmdən qurtulub,
Peşiman gəzməyəsən.



## SƏADƏTİ ŞEİRLƏRİMDƏ TAPDIM

Görmədim dünyada könlüm sevəni,
Şeirə hikmətə verdim könlümü,
Yaşadım şeirimin misircisinda,
Sevgi qatdım hər misrasına,
Əllərim heç yerə yetməsədə,
Dəftərim köməyim oldu.
Könlümdən keçən duyğularım,
Yaşamağa təsəlli oldu,
Onunla tapdım səadətimi,
İllərlə onu gözləmişdim,
Könlümü köz-köz etmişdim,
Keşməkeşli yollar keçdim,
Yollarda azmadım,
Saxlayıb uşaqlığımı,
Məsum günlərə qayıtdım.

## ON BİR YAŞIN MÜBARƏK

*Jalə* nəvəmin ad günü mübarək olsun

Gəlib on bir yaşına,
Tər qönçəyə bənzəyir,
Günahı anlayıb,
Möminliyə yüksəlir.

İnşallah gün gələcək,
Uşaqlıq bitəcək,
Jalə nəvəm böyüyüb,
Səhvi tərgidəcək.

İmanıyla tanınacaq,
Çox kəsə örnək olacaq,
Arzulara yetmək üçün,
Könlü duada olacaq.

Nənəsinə hayan olacaq,
Kitablarımı oxuyacaq,
Ondan hikmət öyrənib,
Sevgimi yaşadacaq.

Jalə tək könüllərə yağacaq,
İslamdan güc alacaq,
Nənəsinin kitablarını,
Çox ellərə yayacaq.

Savabı toplayacaq,
Əliboş qalmayacaq,
Qaçırmayıb namazı,
Xəcalət olmayacaq.

Yollarda büdrəməyəsən,
Könül səsini dinləyəsən,
Səadətə yetmək üçün,
Namaza gecikməyəsən.

Unutma əhdi-peymanı,
Hey edəsən duanı,
Tərifə laiq olub,
Görəsən cənnətməkanı.

Halına şükür edəsən,
İmtahanı əla verəsən,
Qorxmayıb çətinlikdən,
Halal ruzidən yeyəsən.

Gəl gedək haqqa doğru,
Dinlə könül səsini,
O deyəcək düzünü,
Gəl gedək haqqa doğru.

Heçə qərinələr keçəcək,
İnsan çox xəyala düşəcək,
Dünya gözəl görünsədə,
Könül düzünü deyəcək.

Biz haqdan gəlmişik,
Haqqa gedəcəyik,
İmtahanı vermək üçün,
Sınaqdan keçəcəyik.

Səksəkədə qalıb gecələri,
Namazı qaçıraram deyən,
İnşallah çıxar imtahandan,
Halına şükür edən.

Çalış canına can qatasan,
Zirvələri aşasan,
Səadətə yetmək üçün,
Orucla nəfsindən qurtulusan.

Bir yanımızda şeytanlar,
Bir yanımızda mələklər,
Bizi gözləyir ancaq,
Gözəl diləklər.

Ver əlini əlimə,
Dalğalardan qorxmayaq,
Rəbbimizi sevindirib,
Sahillərə çıxaq.

Olma nəfsindən arxayın,
Oruc qutaran kimi,
İnşallah davam edərsən,
Hər zaman ki, kimi.

Nəfs qoymaz insan düşünsün,
Nurlu  aləmi görsün,
Birləşib Allahla,
Ona sevgi bəsləsin.



## LƏNƏTLİK ŞEYTANA

Nəyin var ki, öyünəsən,
Zalimlara sevinənsən.
Allahı çox sevənin,
Sevgisindən göynəyəsən.

Yarı yolda qoyansan,
Göz yaşını axıdansan,
Çıxarıb haqqın yolundan,
Çox bəlaya salansan.

Cəhənnəmi bilə-bilə,
İmandan çıxansan,
Ordunu böyütmək üçün,
Fitnə quransan.

Oruc tutan görəndə,
Ondan qorxansan,
Nəfsi ilə bacarmadığını,
Sonraya saxlayasan.

Ağıllı orucdan əl çəkməz,
Şeytanı sevindirməz,
Nəfsin açarını verib ələ,
Dalınca düşməz.

Nəzarəti əldən verməyəsən,
Nəfsini küsdürəsən,
Savab toplamaq üçün,
Orucu təkrar edəsən.

Qorxmayasan orucdan,
Düşməzsən gücdən,
Oruc tutmasan əgər,
Düşərsən gücdən.

Oruc bədəni ruhu pak edər,
Pis vərdişi tərk edər,
Sənə gələn bəlaları,
İnan dəf edər.

Şeytan atlını salar atdan,
Səni eyləyər savabdan,
Tövbə etsəndə,
Sözü çıxarar yaddan.

Düşməz həvəsdən,
Bizisalar həvəsdən,
Get gəl edib,
Namazı unutdurar qəsdən.

Bizi gözdən salar,
İmansızla vuruşdurar,
Halımıza gülüb,
Dərdə, qəmə batırar.

Hey yolda durar,
Yolda torlar qurar,
Dua oxunan zaman
Bizdən kınarda qalar.

## DEMƏYİN ÇOX YAŞADI

*Bir xanıma*

Deməyin çox yaşadı,
Xoşbəxt  arzuya çatdı.
Savab kisəsini hazırlayıb,
Hazırlamayıb,
Boş mənzilə çatdı.
Yaxşı pis birtəhər yaşadı,
Sevgidən yoxsul olub,
Dünyadan əliboş getdi,
Ayları aya qatdı.
Necə mənzilə çatdı,
Düşünməyib gələcəyini,
Sandı bəxtiyarlıqa çatdı,
Razı idi özü-özündən
Hər işdən xəbərdar.
Qaçırarmı gözündən,
Eşitsəydi haqqın hikmətin,
Gizlində edərdi qiybətin.
Özündə olmayan sevginin,
Çəkərdi möhnətin,
Deyərdi mən öləndən sonra.
Hara atırlarsa atsınlar,
Dəhşətini bilməyib.
İstəsələr günahla
Damğalasınlar,
Çox böyük danışardı,
Günaha batardı,
Sevgi nə zənginlikdən,
Nə yoxsulluqdan doğar.
Vicdan mühakiməsindən doğar,

Özündən razı qalmayıb,
Zirvəyə can atar.
Könlü sevgi ilə dolanın,
Şeytanı peşiman qoyar,
Vəsvəsəsindən,
Tək Allahasığınar.

***Dedi:*** Sən Rəbbinlə ol mehriban,
Hər işində et ehtiram,
Düşsən əgər çətinə,
Şükürlə yet mərhəmətinə.

Könlünün səsini dinlə həran,
Boşuna keçirmə bir an,
Deyəcək haqqın yolunu,
Gedəcən onun yolunu.

Verəsən, Rəbbinə ilham,
Özündə alasan ilham,
Tərk edib nöqsanları,
Can qəlbdə olasan hər an.

Ruhun can atacaq ruhuna,
Dünya arada olacaq hər an,
Göylərdə həll olunur talehiniz,
Əlinizdə deyil ixtiyarınız.

## KEŞKƏ KEŞKƏLƏR OLMAYAYDI

Keşkə insan ədalətli olaydı,
Bir zalim olmayaydı,
Allahdan ilham alıb,
Yerə sevgi paylayaydı.

Keşkə qutarıcı gələydi,
Yaralı könüllər sevinəydi.
İslam əxlaqı yaşayıb,
Ellər bayram edəydi.

Keşkə namaz, oruc çoxalaydı,
Dünya əsarətdən qutaraydı,
Sevgi kitabları çap etdirib,
Dünyada iz qoyaydı.

Keşkə gözüm yaşı quruyaydı,
Hikmətləri ellər oxuyaydı,
İbrət götürüb sözlərdən,
Oda ibrət qoyaydı.

Keşkə Keşkələr olmamaydı,
Zülmətdə qalan qutaraydı,
İslama gəlib insanlar,
İbadətə qalxaydı.

Könülləri gözəl bilənsən,
İstədiyini haqqa döndərənsən,
Duamı qəbul edib,
Arzulara yetirənsən.

## MƏNDƏ ELƏ KÖNÜL VAR

Məndə elə könül var,
Səsi aləmə duyulacaq.
Ruhu gözəl olan,
Hikmətdən ibrət alacaq.

Məndə elə könül var,
Gecə-gündüz susmayır,
İmanımdan güc alıb,
Səbrlə dayanır.

Məndə elə könül var,
Məni xəbərdar edir,
Gələn təhlükəni,
Səsi ilə söyləyir.

Məndə elə könül var,
İncə duyğuyla doludur,
Sevgiyi Allah olub,
Yolu haqqın yoludur.

Məndə elə könül var,
Bəsirəti açılıb,
Ağlın ötəsində olanlar,
Röyada anladılıb.

Məndə elə könül var,
Sevməkdən doymayır,
Görməsədə vəslini,
Varlığına inanır.

Məndəelə könül var,
Dinləməkdən doymayıram,
Elə xəzinə gizlənmiş ki,
Yazmaqla qurtarmayıram.

Məndəelə könül var,
Əzablara dözür,
Bu əzab içində,
Tək Rəbbinə güvənir.

Məndəelə könül var,
Dərdlə yüklənir,
Vərəqəyə yazılıb,
Rahatlıq tapır.

Məndəelə könül var,
Eşqi əməli təmiz,
Gözəl günlər üçün,
Bu günə şükür etmiş.

Məndəelə könül var,
Onunla xoşbəxtəm,
Verənəşükürlər olsun,
Hikməti yadigar qalsın.

Məndəelə könül var,
Könüllərə bənzəməz,
Gələcəyə inanıb,
Möcüzəni gözləyər.

Məndəelə könül var,
Arzularla doludur,
Güvəndiyi Allah olub,
Tək Rəbbinə sığınıb.

Məndə elə könül var,
Saf arzu niyyətdədi,
Bil ki, hər zaman,
Haqqan nəzarətdədir.

Bəzən səsini duymasam,
Əzab çəkirəm.
Peşiman olmamaq üçün,
Səsini dinləyirəm.

## ŞEYTANA İNANMAYIN

***Dedi:*** Qəsdən gözə görünməyir,
Varlığına inanmayın.
Dünyaya aldanıb,
Günahla qalın.

Görməsənizdə görür sizi,
Təhlükəyə götürür,
Şəriətdən yan keçənə,
Dərdləri yükləyir.

İnsan özü-özünə deyər,
Şeytan boş xəyaldır.
İnsan özü-özünü aldadır,
Daha bilmir inanmadığı,
Onu hey aldadır.

## TAPINANLAR VAR (Bütpərəslik)

Allahın böyüklüyünü,
Kor olub görməyən var.
Ondan imdad istəməyib,
Bütdən imdad istəyən var.

Ata-babasının yolu ilə gedib,(Surə 5, ayə 104)
Dərin düşünməyib kor olanlar var.
Hər yerdə yaranışı görməyib,
Bütə süd içirənlər var.

Hər zəmanədə dərin düşünüb,
Özünə ibrət götürən var.
Hz: İbrahimtək bütün sındırıb,
Sevgisi ilə ucalanlar var.

Dedi: Kim dərindən düşünməyib,
Hikməti boş sansa,
Allahın bir olduğunu dansa,
Şəriətə əməl etməyib,
İslamdan kənar olsa,
Şeytanla dostlaşıb,
Allaha şərik qoşsa,
Dünyanı əbədi sanıb,
Cənnəti, cəhənnəmi boş sansa,
Bu imtahan dünyasında,
Əli boş qalsa,
Etməyib tövbə,
Haqq yolunu dansa,
Şərabı dərdinə dərman sayıb,
Haramı halal sanıb,
Günaha batsa,
Yeri əbədi cəhənnəm olacaq.

## NƏFSİNİ BOŞLU BOŞUNA BURAXMA, ONU TƏRBİYƏ ET

Nəfsini boş buraxsan,
Ardınca qaçaqcasan.
Şeytanla birləşib,
Əzabda qalacaqsan,
Əmr edəcək hər yerdə,
Hörmətdən düşəcəksən,
Şeytanla birləşib,
Yolu ilə gedəcəksən.
Nəfsi orucla tərbiyə etməlisən,
Ondan güclü olduğunu
Ona bildirməlisən.



## SEVGİYƏ GƏLƏN İLHAM HƏR ŞAİRƏ GƏLƏ BİLMƏZ

***Dedi:*** Sevgiyə gələn ilham,
Hər şairə gələ bilməz.
Dözüb əzaba,
İlhamı saxlaya bilməz.

Layiqli qul olduğunu,
Əməlinlə göstərəsən,
Hər əzaba dözüb,
Səbrinlə yüksələsən.

Sevəsən könüldən,
Varlığından keçəsən,
Eşq şərabından içib,
Yuxulu gəzəsən.

Yoxluq içində,
Çırpınasan durasan,
Səbr edib halına,
Şəriətdən çıxmayasan.

Halalı haramı,
Özün seçəsən,
Bismillahla kəsilməyəni,
Gərək yeməyəsən.

Qorxmayasan aclıqdan,
Qorxasan toxluqdan.
Usanmayıb sevməkdən,
Keçəsən varlıqdan.

Qorxasan vicdanın səsindən,
Allahın mühakiməsindən,
Qaçırmayıb namazı,
Şeytanı sevindirməyəsən.

Yazdığına baxıb,
Çap edə bilməyəsən,
Olana səbr edib,
Zamanı gözləyəsən.

Biləsən dəyərini hikmətin,
Hər yazdığın sətirin,
Dəyişmə dünyaya,
Heç bir vərəqin.

Keçəsən imtahandan,
Əla alasan.
Sözü üzə deyib,
Arxada danışmayasan.

Kimin sevgisiz olduğunu,
Imanından anlayasan,
Dostluq qurmayıb
Kənarda qalasan.

Könlünün səsini,
Gərək susdurmayasan,
Qələmi hazır saxlayıb,
İlhamı qaçırmayasan.

İnşallah Allah açacaq yolu,
Səbrlə dayanasan.
Naümid qalmayıb,
Çaşbaş olmayasan.

Sevəsən hikməti,
Həvəsdən düşməyəsən,
Nəsillərə yadigar qoyub,
Rəhmətlə seviləsən.

Əyər əskiyini düzəldib,
Savab kisəsini doldurasan,
Çox kəsə örnək olub,
Səbrlə dayanasan.

Ləpiri ilə getməyəsən şeytanın,
Tanıyasan məlun düşmanı,
Qəsdi səni döndərməkdi,
İlhamını söndürməkdi.

Necə xoşbəxt olduğunu anlayasan,
Hər kəsə, verilməyən ilhamı saxlayasan,
Edəsən cəmi dərdinə dəva,
Deyəsən şükür sənə xudaya.

## İNSANI HƏBSXANA DEYİL, MƏNƏVİYYAT TƏRBİYƏ EDƏR

Mənəviyyatdan yoxsul olan,
Doğru yolu tapmayacaq,
Keçsədə ömrü zindanda,
Ondan ibrət almayacaq.

İllərlə ömrünü puç edəcək,
Könül evinə getməyəcək,
Dinləməyib səsini,
Nəfsinə yenik düşəcək.

Qorxacaq həqiqətin özündən,
Düşəcək elin gözündən,
Nəfsi güclü olub,
Xəbəri olmayacaq özündən.

Orucla nəfsini enməsə,
Sanmasın xoşbəxt olacaq,
Soldurduğu illəri,
Geri qaytaracaq.

## SƏN ÇARƏSİZİN ÇARƏSİSƏN

Sən çarəsizin çarəsi,
Ümidsizin ümidi,
İki cahanda var olan,
Könüllərin sultanısan.

Sən çarəsizin çarəsi,
Gövhəri çox olan,
Dərdlərin dərmanı,
Lütvünü əsirgəməyənsən.

Sən çarəsizin çarəsi,
Məni darda qoymayan,
İllərlə çıxan çiynimə,
Dərman olansan.

Sən çarəsizin çarəsi,
Hünəri sonsuz olansan,
Hz: Yusifi quyudan,
Lütfünlə çıxaransan.

Sən çarəsizin çarəsi,
Şükürlərə layiqsən,
Düşünək deyə,
Köməyi əsirgəməyənsən.

Sən çarəsizin çarəsi,
Doğru yolu göstərənsən,
Röyamda gizli səslə,
Səbr diləyənsən.

Sən çarəsizin çarəsi,
Hər kəsdən dərdlisən,
Zülümlərə şahid olub,
Səbrlə dözənsən.

Sən çarəsizin çarəsi,
Düşüncəmi gücləndirən,
Könlümü genişlədib,
İlhamınladanışansan.

Sən çarəsizin çarəsi,
Qulunu sınayansan,
Səmimi olduğunu,
Gözəl tanıyansan.

Sən çarəsizin çarəsi,
Ölümdən qurtaransan,
Düşüncəmi gücləndirib,
İrfanla danışansan.

Bizə şükür etmək düşüb,
Önündə baş əymək düşüb,
Qalmayıb namazdan,
Axirətə tədarük düşüb.

Bu qədər hikmətdən,
Gərək ibrət götürək,
Allahın lütfünü qazanıb,
İslama  gedək.

***Dedi:*** Dünya durduqca zalımlar olacaq,
Şeytan qovalayıb insan çaşacaq.
Allaha sığınmayan,
Doğru yoldan azacaq.

## ATEİSTLƏRƏ SÖZÜM

Allahı inkar edib,
Hər şeyi təbiət
Yaradıb dedilər.
Bəsirətlə görməyib.
Özlərini haqlı,
Bildilər
Dedilər nədən
Yaradıbsa hər şeyi,
Görünməyir yaradan
***Dedi:*** Görənlə kor
Eyni olmaz,
Yaradan heç kəsə
Görünməz,
Çoxunda olsa da
Ağıl,
İmansız bəsirətlə
Görməz.
Hikmətdən ibrət
Götürən,
Saf-çükür edər,
Özünə ibrət götürüb,
İslamla gedər,
Çoxu özünü
Tərbiyə etməz,
Nəfsi enməyi
Düşünməz,
Nəfs girmiş
İnsanlaRəbbi
Arasına.
Qoymaz insan,
Yetsin yarısına,
O insan xoşbəxtdir,

Yetmiş yarısına,
Bəsirətlə baxıb,
Rəbbini görər,
Pərdə arxasında(Surə 42, ayə 51)
Söhbətini edər.
Röyada səslə,(Surə 42, ayə 51)
Hikmətləri öyrənər.
Talehinə düşən qəmi,
Rəbbiylə bölər.
Səhvini anlayıb,
Günaha tövbə edər,
Kafirdən uzaq olub,
İmtahanı əla verər,
Cənnətə laiq olub,
Aşiqliyi seçər,
Halına şükür edib,
Betəri var deyər.
Cahana bir də gəlməyəcəyini,
Savabı vaxtında edər.



## NƏFS İNSANLA ALLAH ARASINA GİRƏR

Nəfs qoymaz insan düşünsün,
Nurlu aləmi görsün,
Birləşib Allaha,
Ona sevgi bəsləsin.

Nəfs qoymaz varlığınla sevəsən,
Dünyanı az düşünəsən,
Taleh yüklü qatarın,
Yükünü az edəsən.

Nəfs qoymaz axirəti düşünəsən,
Səhvi vaxtında görəsən,
Tövbə edib günaha,
İbadəti edəsən.

Nəfs qoymaz nura nur qatasan,
Möminlərə çatasan,
İlham alıb,
İrfanla danışasan.

Nəfs qoymaz ruhun azad olsun,
Səni aləmə tanıtsın,
Saf-arzu diləklərin,
Könüllərə sevgi paylasın.

Nəfs qoymaz şad olasan,
Rahat mənzilə çatasan,
Toplayıb savabları,
Kisəni doldurasan.

## DƏYƏRİMİ VAXTINDA BİLƏSƏN

Bir gün ayrılanda,
Dəyərimi bilərsən.
Gərək vaxtında,
Dəyərimi biləsən.

Yollara baxıb,
İlləri varaqlayarsan.
Göz yaşı töküb,
Dalımca ağlayarsan.

Soraqlayıb hər yerdə,
Heç yerdə tapmazsan.
Ancaq kitablarımla,
Təsəlli taparsan.

Seyr edib göyləri,
Mənimlə danışarsan,
Arzuların söyləyib,
Xəyala dalarsan.

Gərək hər zaman,
Allaha güvənəsən
Hikməti unutmayıb,
Şəriəti öyrənəsən.

Səadətin qədrini bilək,
Birdə geri gəlməyəcək,
Dəyər verib biri-birimizə,
Heç üzməyək.

## BÜTPƏRƏSLİK

Yerə, göyə sığmayan Allahı,
Necə bənzədirsən heykələ.
Ağlı olan inanarmı,
Özü yonduğu heykələ.

Allah o qədər böyük,
Onu bənzədə bilməzsən,
Özündən surət düzəldib,
Səcdə edə bilməzsən.

Özüntək cılızdır heykəl,
Səndə canlı heykəlsən heykəl.
Allahın yaratdığı insana,
Necə bənzərdirsən onu ay heykəl.

Özünü ağıllı sanıb yonursan heykəl,
Heç Allaha bənzərmi heykəl.
Bir gün yaxandan tutub,
Günahkar biləcək heykəl.

Deyirsən yerdə surətini yonuram,
Sankı görmüsən sürətini yonursan
Özün-özünü aldadıb,
Özünə cəhənnəm hazırlayırsan.

***Dedi:*** Təsəvvür edə bilməyib,
Ancaq yalnışı görüb,
Bəsirəti bağlı olub,
Təsəllini heykəldə görüb.

Ata babasının yolu ilə gedib,
Onlarda yalnışı görüb.
Yaradılışı görməyənlər
Bəsirəti bağlı gəzib. (Surə 5, ayə 104)

Aləmə car çəkiləcək,
Möcüzələr görüləcək,
Heykəl yonan kafirlər,
Özlərinə lənət deyəcək.

Necə oxumuş cahil var,
Elmdə irəli gedən var,
Sevgidən yoxsul olub,
Heykəli Allah kimi sevən var.(Surə 2, ayə 169)

Susub danışmır heykəl,
Utanır bu halından,
Allah can versə ona,
Qaçar onu yonandan.



## SEVGİ YOLU

*Bir nəfərə və çoxusuna*

Məndə bir əkinçi tək,
Sevgi toxumu əkirəm,
İnşallah çoxu oxuyub,
Haqq yoluna gələcək.

Bəzisi anlamaz duymaz,
Sözdə məna axtarmaz,
Qulaq ardına verib,
Namazı qılmaz.

Mən yazdım yazdığımı,
Cücərtmək sənə qalır,
Sevgi ilə bəsləyib,
Böyütmək sənə qalır.

İnşallah xatırlayacaq,
Gec olmamış qayıdacaq,
Bir gün imana gəlib,
Borcunu qaytaracaq.

Necə gözəldir ədaləti olan,
Haqq sözünü danmayan,
Hikmətdən götürüb ibrət,
İbadətdən doymayan.

Haqq yolunu unudub,
Yalnış yollarda yorulacaq,
Səadət haradadır deyib,
Nəfsini ardınca qaçacaq.

Bu yol sevgi yoludur,
Hər kəs haqqın quludur,
Xoşbəxt o kəsdir ki,
Yolu haqqın yoludur.

Zəhmətin puç olmayacaq,
Allah sənə yar olacaq,
Gözləmədiyin yerdən,
Sənə qapı açacaq.

Gərək inamsız olmayasan,
Gec olmamış qayıdasan,
Yalandan döndüm deyib,
Özünü aldatmayasan.

Yalanla özünüzü aldadacaqsan,
İşığa həsrət qalacaqsan,
Ürəkdə qalan boşluğu,
Nə zaman dolduracaqsan.

Önünə keşmə-keşli yollar çıxacaq,
Yollar səni çox yoracaq,
Gərək mətin dayanıb,
Yalnış yoldan qayıdasan.

Sevgi ilə yolu aşmaq olar,
Səadətə çatmaq olar,
Unudub bu dünyanı,
Allaha aşiq olmaq olar.

Nə varsa şükür edəsən,
Halalı haramı seçəsən,
Şükürlə çoxaldıb ruzini,
Razı edəsən sevdiyini.

Yağmura bənzər verilən bərəkət,
Bərəkətə gələr bərəkət,
Halalla haramı ayırsan,
Könlündə iman nuru cücərər.

Məndə şükürlə artırdım,
Çoxaltdım söz xəzinəmi,
İnci gövhərlə bəzədim onu,
İstəyən oxusun onu.

Ariflər toplayacaq xəzinəmi,
Nadanın yadına düşməz,
Necə əsirlər keçsədə,
Xəzinəm dəyərini itirməz.

Çoxu yolunu xəzinəmin yolundan salacaq,
İmanlı hikmətdən faydalanacaq,
İmansız kortək keçib,
Özünü uçuruma atacaq.

Gözü götürməyəcək bir qadının yazdığını,
Haqdan ilham alıb qoyduğunu,
Tarixdə iz qoyub,
Aşıqliyə çatmağını.

İstər qadın olsun, istər kişi,
Allah ayırmaz biri-birindən.
İlhamını əsirgəməz,
Öz sevdiyindən.

Gərək sevəsən təmannasız,
Böləsən sevinc kədəri,
Allahda sevgisini əsirgəməz,
İlhama gətirər səni.

Bu yol sevgi yoludur,
Sevgisiz onu keçə bilməz,
Ürəkdə olan ağrılar,
Heç dincəlməz.

Gərək könlünü oda atasan,
Yanmaqdan qorxmayasan,
Dözüb hər cəfaya,
Dünyanı unudasan.

Dünyanı unutmaq mərdlik istər,
Ondan möminlər keçər,
Özünü mömin göstərsədə çoxu,
Mömini haqq özü seçər.

Könlümün nə qədər güşəsi var,
Sanmam boş yeri var,
Sevgilə dolub daşıb,
Başqa sevgiyə yer qalmayıb.

Olsa cahana mənə düşmən,
Sən sev, mənə yetər,
Könlümdə olan sevgi,
İnşallah, sonsuza qədər gedər.

Kim haqqı sevsə haqqı sevəcək,
Qorxmayıb ədalət istəyəcək,
Arxayın olub Rəbbinə,
Onu dost biləcək.

Kim haqqı görməsə gözü,
Özündən razı qalar özü.
Dildə söyləsədə haqqı sevirəm,
Yaxşı bilir sevməyir özü.

Orucla bu yola çatmaq olar,
Nəfsə qalib gəlmək olar.
Hey təkrar edib,
Aşiqliyə ucalmaq olar.

Qorxub yalandan sevirəm deyir,
yalanına inanmaq istəyir,
İşində yoxdursa halallıq,
Əsarətdə saxlar onu nadanlıq.

Əsl mömin o, kəsdir ki,
Əməlində göstərmiş onu,
Özünü maskalasada çoxu,
Sevgi imanından tanıyar onu.

Hər namaz qılanın yox imanı,
İmana gəlmək üçün unutsun  dünyanı,
Yüz libasa bürünsədə,
Allah gözəl tanıyır onu.



## HARAYIM ÇATMIR SƏNƏ

Bütün dünya duysada,
Harayım çatmır sənə,
Göz yaşım sel olub,
Küləklər aparmır sənə.

Atmısan bir kənara,
Dünya gözündə qara,
Ahım qalxıb dünyaya,
Harayım çatmır sənə.

Rəbbim duyur səsimi,
Əsirgəmir nəğməsini,
İllərlə tənha olsamda,
Gözüm görmür heç kəsi.

Dəyirmanın sussur qalib,
Könlün sevgisiz qalıb,
Çoxu gülüb sevinsədə,
Sən həvəssiz qalıb.

Gərək durub o başdan,
Orucu tutasan
Haqq borcunu verib,
Şəriətdən çıxmayasan.

Hey hüzurunda dayanasan,
Namazı qaçırmayasan,
Tövbə edib günaha,
Nəfsindən arxayın olmayasan.

Yarı yolda qalmayasan,
Çiçəktək ətir saçasan,
Viran olan könlünə,
Özün dərman olasan.

Tut əlimi yürüyək,
Talehdən gəmi silək,
Əmr gələn zaman,
Dünyaya əlvida deyək.

Nə varsa dünyada qalacaq,
Sevgim səni tapacaq.
Əbədi qalıb ürəyində,
Heç susmayacaq.

İmtahanı əla verəsən,
Eldən-elə gedəsən,
Can evimi yıxmayıb,
Aşiqliyi məndən öyrənəsən.

## NAMƏRDDƏN VƏFA GÖZLƏMƏ

Canını fəda etsən,
Qiymət bilməyəcək,
Varını versən,
Gözü doymayacaq.

Dörd yanını saracaq,
Ruhunu sıxacaq.
Haqqa çağırsan da,
Mömin olmayacaq.

Soranda çəkmə əziyyət,
Sanma bar verəcək,
Nəfsini təmizləməyən,
Şeytana əsir düşəcək.

Yorulub yolda qalacaq,
Sanma adam olacaq,
İnsanlıq göstərsən,
Hey quduracaq.

Yana-yana tək qalacaq,
Ürəyi dərddən yanacaq,
Görməyib sevgi,
Hələ çox axtaracaq.

Ürəyinə dəyəcək fələyin oxu,
Özünə əzabdan çələng toxu,
Çəkdirdiyin əzabın,
Gələcək sənə çoxu.

## 8 MART QADINLAR GÜNÜ

Səndən çox razıyam,
Sevimli sultanım.
Yalnışımı deyib,
Düz yola çağıranım.

Səndən çox razıyam,
Məni tək qoymayanım,
Sınayıb səbrimi,
Dərdə dərman olanım.

***Dedi:*** Səndən çox razıyam,
Cənnət qoxuyanım,
Dözüb hər bir əzaba,
Yoxluqla dayananım.

Səndən çox razıyam,
Sevgisinə inananım.
İtirməyib ümidini,
Səbrlə dayananım.

Səndən çox razıyam,
Talehi ilə barışanım.
Bilməyib gələcəyini,
Gələcəyə inananım.

***Dedim:*** Sən məndən razı olsanda,
Mən razı deyiləm özümdən,
Var hələ çox nöqsanım,
Sən elə böyüksən ki,
Sevgim azdır, cananım.

## YUXARIDAN AŞAĞIYA BAXAN İMANSIZA

***Dedi:*** Şəfahət verər Allah,
Əhdinə düz olanın.
Baxmaz göz qaşına,
Əməli düz olanın.

Saf-çürük etsin,
Yalnışını görsün.
İmanda yüksəlib,
Bəsirətlə görsün.

Zaman deyəcək sözünü,
Sən üzmə özünü,
Qeybət edən paxılın,
Verəcəyəm dərsini.

Deyiləni yazdırırıq,
İmansızı əzaba salırıq,
Haqqı görə bilməyəni,
Şeytanla azdırırıq.

Hər gün gəlib səcdəyə,
Savabım azdır deyəni,
Nura qərq edirik,
Lazım olanı bir seçirik.

Gətirib onu ilhama,
İlhamla söz deyirik,
Çox sınaqdan keçirib,
Qiymətini veririk.

Əsl aşiq usanmaz,
İbadətdən qalmaz,
Verib hər gün borcunu,
Özünə günah qazanmaz.

Yar elə yara aşiqdir,
Savabı ona işıqdır.
Görə bilməsədə Rəbbini,
Yenə ona aşiqdir.

***Dedim:***Möcüzədən könlüm para-paradır,
Bilirəm yolumu hayanadır,
Yanağımdan axan yaşlar,
Gözümdə bir ayparadır.

## NƏFSİNİ ENMƏDİKCƏ SƏN

*Bir nəfərə*

Nəfsini enmədikcə,
Gerçək eşqi tapmayacaq,
İllərlə qəflətdə qalıb,
Yuxudan oyanmayacaqsan.

Əzmlə həyat yolunda yürüməli,
Əsl səadətə yetməli,
Yollarda yubanmayıb,
Nəfsini orucla enməli.

Nəfsin qoymaz həqiqəti görəsən,
Əyrini düzdən seçəsən,
Hikmətdən götürüb ibrət,
Doğru yolda yürüyəsən.

Nəfs varlığını alar əlindən,
Xəbərin yox şeytanın telindən.
Hər iki dünyanı verib əldən,
Sonunda bir şey gəlməz əldən.

Nəfs elə bir düşməndir,
Səni aləmə rüsvay edər,
Zəncirləyib çox yerdən,
Əzablara sürüklər.

Orta həddi tutmalısan,
Şəriətdən çıxmamalısan,
Hikmətdən ibrət alıb,
Nəfslə cihada çıxmalısan.

Daşsada çayların suyu,
Sonunda durulacaq,
Kim hikmətdən ibrət alsa,
Yolu xeyirə çıxacaq.

Çox şey insanın öz əlindədir,
Doğru yolu görməyindədir,
Allahın əmanət etdiyinin,
Qədir, qiymət bilməyindədir.

## BU DÜNYADAN O DÜNYAYA

Gedir insan qatarı,
Bu dünyadan o dünyaya,
Bir gün məndə gedəcəm,
Bu dünyadan o dünyaya.

Kimsə bilməz nə qədər qaldı,
Gedən getdi, qalan qaldı.
Kimi mindi ölüm qatarına,
Kimi bu dünyada qaldı.

Əlli dörd tamam oldu,
Şap olmamış dəftərlər qaldı,
Əlimdə bir yetimim,
Tək ümid mənə qaldı.

Töküldü xəzan yarpaqları,
İllər-illəri qovdu.
Könül fəryad eylədi,
Bu dünyayla barışmadı.

Saf-arzu niyətdəyəm,
Sonsuz kədərdəyəm,
Gülsəmdə bəzən,
Canı məhbəsdəyəm.

***Dedi:***Çoxuna əfsanə gəlsədə ölüm,
Ancaq həqiqətdir  ölüm,
Bu dünyadan köçməmiş,
Günahdan təmizlən gülüm.

Təmizlən ki, cəhənnəmdə yanmayasan,
Cənnətlikldən utanmayasan,
Dünyanın fani olduğunu,
Hər öləndən anlayasan.

Yazığım gəlir insana,
Qəflətdən qalıb oyanmayana,
Ancaq ölüm gəldiyi anda,
Peşiman oyanana.

Könül bağlama dünya malına,
Gedəndəqalarsan yana-yana,
Kəfəndən başqa şey aparmazsan,
Çoxuna qismət olmayana.

Günahla qalacaq baş-başa
Gözləri dolub boşalacaq,
Savab kisəsini boş götürənin,
Günahı özündə olacaq.

## ŞÜKÜR BU QƏDƏR TƏAMLAR YARATMISAN

Şükür gözəl təamlar yaratmısan,
Bizlərə pay ayırmısan,
Bəlkə ibrət alaq deyə,
Vicdanımıza buraxmısan.

Şükür gözəl təamlar yaratmısan,
Heç bir canlını unutmamısan,
Onlarla varlığını göstərib,
Arifləri heyrətdə qoymusan.

Şükür gözəl təamlar yaratmısan,(Surə 2, ayə 25)
Cənnətdə dəyişik yaratmısan,
Oxşasada biri-birinə,
Dadlarını ayrı yaratmısan.

Şükür gözəl təamlar yaratmısan,
Könüllərdə Qurana yer ayırmısan,
Hələ bilmədiyimiz təamları,
Bizdən gizli saxlamısan.

Şükür gözəl təamlar yaratmısan,
Dəyişik təamla heyrətdə saxlamısan,
Faydasını zərərini,
Alimlərlə anlatmısan.

Şükür gözəl təamlar yaratmısan,
Nankorun könlünü bağlamısan,
Həsrət quyub təama,
Cəhənnəmdə yer ayırmısan.

## HƏQİQƏT QAPISI

Rəbbim mənə həqiqət,
Qapısını açdı.
İnşallah sənə də açar,
Könlün gültək açar,
Şeytan görüb bu sevgini,
Səndən qaçar,
Önündə nurlu aləm açılar,
O nurdan könüllərə
Nurlar saçılar.
Könül səsini dinləyənə,
Haqqdan qapı açılar,
Kimə tez kimə,
Gec açılar.
Könül səsini dinləməyənə,
Heç açılmaz.
Qiyamətdə dirilməyinə,
Kimi inanar
Kimi inanamaz,
İnananın
Könül gözü açılar.

## SƏNƏ ŞÜKÜRLƏR OLSUN

Şükürlər olsun,
Möminlər biri-biri ilə
Yarışır sevgi
Günahla savaşır
Desələr Rəbbinin
Nəyinə aşiqsən,
Deyərəm yaratmağına,
Onu sevən qulların.
Dadına çatmağına,
Gör necə gözəldir,
Hər yaratdığında vardı.
Onu sevən qular,
Nə bəxtiyardır.
Çiçəkdən incədir könlü,
Çün çiçəyi yaratmış könlü,
Yaratmaqda mahirdir,
Çün əvvəlin əvvəli
Axirlardan axırdır,
Görür hər qulunun.
Yaratdığı könlünü,
Heç nə ovutmaz,
Yaralı könlümü
Nə qədər
Vəsf etsəm azdır.
Haqqı görən gözlər
Niyə belə azdır?
***Dedi:*** Mənəmlik tutmuş gözü,
Yaradanı görməz gözü
Nəfsini ensə,
Açılar bəsirət gözü
Bu elə sevgidir
Aşiq olmayan bilməz,

Sevən könüllər.
Çətinlik bilməz,
Alar gücü qüvvəti
Sevən könlündən
O insan gücsüzdür,
Sevgi getsə könlündən
Görməsədə hüsnümü,
Sevmək çətin deyil.



## HAQSIZ MÜHARİBƏ EDƏNLƏRƏ

Zalımları görüb,
Səbrlə dayanırsan,
Cəzasını verib,
Günahını anladırsan.

***Dedi:*** Hər gün şahidəm,
Səbrlə dayanıram,
Onlara sonsuz,
Cəhənnəm hazırlayıram.

Hər gün cəzasını artıracam,
Haldan-hala salacam,
İmansız zalımları,
Hütamiyə atacam. (Surə 104, ayə 5)

Zülüm edib,
Ölkələri dağıdırlar,
İnsanları qovub,
Ölkəsindən çıxarırlar.

Terroru bəhanə edib,
Dinc insanları girir,
Bizə gələn şəhidlərin,
Ruhu sakit olmayır.

***Dedim:*** Könlün qəmlə dolub,
Səbrlə dayanıbdı,
Ədalət məhkəməsini,
Sonraya saxlayıbdı.

Hər şey sənin əlindədir,
Bəlalar göndərməyindədir,
Silib yer üzündən,
Kökünü kəsməyindədir.

***Dedi:*** Könlü dərddən yananım,
Var belə həyanım,
Zalımların zülmünü,
Mələklərdi paylayanım.

Yox zalımın qərarı,
Bağlanıbdı yolları,
Üzdə şad görünsədə,
Yox olub yuxuları.

Dəli kimi fəryad edirlər,
Nifrətlə girib tökürlər.
İmansızlar,
Həvəssiz işləyirlər.

Qaralıb könülləri günahdan,
Dincliyi yoxdur, edilən ahdan,
Yığsada var dövlət,
Düşəcək taxtdan.

Onlar ölümdən deyil,
Ancaq vardan qorxurlar.
Özgə ələ qoyub
Getməkdən qorxurlar.

## BİZƏ ƏMANƏT VERİLƏN CANIN QƏDRİNİ BİLƏK

Kimi dövlət arzusundadır,
Sanır xoşbəxt olacaq.
Düşünməyib sağlığını,
Sonraya saxlayacaq.

Hər gün sağlıqdan gedər,
İllər çox şeyi deməz,
Gizlində gedən xəstəlik,
Öz işini görər.

Nədən oldu deyib,
Bu günü düşünmürük,
Hər gün itirib sağlığı,
Sonra onu gəzirik.

Başlı-başına buraxırıq,
Arxasınca baxırıq.
Bizə verilən əmanətin,
Qədrini gec anlayırıq.

Başlayırıq müaəlicə,
Gec olsa da.
Keçib gedən illər,
Dönərmi heç geriyə.

Mənə bir şey olmaz deyə,
Ağır yük daşıyırıq,
Qorumayıb sağlığımızı,
Ağrı altında qalırıq.

Rəbbim şəfa versin,
Cəmi xəstəyə,
Öz qədrini bilməyib,
Ağır zəhmət çəkənə.

## KEŞKƏ GÖRƏ BİLƏYDİN

Keşkə görə biləydin,
Könlümdəki imanı,
Qaş gözümə baxmayıb
İbadətdən doymayanı.

Keşkə görə biləydin,
Könlümdəki atəşi,
Heç nə söndürə bilməz,
Könlümdəki atəşi.

Keşkə görə biləydin,
Mənə ilham verəydin,
Sevməyi sən,
Məndən öyrənəydin.

Keşkə görə biləydin,
Aşıqlərin nə çəkdiyini,
Hər əzaba dözüb,
Bezmədiyini.

Keşkə görə biləydin,
Necə inanmağımı,
Bezməyib halımdan,
İlhamla yazmağımı.

Keşkə görə biləydin,
Gözlərimin yaşını,
İlhamla danışıb,
Suala cavab almağımı.

Şahidi tək özüdü,
Onu necə sevməyimin,
Ona olan sevgimin,
Dünyaya dəyişməməyimin.

Nə qədər şükürdeyim,
Nə qədər şükür desəmdə azdır.
Dərdli könlümdən sözləri yazdır,
Sənə olan sevgim yenədə azdır.



## SON PEŞİMANLIQ

*Bir nəfərə*

Xəbərin yox cəhənnəmdən,
Deyirsən xəbər varmı gedəndən,
Dünyanın boş yaranmadığını,
İbrət götür öləndən.

Çox şeydən xəbərimiz olmasada,
Xəbər verib peyğəmbərlərimiz,
Qiyamət qopandan sonra,
Diriləcəyik hər birimiz.

Ağıllı düşünər son aqibətini,
Özünü sığorta edər indidən,
Əgər savabla getməsən,
Bir şey gəlməz əldən.

Orta hədlə barışasan,
Çox yüksəkdə gözü olmayasan,
Ən yüksəklik Rəbbin yeridir,
Həm də qullarını könülləridir.

Hər halına şükür edəsən,
Şeytanı sevindirməyəsən,
Əyilməyib önündə,
Ona fürsət verməyəsən.

Könül qapısını bağlayasan,
Namərd üçün açmayasan,
Üzdə üzünə gülənin,
Xain gözündən tanıyasan.

Allah sevməz heç paxılı,
Üzə gülüb arxada danışanı,
Birinin yüksək elmini görüb,
Paxıllıqdan çatlayanı.

Ona lazım deyil başqa düşmən,
Paxıllıq tək düşməni var,
Heyrətdə qalar gözləri,
Bəlaya salar sözləri.



## RUHUNU ŞEYTANA SATMIŞLARA

***Dedi:*** Görməyib Allahın yaratdığını,
Necə dinsizlər var.
Özünü güclü sanıb,
Necə gücsüzlər var.

Aldanıb dünyanın şirinliyinə,
Həm də şeytanın dilinə.
Dünya varı üçün,
Keçib şeytanın felinə.

Allahı danır bilə-bilə,
Vicdanın səsini dinləmir.
Hər yerdə ordu toplayıb,
Haqsız qanlar tökür.

Ağalıq edir dünyaya,
Əsl sahibini görmür.
Aldadıb özü özünü,
İmtahanı bilmir.

Alınır əlindən varı-dövləti,
Boş əllə dünyaya əlvida deyir,
Ölüm yatağında peşiman olsada,
Əzab mələkləri gəl gedək deyir.

Alır ruhunu min bir əzabla,
Ruhunu şeytana satmışların.
Allahı danıb yer üzündə,
Fitnə-fəsat salmışların.

Özünü dik tutub haqqın önündə,
Bir gün əyiləcək əzabın önündə.
Kim şəriətlə getsə
Əyilməz mələklərin önündə.

Hər  kəs yolunu özü seçər,
Özünə layiqli don biçər,
Ya atəşdən biçib o donu,
Yada imana burunub gedər.

Hər kəs əməlinin bəhrəsini görər,
Ariflər dünyanın dərdini çəkər,
Çoxu unudub son imtahanı,
Ancaq işinin dərdini çəkər.

Gərək hər işinə yetəsən,
Heç birini ötürməyəsən.
Aldanıb dünyanın işlərinə,
İmtahana gecikməyəsən.



## VƏFALIM

Vəfada tayı olmayanım,
Səni sevənlər aşiqliyə çatar,
Qərarı olmayanlar,
Səninlə qərara çatar.

Könül sevgiylə dolar,
Başqa sevgiyə yer qalmaz.
Vəfada tayı olmayanım,
Səni sevən xoşbəxtliyə çatar.

Səndə gördüm vəfanı,
Sənsən könlümün sultanı.
Dərdimə dəva ver,
Məni tənha qoymayanım.

Nə qədər uzaq olsaqda,
Bir o qədər yaxınıq.
Səni çox sevsəkdə,
Sanma qəzəbindən arxayınıq.

***Dedi:*** Ey mənim saf-niyyətlim,
Ürəyi mərhəmətlim,
Həm qorxub, həm sevib,
Heç arxayın olmayıb.

***Dedim:*** Bilirəm yollarda çox duzaq var,
Araya girən yalquzaq var,
Kamilliyə yetmək üçün,
Maneləri aşmaq var.

Səndən aliram qüvvəti,
Sənsiz olmaz qüvvətim,
Cəmi bəladan qoru məni,
Azalmasın  qüvvətim.

***Dedi:*** Zəhməti çox sevirsən,
Vaxtı boşa keçirməyirsən,
Ələ düşməyən fürsətin,
Dəyərini bilirsən.

***Dedim:***Peşimanlıq yandırar məni,
Vicdanın səsi rahat buraxmaz,
Bilirəm nəzarətindəyəm,
Zəhmətimlə hörmətindəyəm.

Keşkə, məndən razı olaydın,
Özümdən razı olmasamda,
Layiqli qul olub,
Savabı çox yığaydım.

***Dedi:*** Günahla savaş-savaşır,
İnsan günahını bilə-bilə,
Gərək günahı tərk edə,
Özünə dərd verməyə.

## İMANSIZIN İMANLIYA İMANSIZ DEMƏSİ

Günahını görməyib,
Öz adını sənə qoyar,
Gizlində  sevinib,
Cəhənnəmin ağzında durar.

Paxıllıqdan göynəyər,
Məqsədi küsdürməkdi,
Şeytana dost olub,
Özünü üstün görməkdi.

Özü-sözü bir olmaz,
Möminlə kafir-dost olmaz,
Ruhu gözəl olanlar,
İbadətdən qalmaz.

***Dedi:***Sarala-sarala qalacaq,
Səssizliyə qarışacaq.
Bu dünyada etdiyinin,
Əvəzini alacaq.



## DAD YARIMÇIQ ƏLİNDƏN

Səni cana gətirəcək,
Öz bildiyini edəcək.
Əgər üz versən,
İxtiyarın əldən gedəcək.

Çox dona girəcək,
Özünü bəyənəcək,
Haqqa çağırsanda,
Dediyini deyəcək.

Gözü görməz yüksələni,
Ondan artar gəmi,
Yuxusu ərşə çəkilib,
Xəşbəxt istəməz kimsəni.

Nəfsi ona hökm edər,
Yeyib içib dincələr,
Zəhməti sevməyib,
Canını bəsləyər.

Qorxur canı əldən gedər,
Zəhmətə girsə əgər,
Yaşayıb başqasının hesabına,
Keçər nəfsin  ixtiyarına.

Sanma düzələcək,
Necə varsa elə gedəcək,
Sevgisiz olanlar,
İmana gəlməyəcək.

## NANKORU ADAM SANIRIQ

Bəzən nankoru,
Adam sanırıq.
Lənət edib şeytana,
Peşiman oluruq.

Könül bizə deyəcək,
Bəzən dinləməyəcək,
Dil öz işini görüb,
Bizi peşiman edəcək.

Ağılla-dil savaşdadır,
Ağıl hey haqlıdır.
Diş gözəl saxlasa,
Dili qəfəsdə.
Dil çıxarmaz bir səsdə,
Eləki qəfəsi açdın,
Dili azadlığa buraxdın,
Çətindir qəfəsə salmaq,
Ən gözlə qəfəsi açmamaq.

***Dedi:*** Görsən simasını anlarsan,
Səndə susub lal olarsan.
İmansız gözündə qınanmayıb,
İmanlı könlünə dərman olarsan.

## KEÇMİŞ ANILARIM

Ötüb keçən zamandadır,
Sanki milyon zamandadır,
Hey getsəm çatmaram,
Ancaq xəyalımdadır.

Uşaqlığımı, gəncliyimi,
Tez-tez yada salıram,
Onların dəyərini,
İndi anlayıram.

Qiymətlidir xatirələrim,
Getmir xatirimdən,
Həm acı, həm şirindir,
Mənim dərdli yerimdir.

Bəzən hücum çəkir,
Qarın, yağışın tökür,
İldırımlar çaxdırıb,
Könül evim viran edir.

Hamısı əzizdir mənə,
Ötüb keçən illərim.
İnşallah gözəl olar,
Gələcək günlərim.

Gələn illərimi,
Həsr etmişəm yazmağa,
Gələcək nəsillərə,
İncilər qoymağa.

## AZADLIQ

***Dedi:*** Hər canlı bunu istəyir,
Onsuz həyat boşdur deyir,
Altından olsada qəfəsi,
Azadlığın qiyməti yoxdur deyir.

Yoxdur həyatın qiyməti,
Biləsən azadlığın qiymətin,
Savabla gedib,
Alasan əla qiyməti.

Aldığın hər nəfəsdə,
Allaha şükür edəsən.
Onu sevindirib,
Şeytana dərd verəsən.

Zamanı dolu-dolu yaşayasan,
Onu salamlayasan,
Gələcək zamanda,
Peşiman olmayasan.

Zamanı boşa keçirməyəsən,
Onu elmə sərf edəsən.
Qoyub dünyadan iz,
Sevib, seviləsən.

Ellər ansın adını,
Çox körpəyə qoysun adını,
Zaman sənə yar olub,
Ansın hey adını.

Sevgidən güllər açsın,
Mələklər səndən danışsın,
Əl çatmayan zirvədə,
Adına nəğmələr qoşsun.

Ruhun pərvaz eyləsin,
Sevgin dünyanı gəzsin,
Quşlar nəğmə oxuyub,
Mələklər salam söyləsin.



## SƏNİNLƏ ÇOX XOŞBƏXTƏM YA RƏBBİM

Səadəti gözləmişdim,
Könlümü köz-köz etmişdim,
Səadətin sən olduğunu,
Heç bilməmişdim.

Səninlə elə xoşbəxtəm,
Ölsəmdə qəmim yoxdur,
Dərdimə dərman oldun,
Səndən çox sevənim yoxdu.

Səninlə elə xoşbəxtəm,
Sussuz səhraydım suya doymuşam,
Qəm kədərdən qaçıb,
Tək sənə sığınmışam.

Səninlə elə xoşbəxtəm,
Zirvələr mənim olub,
Zirvədə qalmaq üçün,
Sevgim mənə hayan olub.

Səninlə elə xoşbəxtəm,
Hayqırıb dünyaya demək istərəm,
Hər kəsi, çağırıb bu səadətə,
Əzabdan qurtarmaq istərəm.

Səninlə elə xoşbəxtəm,
Bu xoşbəxtliyi sən vermisən,
Dünyaya sığmayan sevgimi,
Kiçik ürəyə yerləşdirmisən.

Səninlə elə xoşbəxtəm,
Xoşbəxtliyi çox görmə mənə,
Soldurub könlümün gülşənini,
Əzablı illər göndərmə mənə.

Səninlə elə xoşbəxtəm,
Dərdimin dərmanı sənsən,
Əziyyət olsada halım,
Sənsən məni qurtaranım.

Səninlə elə xoşbəxtəm,
İllərlə gözləmişdim,
Ali sevginin sən olduğunu
Mən heç bilməmişdim.

***Dedi:*** Könlün açılıb gül kimi,
Nəğmə deyir bülbül kimi,
Vəfalı ol sevgində,
Solmayasan gül kimi.



## LÜTV EYLƏ

Lütv et, sevginlə,
Axan sulartək durulum.
Əl çatmayan zirvədən,
İlhamı daim alım.

Lütv et, sevginlə,
Tənhalığdan qurtulum,
Mənə düşən imtahandan,
Əla alım.

Lütv et, sevginlə,
Maneyəni aşa bilim,
Çap edib kitablarımı,
Dünyaya yaya bilim.

Lütv et, sevginlə,
Günahdan qurtulum,
Səadətə çatmaq üçün,
Səndən daim güc alım.

Haradan, haraya gəldim,
Sevgimlə yüksəldim,
Bəslədiyim gülləri,
Sevgimlə böyütdüm.

Haradan, haraya gəldim,
Şükür ki, gəldim,
Dinləyib könül səsimi,
Eşqə yüksəldim.

Haradan, haraya gəldim,
Dualarla istədim,
Göz yaşımla isladıb baxçanı,
Sevgimləyüksəldim.

Haradan, haraya gəldim,
Yalnız sənə inandım,
Röyamdakı gizli səslə,
İlhamımla danışdım.

***Dedi:*** Rəbbin tək buraxmaz,
Onu sevib inananı,
Yalnız tək ona,
Ümid bağlayanı.



## YA RƏBBİM, YENƏ QİSMƏTİN KƏDƏRDİ

Yenə hər günki kimi,
Qismətin kədərdi.
Sevincin çox olsada,
Qəm üstələyəcəkdi.

Yenə qismətin kədərdi,
Sevənin ilham verəcək,
Könüldən könülə,
Ağrını hiss edəcək.

Yenə qismətin kədərdi,
Könlüm onu deyəcək,
Göz yaşım süzülüb,
Göyləri süzəcək.

Yenə qismətin kədərdi,
Mələklər pərişan gəzəcək,
Möminlər qəmlənib,
Göz yaşı tökəcək.

Yenə qismətin kədərdi,
Ulduzlar yerə tökülüm deyəcək,
Ay parçalanıb dünyanı,
Qaranlığa qərq edim deyəcək.

Yenə qismətin kədərdi,
Əzab mələkləri hazıram deyəcək,
Yenə səbr edib,
Zamanı gözləyəcək.

Yenə qismətin kədərdi,
Dünya səbrlə gözləyəcək,
Bir gün yükünü atıb,
Əzabdan qurtuldum deyəcək.

Yenə qismətin kədərdi,
Sevənlərin köks ötürəcək,
Nəğməsini söyləyən könüllər,
Dərdi ürəyində gəzdirəcək.

Yenə qismətin kədərdi,
Onu sevənlərin biləcək,
Öz dərdinə gülüb,
Dərdini çox biləcək.

Yenə qismətin kədərdi,
Qiyamət gəlirəm deyəcək,
Hər gün səbr edib,
Onu gedikdirəcək.

Yenə qismətin kədərdi,
Küləklər xəbərin gətirəcək,
Şeytan sevinib buna
Ordusunu gücləndirəcək.

Yenə qismətin kədərdi,
Buludlar göz yaşı tökəcək,
Günəş yandırmaq üçün dünyanı,
Səndən əmr gözləyəcək.

Yenə qismətin kədərdi,
Yer-göy əmr gözləyəcək,
Dəryalar çoşub qəzəbdən,
Selə, suya qərq edim deyəcək.

Yenə qismətin kədərdi,
Bu qiyamətə qədər sürəcək,
Onun nə zaman gələcəyini,
Lövhü-məhfuzdadır,(Surə 78, ayə 29)
Kimsə bilməyəcək.

***Dedi:*** Yer-göy şahiddir,
Mələklərdə üstəlik,
Bizə gələn şəhidlər,
O günü gözləyir.



## YATMA OYAN

Yuxuda keçirib ömrünü,
Onsuzda çox yatmısan.
Hələ gəncəm deyib,
Özünü aldatmısan.

Qalmısan orucdan namazdan,
Yeyib, içib dincəlmisən,
Özündən razı qalıb,
Ətə - cana gəlmisən.

Sənə verilən ömrü,
Yuxuda keçirmisən.
Talehinə düşən paydan,
Yan keçmisən.

Bir işə yox həvəsin,
Ancaq yatmaqişin.
Uyudub səni şeytan,
Boşa keçib ömrün.

Bir gün oyanacaqsan gecdir,
Gec olmamış gəl oyan.
Oyan  qəlbin, ruhun oyansın,
Zamanın keçdiyini anlasın.

## NECƏ GÖZƏLDİR ƏTİRLİ GÜLLƏR

Elə gözəl açılıb,
Aləmə ətir saçılıb.
Ömrü az olsa da,
Fəsildən-fəsilə yaşayıb.

Şeh süzülür yanağından,
Gülə nəğmə qoşaraq.
Gözləyir bülbülü,
Butasından açılaraq.

Nədən ömrü azdır,
İncə, zərif güllərin.
Bənzəyir könüllərə,
Onunçün zərifdir belə.

***Dedi:*** Baharda güllər açaram,
Tez açıb tez solaram.
Məni sevən aşiqlərin,
Könüllərin ovlaram.

Hər rəngə boyanmışam,
Şehdən isllanmışam,
Ömrüm az olsa da,
Hər fəsildə yaşamışam.

Sizə nəğmə qoşub,
Sizinlə danışıram,
Məni duymasanızda,
Sizi duyuram.

Ətrimdən doymazsınız,
Neçə ətrim var mənim,
Allaha şükür olsun,
Onuntək sevənim var mənim.

***Dedim:*** Əkiləydiniz qəbrim üstə,
Ətrinizi duyaydım,
Sizə nəğmələr qoşub,
Ruhunuzu oxşayaydım.

Sizinlə danışaydım,
Hərənizə ayrı nəğmə qoşaydım,
Sevindirib sizləri,
Cənnətdə birgə olaydım.



## QURTULUŞ GÜNÜMÜZ

Yaşasın Azərbaycanım,
Gəlsin gözəl sorağı.
Düşmən bağrı çatlasın,
Dalğalansın bayrağı.

Qurtuluşumuz əbədi olsun,
Torpaqlarımız alınsın.
Köçgünləri yurdların,
Çırağını yandırsın.

Şəhidləri qəmqin olmasın,
Qanlar yerdə qalmasın,
Cəsur oğullarımız
Düşmən bağrı çatlatsın.

Sevgi gecəni gündüzə qatsın,
Kitabları ellərə çatsın,
Qovuşanda Rəbbinə,
Sorğu, sualdan utanmasın.

Verdiyi hikməti ellərə yaysın,
Nəğməsi dillərə çap olsun,
Dünyanın hər yerində,
Nəğmələrimoxusun.

Çoxu səs verməsədə səsimə,
Allah səs verir səsimə.
Çoxundan üstün tutub
İlhamı verib könlümə.

İlhamıyla yazdırır,
Röyamda gizli səs olur,
Sirləri açmayım deyə,
Mənə xatırladır.

## DÜNYANIN DƏRDİNİ MÜDRİKLƏR ÇƏKƏR

Dünyanın dərdini müdriklər çəkər,(Surə 42, ayə 51)
Dərdli ürəyə su səpər.
Çoxu yatıb dincəlsədə,
Yata bilməz gecələr.

Dərdini gecəylə bölər,
Yazdıqca yüngülləşər,
Qərar tutmayıb heç yerdə,
Ancaq sözlə deyişər.

Giley quzarı qurtarmaz,
Hər yerdə ədalət axtarar,
Yük olmaq istəməyib,
Dünyanın yükünü çiynində aparar.

Çətin bir ömür verilib ona,
Çətin ki, bunu sevgisiz qana,
Axar gözündən yaş gilə-gilə,
Tənhalıq dostur ona.

Şükut gözəl həmdəmidir,
Onunla dinləyir könül səsini,
Saf-çürük edib sözləri,
Yaradır əsərlərini.

Şairin dövləti inan sözdür,
İlhamla söyləyən haqqın özüdür,
Heç yerdə yoxdu, şair məktəbi,
Şairin olsun gərək söz təbii.

Dəryadan incilər çıxar,
İlhamı olmayan hikməti yazmaz,
Kim eşqində vəfalı olsa,
Onun ilhamı azalmaz.

İlhamı alar hikmətdən,
Üstün tutar, hər nemətdən,
Həyata əlvida edəndə,
Düşməz hörmətdən.

Zamanında bilməsələr də qədrini,
Zamanla biləcəklər qədrini,
İbrət götürüb hikmətdən,
Alacaqlar hey ətrini.

Dünya başdan-başa gülüstan olsa,
Dəyəri olmaz hikmət olmasa.
Hər kəs açıq, saçıqlığa etsə adət,
Ədəb, ərkan olmaz şəriət olmasa.

Özünə tədarük görməyən,
Zamanı dəyərləndirməz,
Şəriəti görməzdən gəlib,
Haqq qarşısında əyilməz.

Əyilməz ki, bəsirəti açılsın,
Haqq borcunu qaytarsın,
Düşünüb gələcəyini,
Savabı toplasın.

Xoşbəxtdir o insan ki,
Könlü sevgi ilə doludur,
Düşünüb gələcəyini,
Yolu haqqın yoludur.

Xoşbəxtdir o insan ki,
Nəsihəti dinləyir,
Şəriətə əməl edib,
Könlü haqqa yönəlir.



## ÖZÜNƏ YENİ SƏHİFƏ AÇ

*Bir nəfərə*

Qalıb zülmətdə,
Kortək işıq arayacaq.
Yumasa günahı,
Zülmətdə qalacaq.

Baxmasa şəriətin şözünə,
Həm həqiqətin özünə,
Əzab verib ruhuna,
Gələcək şeytanın felinə.

Keçmişə salsan nəzər,
Ondan ibrət götürərdin,
Keçib gedən zamanın,
Dəyərini bilərdin.

Xoşbəxtlik arzulayırsan,
Tövbəni unudursan,
Düşünməyib gələcəyi,
Özünü güclü sanırsan.

Güc sənin səbrindədir,
Haqqa dönməyindədir.
Əziyyət verən nəfsinin,
Gücdən düşməyindədir.

Aza-çoxa baxma dünyada,
Nə vara dövlətə ada,
Bax könlünün səsinə,
Aldanma şeytan fitnəsinə.

Vaxtında şəriətlə getsən,
Daşı ətəyindən töksən,
Üzünə güləcək səhərin var,
Sənində müjdələrin var.

Hər iki dünyada xoşbəxt olarsan,
Yaxşı ad ilə tanınarsan,
Boşa keçirməyib zamanı,
Mənalı yaşayarsan.

Özünə sevgidən çələng toxu,
Könlünə dəysədə vəfasız oxu,
Əməl et şəriətə oxu,
Dəyməsin könlünə zamanın oxu.

Pisi yaxşıdan ayırd edəsən,
Səhvi təkrar etməyəsən.
Kortək quyuya düşüb,
Keçmişə dönməyəsən.

Artacaq gücün qüvvətin,
Orucla nəfsini endiyin andan,
Özünə ibrət götürüb,
Şəriətlə getdiyin andan.

Şeytan gücdən düşəcək,
Könlündə sevgi cücərəcək,
Əgər sulasan onu imanla,
Mələklər gələcək sənə dumanla.

Dilərəm Rəbbim səni qutarsın,
Zülmət könlünə nurlar saçsın.
Əlinlə soldurduğun illərin,
Arxada qalsın.

Qalsın qayıtmasın,
Talehin olmasın heç,
Anaların üzü gülsün,
Zəhməti olmasın heç.

Talehin solmuş zamanına bax,
Əlində olan zamanına bax,
Çalış savabedəsən,
Dünyaya sevgi verəsən.

Yanan könlümə bax,
Arzusu ürəkdə qalana bax,
Yorulmayıb yollarda,
Yorğunyürüyənə bax.

Bax ki, səndə ibrət alasan,
Boş xəyal qurmayasan,
Səndə Rəbbin gözündə,
Möminlərtək ucalasan.

Sevgisiz cahan boş görünərdi,
İnsan heyvantək sürünərdi,
Olmazdı qədir, qiyməti,
Artardı möhnəti.

Şükürlər olsun Yaradana,
Sevgi verib könüllərə,
İnsanda şəriətlə getsin,
Divan tutmasın ölkələrə.

Lənətlər olsun şeytana,
Vəsvəsədən qalmayana,
Yorulmayıb vərdişindən,
Ondan xoş olana.

## MÖMİNLƏRƏ SALAM OLSUN

Salam Muhammədi Mustafa,
Edilən dualar əskilməsin.
Sizlər bizə örnək olub,
İslam daim yaşasın.

Salam Hz: Həsən,
Salam Hz: Hüseyn,
Salam yemiş iki sühəda,
Dilimiz söyləsin dua.

Ağrınız ürəyimizdədir,
Adınız dilimizdədir,
Rəbbin sevinci möminlər,
Sevənlərin könlündədir.

Şəhid donunda gedən şəhidlər,
Sorğu-suladan qurtulub,
Dünyada etdiyi savablar,
Yollarına nur olub.

İnşallah arzulara yetəcəm,
Ruhumu təslim edəcəm,
Mənə olan sevgisinə,
Savabla gedəcəm.

Qorxuram sorğu-sualdan,
Edilən günahdan.
Nəfsimizi hey enək,
Təmizlənək günahdan.

***Dedi:*** Bir tarixə sal nəzər,
Sənə dəyməsin nəzər,
Saf çürük edəndən,
Uzaq olar nəzər.

## ALLAH KÖNÜLLƏRƏ GÖRƏ VERƏNDİ

Allah könüllərə görə verəndi,
Çox gözəl sevəndi.
Yusan əgər günahları,
Görərsən fərmanları.

***Dedi:*** Səbrlə gözləyəsən,
Ümidini kəsməyəsən,
Sonra peşiman olub,
Dərdli gəzməyəsən.

İmtahandan üzüağ çıxasan,
Sevginlə ucalasan,
Qəsdən qaçırmayıb namazı,
Əli boş qalmayasan.

Nəfsinə qul olmayasan,
Cənnəti burada qazanasan,
Əhdinə vəfalı olub,
Sevgini gilə-gilə artırasan.

Azalmasın həvəsin,
Aləmdə duyulsun səsin,
Nəmərdə rast gəlsən,
Ucadan gəlməsin səsin.

Edib savabları,
İnciləri yazasan,
Talehindən küsməyib,
Səbrlə dayanasan.

İlhamı daim alıb,
Elmdən xəbərdar olasan,
Gecə-gündüz deməyib,
Tarixdə iz qoyasan.

Çox kəsə örnək olub,
Namazdan, orucdan qalmayasan.
Tez yatıb gecələri,
Sübhü qaçırmayasan.

Sünbülləri dərəsən,
Bərəkəti ellərə göndərəsən,
Namərddən uzaq olub,
Tələyə düşməyəsən.

Aşına su qatmayasan,
Rahat mənzilə çatasan,
Yolda qalana kömək olub,
Yolda qalmaysan.

Əzmlə dayanasan,
Xaliqdən halı olasan,
Zülmətdən çıxıb,
Nura boyanasan.

Uzun yolu qısa edəsən,
Naümid gəzməyəsən,
Soranda güllər əkib,
Boş yerə gözləməyəsən.

Könülləri şad edəsən,
Ehtiramını gözləyəsən,
Nankordan uzaq olub,
Ömrü yelə verməyəsən.

Sevgi ilə yatıb oyanasan,
Şikayətə qalxmayasan,
Xoşbəxt olmaq üçün,
Allaha buraxasan.

Əzablara dözəsən,
Ruzi üçün üzülməyəsən,
Halına şükür edib,
Bədxərc gəzməyəsən.



## CƏNNƏT-CƏHƏNNƏM BU DÜNYADADI DEYƏN

*Bir xanıma*

Gəlib yarı yaşına,
Nəfsin önündə əyilib,
Hardan gəlib hara getdiyini,
Hələdə bilməyib.

Gecələr arxayın yatmısan,
İbadətə qalxmamısan,
Şəriətdən danışsanda,
Ona əməl etməmisən.

İnanmamısan dirilməyinə,
Haqq hesab gününə,
Kim söyləsə haqq sözünü,
Avam yerinə qoymusan.

Özünü ağıllı sanıb,
Həqiqəti görməmisən,
Bəsirətlə görməyib,
Gözü kor qalmısan.

Səmimi olub,
Könlünü dinləməmisən,
Onu bağlı qoyub,
Bildiyini etmisən.

Şükür etməyib halına,
Dünyadan doymamısan,
Yetsən əgər sərvətə,
Yenə düşəcəksən möhnətə.

Olsa varın az biləcəksən,
İmana gəlməyəcəksən,
Sənə verilən zamanı,
Dəyərləndirməyəcəksən.

İndidən görürəm halını,
Ümidlə gözlərəm sabahını,
Bəlkə tövbə edib,
İmtahandan keçərsən.

Boşuna yaranmamış cahan,
Qullarını edər imtahan,
Kim dünyanı sevib qalarsa,
Dərdinə dərman olmaz.

Rəbbimə dua etdim,
Əhv etsin günahımızı,
Cənnətdə müjdələsin,
Eşitməsin ahımızı.

***Dedi:*** Ruhunu şeytana satanlar,
Çətin ki, söz qana,
Arxada geybət edən,
Özünə əzab hazırlar.

Görənlə kor eyni olmaz,
Haqqı sevən ilhamsız olmaz,
Kim inanmasa axirətə,
Cənnətdə yeri olmaz.

## YA RƏBBİM İNSAN YUXUDA SƏNİ GÖRƏ BİLƏRMİ?

***Dedi:*** Çox maraqda qalmısan,
Şəriəti unutmamısan,
Bir dəlil kimi
İlhamınla danışmısan.

Kəlamım eşidiləcək,(Surə 42, ayə 51)
Simam görülməyəcək,
Nəsildən, nəsilə,
İnsanlar öyrənəcək.

Yoxdur sevgiləri,
Yalandı sözləri,
Yalancı insanların,
Veriləcək dərsləri.

Şəhvətsiz olanı,
Dünya aldada bilməz,
Halalı harama qatan,
Aşiqliyə yüksəlməz.

***Dedim:*** Mən sənə inanıram,
İrfanla suala cavab alıram,
Çoxunu gizli saxlayıb,
Bəzisini açıqlayıram.

## KEŞKƏ YENİDƏN BAŞLAYIM DEYƏCƏKSƏN DAYANMA O ANDA TÖVBƏ ET

Əzab verib özünə,
İlləri bada verməyəsən.
Əlacsız qalıb,
Naümid gəzməyəsən.

Fürsət ələ düşəcəkmi,
Zaman veriləcəkmi
İndi tövbə etməsən,
Sonra edəcəkmi.

Yenə bahar gələcəkmi
Nəfsin eniləcəkmi
Sərhədi gözləməyən
İbrət götürəcəkmi.

Kim duyacaq harayını,
Cəhənnəmdə yanmağını,
Dünyaya aldanıb,
Cəhənnəmi  boş saymağını.

Sən ki, heç qorxmursan,
Gözü kor yaşayırsan,
Yenidən diriləcəyinə,
İnanmayırsan.

Deyirsən kefim belə istər,
Ağıllı keyf edər,
İnanıb şəriətin sözünə,
Yuxunu harammı edər.

Qorxmursan Yaradandan,
İddiayla gəzirəsən,
Sanki ömür var deyə,
Gələcəyi düşünmürsən.

Gəlib yetər ölüm anı,
Əldə deyil bircə anı,
Mən hələ görmədim,
Ölümü dayandıranı.

O anda qorxacaqsan,
Səhvini anlayacaqsan,
Savab kisəsini
Boş aparacaqsan.

Əldə var ikən ömür,
Qoyma boş keçsin,
Layiqli qul ol ki,
Versin cənnətdə yerin.

Götür nəsihəti müdrikdən,
Dünyanı boş biləndən,
Şəriətə əməl edib,
Hikmətli söz deyəndən.

Baxma vara dövlətə,
Savabla yet hörmətə,
Allahı sevindir ki,
Götürsün cənnətə.

Qoy əlini ocağa,
Boşa indidən sınağa,
Gör,  dözə bilərsənmi
Cəhənnəmdə yanmağa.

Sanma sahibsizdir dünya,
İnsan buraxılıb başlı-başına.
Hər gələn at oynadacaq,
Həm cəzasız qalacaq.

Başın üstündə təhlükəyə bax,
Yaradanı sevgi ilə an.
Lənət edib şeytana,
Sərhədləri aşmaginan.

## DAMLA OLUB DƏRYALARA QATILACAYDIM

Damla olub, dəryalara qatılaydım,
Ruhum ruhuna çatsaydı.
Əl çatmayan zirvələrə,
Sevgimlə çataydım.

Göz yaşımla sulayaydım yolları,
Əkəydim sevgi kolları,
Dönməyəcəyim dünyada,
Qoyaydım savabları.

Ruhum pərvazlanıb uçaydı,
Başqa dünyada səni tapaydı,
Doyunca baxıb hüsnünə,
Əsirin olaydı.

Gəzəydim baxça, bağları,
Edəydim duaları,
Baş əyib dərgahına,
Bitirəydim xəyalları.

Səadətə çataydım,
Könülümü sənə bağışlayaydım.
Dərib baxçalardan gülləri,
Qoxlayaydım.

Alaydım ilhamı sevgimdən,
Qurtaraydım möhnətdən,
Peşiman edib şeytanı,
Yanına savabla gələydim.

***Dedi:*** Sevginlə viran etmə könlünü,
Gözlə mənə gələcəyin günü,
Yaz aləmə göstər,
Mənə olan sevgini.

***Dedim:*** İnşallah odu sönməz,
İlhamıma bərəkət gələr,
Səni hər zaman sevmək,
Sonsuza qədər sürər.

Sevgisiz sussuz səhraya dönərəm,
Əli qoynunda gəzərəm,
Bezib bu halımdan,
İlhamı hey gəzərəm.

## GÖZƏL SEVGİM

Sən könlümdə çiçəksən,
Hər şeydən göyçəksən,
Ruhumla baş-başa qalan,
Həzin nəğməsən.

Sən azadlıq nəğməsi,
Haqqın səsisən,
Mənə ümid verən,
Könlümün sevincisən.

Sən canıma can verən,
Günahdan təmizləyən,
Hər yerdə sülh yaradan,
Əbədiyyat nəğməsisən.

Sən kafirlərə göz dağısan,
Rəbbin gözəl payısan,
Talehimə işıq saçsan,
İslamı yayanımsan.



## ANAM ÜÇÜN DARIXMIŞAM

Gözüm yaşı qurumaz,
Anamı xatırlayanda.
Təbib özü neyləsin,
Ana balaya həsrət qalanda.

Təbib sağaltmaz dərdimi,
Ayrı yeri var anamın.
Köz üstündə kababtək,
Ürəyim həsrətdən yanar.

Yerini verməz heç kəs,
Vəfada ona tay ola olmaz,
Boş qoyub köksünə,
Nəğməsini dinləyəydim.

Yaralı quştək inləyirsən,
Könlümün gözünü açıb, tökürsən,
Arzusu ürəyində qalıb,
Yolumu gözləyirsən.

Gəlib yetəcək ölüm ani,
Səni mənə qovuşduracaq.
Könül nəğməmizdən
Dağlar, dənizlər danışacaq.

Baş qoyacam dizin üstünə,
Dərd gətirməyəcəm dərdin üstünə,
Gəlsəniz qəbrim üstünə,
Ruhum sizi alqışlayacaq.

Anadır zəhmətkeş vəfalım,
Gedibmənim yarım,
İsti nəfəsinə həsrət qalmışam,
Vəfalı anaları alqışlamışam.

Yoxdursa vəfan nədir qiymətin,
Tanrı gözündə yoxdur hörmətin,
Cənnət gələcək ayağı altına,
Cəfakeş xanım anaların.

Salamlayacaq hər birimizi,
Bizə əbədi həyət verəcək,
Saf-çürük edib savab günahı,
Siləcək çox günahı.

Unutmayıb Tanrı borcunu,
Tutasan hey orucunu,
Versənizdə ana borcunu,
Kim verəcək haqqın borcunu.

Dünyada zəhmət çəkib,
Çox əzabdan keçib,
İbadəti unutmayıb,
Haqqa gələsiniz.

Böyük borcu qaytarmalıyıq,
Əliboş qalmamalıyıq,
Yanında xəcalət qalıb,
Cəhənnəmdə yanmamalıyıq.

Demə mənə bir şey olmaz,
Əzab mələkləri canımı almaz,
Kim dünyadan getsə savabla,
Tanrı yanında xəcalət olmaz.

Aç götür xəzinəmdən bir varaq,
Kitabımı varaqlayaraq,
Özünü gör hər səyifədə,
Tanrının ol hörməyində.

Söz xəzinəsini gəzsəm doymaram,
Hikmətdən ilham alaram,
Yazaram könül dəftərimə,
Dərman edərəm dərdimə.

Hikmətdən yoğrulub insanın zafı,
Hikmətdir insanın mənəviyyatı,
Toplasan dünyada dövləti,
Hikmətsiz insanın olmaz dəyəri.

Nadan səhrada inci tapsa,
Sevinci göylərə qalxar,
Hikmət dəryasına baş vursa sevgi,
Əlləri hey duaya qalxar.

Şairin dövləti inan sözüdü,
İlhamla söyləyən haqqın özüdü.
Heç yerdə yoxdur şair məktəbi,
Şairin olsun gərək söz təbi.

Dəyişmərəm onu dünya malına,
Gəlmərəm Tanrı zavalına,
Çoxu tamah etsədə xəzinəyə,
Üz tutmaram o viranəyə.

Əyər əskiyim onunla düzəlsədə,
Könül boş qalacaq hikmətsiz,
Yarı ac, yarı tox yaşamaq olar,
Hikmətsiz könül zülmətdə qalar.

Olmaz qiyməti heyvandan,
Qözü ac olar əfi ilandan,
Könlü hikmətlə dolu səxsin,
Özü qorxar hər yalandan.

Namərd gözündə qınanar,
Yaralı ürəyə məlhəm olar.
Tanrının sevinci olub
Hüzurunda durar.

Dərdini bölər onunla,
Əli boş qalsada zamanla,
Bilir  bu da keçəcək,
Səbriylə yüksələcək.

Səmimi olacaq hər an,
Tək Rəbbidir onu duyan,
Vəsf edib Rəbbini,
Üzünü güldürəcək.

Bəzi nöqsanı siləcək dəftərdən,
İbrət götürəcək ibrətdən,
Etməyib böyük günahı,
Tərk edəcək nöqsanı.



## MƏN ŞEİRİMDƏN İLHAM ALIRAM

Mən şeirimdən ilham alıram,
Hər şeirimdə yaşayıram,
Uçub xəyal qanadında,
Səndən ilham alıram.

Mən şeirimdən ilham alıram,
Müdrikliklə duyuram,
Səhv etməmək üçün,
Təcrübədən ibrət alıram.

Mən şeirimdən ilham alıram,
Zirvəyə addımlayıram,
Əl çəkib boş xəyaldan,
Həqiqətə inanıram.

Mən şeirimdən ilham alıram,
Uşaqtək saf oluram.
Nağıllara inanıb,
Gələcəyə inanıram.

Mən şeirimdən ilham alıram,
Talehimlə baş-başa qalıram,
Ruhuma əzab verəndən,
Uzaq olmağa çalışıram.

Mən şeirimdən ilham alıram,
Taleh yükünü daşıyıram,
Əbəbi səadət qazanmaq üçün,
Şəriətdən güc alıram.

Mən şeirimdən ilham alıram,
Möcüzəyə inanıram,
Uymayıb şeitan fitnəsinə,
Sevgimlə baş-başa qalıram.

Mən şeirimdən ilham alıram,
Tufandan qorxmuram,
Haqq ədaləti unutmayıb,
İslama çağırıram.

Mən şeirimdən ilham alıram,
Dünyanı əfsanə sanıram,
Boş olan dünyada,
Qiyamətə inanıram.

Mən şeirimdən ilham alıram,
Yüksəkdən dünyaya baxıram,
Əbədi səadət qazanmaq üçün,
İmanımı artırıram.

Mən şeirimdən ilham alıram,
Sevgimi dünyada qoyub,
Tarixdə iz qoymaq üçün,
Yeni kəşflər aparıram.

## VƏFALISAN KÖNLÜM

Vəfada yoxdur tayın,
Sənsən sevgi payım.
Səni unutmayacaq,
Heç bir ilim, ayım.

Vəfada yoxdur tayın,
Könlümdür vəfalı yarım,
Məni ovudub,
Mənə hayan olanım.

Vəfada yoxdur tayın,
Sənsiz keçsədə ayım.
Səni mənə gəirəcək,
Mənim arzu muradım.

Vəfada yoxdur tayın,
Unudubsan gəlmir hayın,
Sevgi səni unutmayacaq,
Sənə çatacaq hayım.

Unut vəfasızı söylədi dilim,
Ancaq vəfalıdı könlün,
Könül dedi gözləyəcəm,
Xoş xəbərini gətirəcəm.

***Dedin:*** Məndən yaxşısını,
Sevə bilirsən sevginən,
Unudub sən məni,
Öz elinə getginən.

Məni zamanla baş-başa,
Həm savaşa buraxdın,
Qalibi mən uduzanı sən,
Özünü sevdirib, məni görməyən.

Ayrılıq şərbətini içdim doyunca,
Gözlədim illər boyunca,
Var olan sevgim yaşayacaq,
Gözüm səni axtaracaq.

Könlüm barışmır yoxluğunla,
Dağlardan, dənizlərdən sorar səni,
Sahilə can atan məğrur dalğalar,
Bir gün gətirər mənəxəbərin.

Səs-səsə verib uçan quşlar,
Bir gün məktub bağışlar,
Lalədə, nərgizdə sənin,
Gətirəcək mənə xəbərin.

Sordum Rəbbimə haradadır görən,
Səndən başqası yoxdur bilən,
***Dedi:*** Aşiqlikdə kim mətin olsa,
Bəxt ulduzu olmaz sönən.

## BAHAR GƏLİR

Eşidilir quşların gözəl nəğməsi,
Hər yerdə baharın ılıq nəfəsi,
Qış yerini bahara verir,
Ellərə bərəkət gəlir.

Gül-gülə çiçək-çiçəyə qarışır,
Hər yerdə tumurcuqlar parlayır,
Şaxtada qalan ağaclar,
Baharla sevinməyə çalışır.

Günəş şəfəq saçır,
Torpağa bərəkət gəlir,
Dağlar, təpələr yaşıllaşır,
Çaylara, göllərə bərəkət gəlir.

Bülbüllər səs-səsə verir,
Güllər bəhsə girir,
Bəhər vermək üçün,
Ağaclar həvəsə gəlir.

İnşallah verib bəhərin,
Bəhrəsi ilə sevindirəcək,
Süfrəyə  bərəkət verib,
Canımıza can verəcək.

Bərəkət ayıdır deyirəm,
Bütün fəsilləri sevirəm,
Bahar adlı fəsilə,
Fəsillərin şahıdır deyirəm.

## 31 MART AZƏRBAYCANILILARIN SOYQIRIMI GÜNÜ

Tarix təkrar olmasın,
Millətim ağlar qalmasın,
Soyqırımdan hamı,
Bir ibrət alsın.

Sanma kafir unudub,
Bizə dost olub,
Üzdə üzümüzə gülüb,
Arxada quyu qazıb.

Göz dağı olub,
Varımız talanıb,
Azərbaycanın talehi,
Bir Allaha qalıb.

Əl açıb yalvarırıq,
Vətənimizə dayaq ol,
Xain zalımların,
Cəzasını ver Rəbbim.

Dillərini lal eylə,
Ölkələrini xaraba,
Bayquşlar ulasın,
Leş-beşə qarışsın.

Tək tənha qalsınlar,
Dostları atıb qaçsın,
Allah dinini bəyənməyənlər,
Qəzəbə uğrasınlar.

***Dedi:*** Göy gürultusu eşidiləcək,
Torpaq lərzəyə gələcək,
Sulara qərq olub,
Düşmənlər peşiman gəzəcək.

## SƏN KÖNLÜMDƏ BİR BAHARSAN

Əllərim qalxar duaya,
Könlüm zikirdə,
Qovuşmaq mümkün deyil,
Ovunuruq dünyada.

Sevirəm güllərin rəngini,
Alıram sevginin ətrini,
Gözəldir könül dünyan,
Vurmusan nəqşini.

Baxdıqca doymaq olmur.
Güllərdən ayrılmaq olmur,
Sevgiyə layiqdir Rəbbim,
Başqasını sevmək olmur.

Qoymaram məndən incisin,
Sevənim qüssə çəksin,
Lənətlərəm şeytanı
Peşiman gəzsin.

O qədər gözəl ruhu var ki,
Onu görməmək mümkün deyil,
Kor olub o gözlər ki,
Gözəlliyinə biganə qalıb.

# MƏSUM KÖRPƏLƏR

Gələcəyimiz olan,
Tər fidanları qoruyaq.
Hər gün dua edib,
Onları unutmayaq.

Qəzayla ölən körpələr,
Qurtulub  hesabdan,
Allahla səmimi olsan,
Qurtularsan  hesabdan.

Necə gizli sirləri var,
Bizə rəhmi çoxdu,
İbrət götürsək,
Qoruyan mələyi çoxdu.

Gərək qorxaq qəzəbindən,
Əyər, əksiyimizi düzəldək,
Görməsəkdə bizi görür,
Yanımızda hiss edək.

Hey onunla danışaq,
Əyər, əksiyimizi anladaq,
Çıxmayıb şəriətdən,
Qanunları pozmayaq.



## GERÇƏKLƏ ÜZ-ÜZƏ QALDIM

Çoxu möcüzəni boş saysada,
Gerçəklə üz-üzə qaldım.
Gözləmədiyim bir anda
İlhamımla danışdım,
Könlüm para-para oldu,
Eşqin əlindən.
Özüdə mat qaldım,
Sirrin əlindən,
Röyamı,
Dil sözə baxmayıb
Əyan etdi
Cana gəldim.
Dilin əlindən,
Elə bildim inanacaq,
Özünə fayda sanacaq
Daha bilmədim
Könlümə köz basacaq.



## SƏNİ GÖRMƏYƏN GÖZLƏR

Səni görməyən gözlər,
Kor olub
Qulağı kar olub,
Vəsfini söyləməyə
Dili lal olub,
Özündə görməyib nöqsan
İmansız olub,
Aləmə nur saçarkən Rəbbim,
Gözlə görə bilməyib,
Bəsirəti bağlı olub,
Könlü şeytanla
Təmasda olub
Səni görəməyənlər
Sevgidən yoxsul olub.



## ELƏ ATA-ANA VAR Kİ

Elə ata-ana var ki,
Övladı islama səsləyir,
Görüb gələcəyini
İbadətə gəl deyir.

İstəməz dünyası,
Ona zindan olsun,
Yanmaqdan qabar olub,
Cəhənnəmdə qalsın.

Hər zaman öyüd verib,
Qurtuluşa səsləyər,
Ölümün gələcəyini
Gec olacaq deyər.

Çoxu sözü başdan atar,
Özünü güclü sanar,
Gözü görməz  kimsəni,
Mənəmlik tutar gözü.

Sonra başına vuracaq,
Tərsliyi bəla olacaq,
Dinləməsə nəsihəti
Onu kim qutaracaq.

Şeytanda çox tərsdir,
Gözü baçqasını görməz,
Cənnətdən qovulduğunu
Həzm etməz.

Çox şahidi oldum,
Haqdan dönəni
Hüzürü tapmayıb,
Qəmqin gəzəni.

Sanır ki, çox qabaqdadır,
Ağlı qalıbdır dala,
Şeytana dost olan,
Çətin ki, söz qana.

Tövbə qapısı açıq,
Sizi ora səsləyir,
Günaha tövbə et,
Qurtul gəl deyir.



## ELƏ ATA-ANA VAR Kİ

Elə ata-ana var ki,
Şeytanla təmasdadır,
Övladı haqqa dönsə,
Onu danlamaqdadır.

Elə ata-ana var ki,
Haqqı görən gözü yox,
Övladı haqqa dönsə,
Onu görən gözü yox.

Elə ata-ana var ki,
Şeytandan qalmaz dala,
Adı müsəlman olasada,
Şəriətdən xəbəri yox.

Elə ata-ana var ki,
Şəriəti sevməz,
Günaha tövbə edib,
Axirəti düşünməz.

Elə ata-ana var ki,
Övladı olub düşmən,
Haqdan döndərmək üçün,
Gecə-gündüz çalışır.

İmanı olanın,
Heç kıs döndərə bilməz,
Allaha aşiq olana,
Şeytanın gücü yetməz.

Adi müsəlman olub,
Kafir olan çoxdur.
İslamdan onun,
Xəbəri yoxdur.

Gəlin güclü olaq,
Rəbbimizi sevindirək,
Şeytana lənət deyib,
Cənnətinə gedək.

İslam bayrağı altında,
Ruhən birləşək,
Zəfərlərə yürüyüb,
Cənnətə tamaşa edək.

Gəlin mələkləri sevindirək,
Kafir qəmləndirək,
Tövbəyə çağırıb,
Əllərimizi birləşdirək.

Gəlin təkəbbürü ataq,
Allah sevgisinə çataq,
Öyrənək əhli-beytdən,
Həm də gözəl hikmətdən.

Gəlin bəlalardan qurtulaq,
Sevgi nəğməsi oxuyaq,
Laihahəillallah kəlməsini,
Hey əziz tutaq.

İnşallah kəlməsini unutmayaq,
Hər şeyi Rəbbimizə buraxaq,
Maşallah deyib,
Nəzərdən uzaq olaq.

***Sözüm İrfan elmini inkar edən alimlərə və insanlaradır***

***Dedi:*** Çox yazıb irfandan,
Əli heç yerə çatmayıb,
Alimliyə çatsada,
İrfana çatmayıb.

Könül gözüylə görməyib,
Aşiqliyə yetməyib,
İrfan elə zirvədir,
Onu fəth etməyib.

Kəşf etsədə çox elmi,
Allah elmini bilməyib,
Allah seçdiyinə,
İrfan elmini verib.

Əldə deyil bir ani,
Elmdən xəbəri olmayanı,
Allah yüksəldir aşiqliyə,
Onu sevməkdən doymayanı.

Açır könül gözünü,
Elmdən xəbərdar edər,
İlhamıyla dindirib,
Suallara cavab verər.

Hikməti ilə yazdırar,
Çox sirri gizli saxlayar,
Nabələd olanlar,
Şübhəylə baxar.

Çoxu onları dəli sanar,
Özünü ağıllı bilər,
Elmdən xəbəri olmayan,
Bəsirəti bağlı gəzər.

İrfan sahiblərinin,
Könlü əzabdadır.
Onlara lağ edənin,
Canı dardadır.

Qalib Rəbbiylə baş-başa,
Başqa şahidi yox,
Könlü savaşdadır,
Yaşlar hey yanaqdadır.

Yorulmur bu halından,
Ona şübhəylə baxandan,
Tək islama sığınır,
Cavab Quranda tapır.

Təslim olur Allaha,
İşiona buraxır,
Lütfünə arxayınb olub,
Səhv etməkdən qorxur.

Zamanı boş-keçirməyib,
Onu dəyərləndirir,
Saf-çürük edib sözləri,
Mənasız sualı vermir.

***Dedim:***Körpə anadan ayrı qalıb,
Necə dözürsə,
Məndə elə dözürəm,
Hər şeyi Rəbbin gözüylə görürəm.

## İRFAN ELMİNİ DOĞRU BİLİB YAZAN ALİMLƏRƏDİR SÖZÜM

***Dedi:*** Əhsən sizin kimi alimə,
Hikməti yayıb ellərə,
Saf-çürük edib sözləri,
Hər sətirdə məna görüb.

Alıb ilhamı hikmətdən,
Oda yazıb yaradar.
İnşallah irfana çatıb,
Qədrini anlayar.

Təslim olar Allaha,
Dünyanı əfsanə bilər,
Savabı toplayıb,
Özünə tədarük görər.

Alıb hikmətdən öyüd,
Ona əməl edər,
Günaha tövbə edib,
Səhvini vaxtında görər.

Yarı yolda qalmayıb,
Savabı vaxtında edər.
Allah aşiqlərindən
Sevməyi öyrənər.

Hikmətlə bəzənən könüllər,
Daim ixlasda olar,
Neçə darda olsada
Tək Rəbbinə sığınar.

***Dedim:*** Dünyadan doymuşam,
Sənə təslim olmuşam,
Lütvünə arxayın olub,
Səndə eşqi tapmışam.

Elə bir sirrli aləmdəyəm,
Sanki göylərdəyəm,
Ruhum sənə yetmir,
Hey çırpınıb dururam.

***Dedi:*** Mənə sevgisi ilə bağlı olan,
Talehi göylərdə həll olan,
Canı eşqdən yanıb,
Sərhədləri qoruyan.

## VƏSF EYLƏ

Dedi: Ey sevgili qulum,
Sən Rəbbini vəsf eylə,
Alıb qələmi ələ,
Ona nəğmələri həsr eylə.

Sən Rəbbinə vəsf eylə,
Arzularını söylə,
Ovunub nəğmənlə,
Onu ellərə söylə.

Sən Rəbbinə vəsf eylə,
Gözəlliyini söylə,
Görməsədə nur üzünü,
Yaratdığında qörüb tərif eylə.

Sən Rəbbinə vəsf eylə,
Hər tərifə layiqdi,
Onu görən könüllər,
Sevgiyə laiqdir.

Sən Rəbbinə vəsf eylə,
İbadətinlə şükür eylə,
Bəsirətlə görüb gülləri,
Güllərin dili ilə vəsf eylə.

Verib gülşəndə güllər baş-başa,
Gəlib edəsən tamaşa,
Güllərdə Rəbbinə ibadət eylər,
Şükürlərin daim söylər.

Ətrindən doymaq olmaz,
Görənlər ayrılmaz,
Qoyub könlünün üstünə,
Onlara nəğmə qoşar.

Hərəsinə ayrı nəğmə qoşar,
Onlara heyran qalar,
Dünyadakı kimi deyil,
Gülşəndə güllər solmaz.

Gülşən baxçamda gəzən doymaz,
Ətri heç azalmaz,
Onu görüb oxşayan,
Qələmi yerə qoymaz.

Ağrısada könlün yazmaqdan doymayırsan,
Gələmi ələ aldın yerə qoymayırsan,
Nəğmənlə başqa aləmə düşürsən,
Sevginlə gözümdə yüksəlirsən.

***Dedim:*** Dərdimin dərmanı nəğmələrindi,
Məni mən etmiş nəğmələrin,
Kim sevərək oxusa nəğmələri,
Onunla açılar könül nəğmələri.



## VAĞZALI HAVASINDA GEDƏN GƏLİN

Vağzalı havasında gedən gəlin,
Xoş olsun qədəmlərin,
Səni gələcəyə götürəcək,
Etdiyin əməllərin.

Vağzalı havasında gedən gəlin,
Vardır inşallah müjdələrin,
Yada səni gözləyir,
Ən böyük dərdlərin.

Vağzalı havasında gedən gəlin,
Xoş olsun qədəmlərin,
Allaha dua et ki,
Versin töhvələrin.

Vağzalı havasında gedən gəlin,
Qəm havasıyla qayıtmayasan,
İlləri dərdli yaşayıb,
Dalınca ağlamayasan.

Vağzalı havasında gedən gəlin,
Səni nə gözləyir bilmirsən,
İnanıb eşqinə,
Hələ gülüb əylənirsən.

Vağzalı havasında gedən gəlin,
Yarı yolda qalmayasan,
Əgər vəfasız olsa yarın,
Allaha sığınasan.

Vağzalı havasında gedən gəlin,
Unutma əhdi-peymanı,
Hər zaman ibadət et,
Qoru  imanını.

Vağzalı havasında gedən gəlin,
Səni nə gözləyir allah bilər,
Bizə hər zaman ki, kimi,
Dua etmək düşər.

## TƏƏSSÜF

Təəssüf hissiylə,
İllərə çox baxarsan,
Qaytara bilməyib,
Yanıb yaxılarsan.

İllərin qədrini biləsən,
Təəssüfetməyəsən,
Dünyaya dönməyəcəyini,
Savabı  edəsən.

Zaman dönməz geri,
Bu gün yenidən başla,
Təəssüf etməmək üçün,
Səhflərə alışma.

Ömür qısadır ötüb keçər,
Zaman bizə kəfən biçər,
Gözləmədiyimiz gün,
Ölüm qonaq gələr.

Dünya qan gölünə dönüb,
İnsan canavara dönüb,
Torpaq alıb qoynuna,
Dərdli ürəyə su səpib.

## GƏLƏCƏYİNİ DÜŞÜNMƏYƏNƏ

Həvəsi yox oxumağa,
Özünə naxış toxumağa.
Bir gün gələr,
Başlar  ağlamağa.

Tüfeyli gəzəcək,
Zamanı boş keçirən,
Ruzidən məhrum olar,
Avara gəzən.

Vaxtında əkməsə məhsul,
Zamanı olar məhcul,
Möhyac qalar özgəyə,
Yalvarar fələyə.

Öyüd, nəsihət dinləməyən,
Özünə lənət deyər,
Savab etməsə,
Kisəsi boş gəzər.

Əl açıb özgəyə,
Tez nəzərdən düşər,
Boş xəyala uyan,
Bataqlığa tez düşər.

Hələ aşı qaynayır,
Sanmasın belə olacaq,
Aşı qaynadanı,
Zamansəndən ayıracaq.

Taleh üzünə gülməz,
Nəsihət dinləməyənin,
Tanrı xeyir verməz,
Gözü böyüyü görməyənin.

Əgər tövbə etməsə,
Zülümlərə düşəcək,
Yoldaşı şeytan olub,
Fitnəylə üzləşəcək.



## BU QİSAS YERDƏ QALMAZ

İntiqam duyğusuyla,
Yaşayırıq,
Şəhidlərin qisasını,
İnşallah alacayıq.

Qurumayır göz yaşımız,
Alınmayır qisasımız,
Şəhidlər nigarandır,
Alınacaq qisasımız.

Yer göy sizə ağlayır,
Həm də yas saxlayır,
Hər şəhid yanında,
Əzizinə yer saxlayır.

Qisas günü yaxınlaşacaq,
Şəhidlər köməyə qalxacaq,
Rəbbim kömək olub,
Torpaqlarımız alınacaq.

Səs-səsə verib şəhidlər,
Azadlıq nəğməsi oxuyacaq,
Mələklər kömək edib,
Ruhları şad olacaq.

Düşmənin üzü qaralacaq,
Hər iki dünyadan olacaq,
Zəfərlər bizimlə olub,
Torpaqlarımız alınacaq.

Nə qədər qisas alınmayıb,
Düşmənin azğınlığı artacaq,
Anaların göz yaşı,
Elə hey axacaq.

## NƏ ÇƏKDİYİMİ İLLƏRƏ SOR

Nə çəkdiyimi illərə sor,
Kədərli günlərə sor,
Zamanla axıb gedən,
Çoşğun sellərə sor.

Nə çəkdiyimi illərə sor,
Soyuq çöllərə sor,
İsinməyib günəşdən,
Yağmurlu yollara sor.

Nə çəkdiyimi illərə sor,
Könülsüz günlərə sor,
İtirmədiyim ümidə,
Bir də arzulara sor.

Nə çəkdiyimi illərə sor,
Etdiyim dualara sor,
Könlümdə alovnanan,
Gizli sevgimə sor.

Nə çəkdiyimi illərə sor,
Həm nəğmələrə sor,
Sübhün yelinə,
Yorğun gecələrə sor.

Nə çəkdiyimi illərə sor,
Yorğun günlərə sor,
Gözümdən axan,
İsti incilərə sor.

## İKİ MİN ON İKİNCİ İLİ YOLA SALIRIQ

İki min on ikini yola salırıq,
İnşallah dərdi unuduruq,
Gələn ilə xoş gəl deyib,
Arzularaçatırıq.

Xoş niyətimiz var olsun,
Könlümüz sevgi ilə dolsun,
Allah köməyimiz olub,
Hər bəladan qorusun.

Solmasın könül çiçəyimiz,
Eşidilsin  nəğməmiz,
Sədası uzaqdan gəlib,
Bayram etsin elimiz.

Boş qalmasın qucağımız,
Salmasın könül bağımız,
Ruhumuza ruh versin,
Bizi sevən yaxınlarımız.

Tüfeyli gəzməsin,
Vaxtın qıdrini bilsin,
Zamanında elm öyrənib,
Peşiman gəzməsin.

Olana şükür desin,
İslamı vaxtsında öyrənsin,
Düşüncəsi dərin olub,
Kafirdən uzaq gəzsin.

Dünyayanəzər salsın,
Öləndən ibrət alsın,
Sorğu-sualı unutmayıb,
Savabı  hazırlasın.

Allah yurdumu qorusun,
Azadlıq şuarımız olsun,
Məscidlərdə könüllərdə,
Lailahə illallah əskik olmasın.

Yaşasın Azərbaycanım vüqarla,
İlləri yaşayaq dualarla,
Mömindən ibrət götürüb,
Yaşamayaq günahla.

Nəvə, nəticəm,
Sevgi nənələrini tanısın,
Ruhunu şad etmək üçün,
İslamı yaşatsın.

Kitablarımı oxuyub,
İbrət götürsün,
Özünü hər sətirdə,
Görsün.

İlhamıma ilham versin,
Yanıma üzüqara gəlməsin,
Hikmətdən götürüb ibrət,
Aşiqliyə yüksəlsin.

Dünya onları aldadacaq,
Başlarını qatacaq,
Tövbə etsələr,
Allah bağışlayacaq.

Allah dostlarını tanıyacaq,
Əməlində arayacaq,
Deyilən hikmətdən,
Faydalanacaq.

Sizə deyil cəmi dünyaya,
Əsərləri yadigar qoyacam,
Onunla xoşbəxt olub,
Savabı qazanacam.

Mirasım əsərlərimdi,
Çoxu faydalanacaq,
İstəyənlər,
Hikmət aparacaq.

İndidən duyaram aqibətimi,
Yadigar qoyuram nəğmələrimi,
Başqa sərvət yox olar,
Nəğmələrim gül tək açar.

Elə bir zirvəyə ucalarsan,
Səndə ilhamı alarsan,
Bu dünyanı unudub,
Aşiq olarsan.

Təslim olarsan Allaha,
Aşiqlər sirdaşında durarsan,
Şəriətlə gedib,
Möcüzəyə mat qalarsan.

Nə çəkdiyimi  bilərsən,
Layiqli qiyməti verərsən,
Gedib islamın yolu ilə,
Savabı  edərsən.

Barışmadım özüm-özümlə,
Möcüzə gördüm gözümlə,
Paralandı könlüm möcüzədən,
Təslim oldum həmin gündən.



## İNADKARLARA

Şeytandan qalmaz dala,
İnadından üstəlik,
Özünə quyu qazar,
Yollarda özü azar.

Görən gözü kor olub,
Hər şey əlində olub.
Adi insan olsa da,
Batində şeytan olub.

Çox olub günahı,
Bəsirəti bağlanıb,
Yumağa çalışmayıb,
Hər şeyi əlində olub.

Gilə-gilə yumalı,
Yükdən azad olmalı,
Yada günahkar olub,
Özünü  yormalı.

Elmdə inadkar olmalı,
Məqsədə doğru yürüməli,
Həvəsdən düşməyib,
Özünə hesab verməli.

Kim nə etsə özünə edər,
Yaxınları üzülər,
İslamla getməyənə,
Şeytan dünyanı gözəl göstərər.

Ömrü az olana,
Könül bağlamağa dəyməz,
Öləndən ibrət götürən,
Dünyaya könül verməz.

İmanlı səadəti düşünər,
Tədarükünü edər,
İbrət götürüb hikmətdən,
İslamla gedər.

Çoxu özünə səadət istəməz,
Boş olan dünyanı görməz,
Özünü aldadıb yalanla,
Tədarükünü etməz.

## GÖSTƏRMƏSİN

Allah bir də göstərməsin,
Yenə qaça-qaç düşməsin,
Ölkəm viran olub,
Düşmən əlinə keçməsin.

Hər kəs dəyərini anlasın,
Əllər duaya qalxsın,
Kafirlərin önündə
Millətim alçalmasın.

Üzə gülən zalımları,
Bir daha bağışlamayaq,
Süfrəmizdə yer verib,
Onları dost tutmayaq.

Unutmayaq şəhidlərin,
Nalə səslərini,
Alovda yanıb,
Köməksiz ölməsini.

Unutmayaq gələcək nəsillərə,
Hər şeyi çatdıraq
Kafir düşmənləri,
Bağışlamayaq.

Unutmayaq islami bəyənməyəni,
Mən ağayam deyəni
Dünyaya sahib olub
Ağalıq edəni.

Unutmayaq cəhalətdə qalanı,
Şeytanın qulu olanı,
Dünyanı əbədi sanıb,
Müsəlmanı qıranı.

Unutmayaq keçmişimizi,
Ondan ibrət alaq,
Dosta dost olub,
Düşmənə düşmən olaq biz.

Kafirlər birlik olub,
Arxada quyu qazıb
Namərdlərin hamısı,
Dində ayrılıq salıb.

Sanma dünya irəlidədir,
Düşüncələr yerindədir,
Yalnız imanlılar,
Dərin düşüncədədir.



## ÇƏTİN İMTAHAN DÜŞÜB MƏNƏ

Çətin imtahan düşüb mənə,
Səbirdən qala tiksəmdə.
Qasırqası tufanı əzabı var,
Qalanı yox etmək imkanı var.

Yürüsəmdə yollarda mətin,
Ümidsizlik bəzən qismətim,
Şeytan baxıb kənardan gülür,
Məni əzablara sürükləyir.

Mən onu o məni tez-tez enirik,
Rəbbin qarşısında imtahan veririk,
Gözüm onu  görməsədə,
Şeytan insanla imtahan edilirik.(Surə 6, ayə 113)

Bəzən gülürəm  dərdimə,
Bəzən gizli ağlayıram.
Talehimə düşən qəmdən,
Rəbbimə ümid bağlayıram.

Başım üstündə qasırğalar var,
Şeytanın çox oyunu var,
Oyuna səbrlə dözənə,
Rəbbin mükafatı var.

Rəbbim dözüb dünyanın halına,
Yenə şükür edib halına,
İmtahandan çıxa bilməyənin,
Qiyamətdə bax halına.

Şikara çıxan şeytan busqudadır,
Hər an fitva verəndir,
Mələklərdə hər halı,
Rəbbimlə birgə görəndir.

Kimi sevindirmək öz əlindədir,
Səbrlə şükür deməyindədir,
Yada asi olub haqqa,
Şeytanı sevindirməyindədir.

Sevgi ilə anasan Rəbbini,
Sındırasan şeytanın təkəbbürünü,
Qaçırmayıb bilərəkdən namazı,
Yaradanı edəsən razı.

Hər halına şükür edəsən,
Dərdli könülləri sevindirəsən,
Sevgidən mərhum olana,
Sən sevgi diləyəsən.

Mənəviyyatdan yoxsul olana,
Hər gün dua edəsən,
Ayağına batan tikanı,
Təmizləyəsən.



## YALAN OLAR

Zalımın qəlbi daşdan olar,
Etdiyin andı yalan olar,
Yalan göz yaşları,
Ona qənim olar.

Yalan imiş özü kimi sevgisi,
Sevgisizin yox könül nəğməsi,
Zalım olduğu üçün,
Əldən tutmaz kimsəsi.

Bilə-bilə könül qırarmış,
Yaraya duz basarmış,
Sonra kənardan baxıb,
Kam olarmış.

Könüllə oynamağa adət etmiş,
Sanma bəxti gülmüş,
Etdiyi günah bir gün,
Özünə dönmüş.



## SƏNƏ DOĞRU GƏLƏRKƏN

Sənə doğru gələrkən,
Yollarda yubandım,
Sənə olan sevgimi,
Qulunda aradım.

Vəfası olmayandan,
Vəfa gözlədim,
Yollarda yorulub,
Əlimi üzmədim.

Sonsuz kədərdəyəm,
Həm səadətdəyəm,
Sənə yetdiyim üçün
Həsrətdəyəm.

Sənə gələn yollarda,
Çoxlu tikanlar bitmiş,
Qoparıb atsamda,
Məni candan etmiş.

Qorxmadım tikanlardan,
Bir-bir qoparıb atdım,
Sevginə yetmək üçün,
Səbrlə doyandım.

Güc aldım sevgimdən,
Ədalətinə inandım,
İmtahana hazır olub,
Mətin dayandım.

Allah məzluma zülm etməz,
İnsan özü-özünə zülm edər,
Aşıb sərhədləri,
Gözü haqqı görməz.

Günahı yükləməyək başqasına,
Zəhər qatmayaq aşımıza,
Etdiyimiz günahlar,
Çıxmasın qarşımıza.

Ədaləti unutmayaq,
Zalımı Allaha tapşıraq,
Ruhumuzu sıxandan,
Biz uzaq olaq.



## Mündəricat


SÖZ QƏDRİNİ ............ 3
GƏRƏK CƏHD EDƏSƏN ............ 5
ŞAHİD OLAN ALLAHIM ............ 7
SƏN SƏADƏTİ ÇOX GÖRDÜN MƏNƏ ............ 9
OLA BİLMƏZ ............ 10
KÖNLÜMÜ HİKMƏT ÜÇÜN YARATMIŞ ............ 12
NECƏ GÖZƏLDİR, GÖZDƏKİ YAŞLAR ............ 13
SƏDƏT NƏDİR? ............ 14
BİZİM KİTABXANAMIZ ............ 16
İSLAMIN YOLUNDA ............ 18
NƏFSİNİ ENMƏK İSTƏYƏNƏ ............ 20
BU GÜNLƏ YAŞAYANLARA ............ 24
HARADASAN ............ 26
ƏN BÖYÜK HAKİMİN QARŞISINDA DURACAĞIQ ............ 28
SEVƏRKƏN SINAYACAQSAN ............ 30
SEVGİDİR ............ 32
ŞÜKÜR HAQQ ETMİSƏN ............ 34
KEŞKƏ BU DÜNYADAKI KİM SƏNİ CƏNNƏTDƏ DƏ VƏSF EDƏYDİM ............ 36
MƏNDƏ NÖQSAN AXTARAN ............ 37
HÜNƏRİNİ SAYMAQLA BİTMƏZ ............ 38
İLHAMI ARTIRAR KÖNÜL SEVGİSİ ............ 40
HİKMƏT DOLU ŞEİRLƏRİM ............ 43
BU QİSAS YERDƏ QALMAZ ............ 45
DÜNYA BİR UÇURUMDUR ............ 46
GÖRMƏSƏ İMANI YOX ALLAHA ............ 48
YALANÇI BAHARSAN ............ 52
UNUT KEÇMİŞİ, GƏLƏCƏYƏ BAX ............ 53
HƏR ŞEYİ ALLAHA BURAX ............ 53
YA RƏBBİM, SƏN GİZLİNDƏ HƏM AŞİKARDASAN ............ 56
BOŞ ƏLLƏ GETMƏ ............ 57
ƏN GÖZƏL NƏĞMƏ ALLAH ÜÇÜN OXUNANDIR ............ 59

KÖNLÜM HEÇ BARIŞMIRDI........................................... 62
SƏN BİR BAXÇA QOYUBSAN........................................ 65
İNSAN QOCALSA DA EŞQ QOCALMIR........................... 66
SAHİLLƏR....................................................................... 69
ODU SÖNDÜRÜB, KÜLÜ İLƏ OYNAYANA.................... 70
SEVGİSİZ OLANA YAZIĞIM GƏLİR ............................... 71
NAMƏRD ƏLİNDƏN....................................................... 73
AZƏRBAYCAN ƏSGƏRİ.................................................. 75
VƏFA GÖZLƏMƏ............................................................ 77
HİRS AĞLIN ÖNÜNƏ KEÇƏNDƏ NƏLƏR OLAR?.......... 78
MÖMİNLƏR BİR OX TƏK KAFİRLƏRİN......................... 79
GÖZÜNƏ BATAR ............................................................. 79
MƏNİM KÖNÜL SƏSİM ................................................... 81
XƏYAL VƏ HƏQİQƏT........................................................ 83
MƏHZƏBİ BƏHANƏ EDƏNLƏRƏ..................................... 85
YA RƏBBİM XEYLİ PUL TAPIM ..................................... 86
İNŞALLAH SAHİBİNİ GÖNDƏRƏRSƏN .......................... 86
NECƏ GÖZƏLDİR RƏBBİMİN KÖNLÜ ............................ 88
ZALIM ŞEYTANA .............................................................. 89
HƏR ŞEYİ BURAX ZAMANINA......................................... 91
İNSANIN ÖMRÜ İLİN FƏSLİNƏ BƏNZƏR....................... 92
HEÇ DƏYƏRMİ................................................................... 93
BU GÜN DOĞMA GÜNÜMDÜR.......................................... 95
SOLAN ÇİÇƏKLƏR............................................................. 97
KƏLBƏLA ŞƏHİDLƏRİ ...................................................... 98
ÇİÇƏKTƏK AÇIR KÖNÜL ................................................ 100
BİR SƏN YETƏRSƏN MƏNƏ ........................................... 102
TƏSLİM OLDUN KÖNÜL.................................................. 104
DÜNYAYA NƏFSİN YOX KÖNÜL GÖZÜYLƏ BAX..... 105
DOĞRU SÖZÜ SEVMƏYƏNƏ .......................................... 106
ÖZÜNƏ ƏZAB HAZIRLAYANA....................................... 107
TƏHLÜKƏ ........................................................................... 108
AXİRƏTİ DÜNYAYA SATANLARA................................. 110

YA RƏBBİM NƏDƏN DÜNYANIN ÇOX YERİNDƏ MÜSƏLMANLAR QIRILIR? ........ 112
MÜQƏDDƏS QURANI TƏHQİR EDƏNLƏRƏ ........ 113
MÜKƏMMƏL ........ 114
SƏADƏTİ ŞEİRLƏRİMDƏ TAPDIM ........ 115
ON BİR YAŞIN MÜBARƏK ........ 116
LƏNƏTLİK ŞEYTANA ........ 119
DEMƏYİN ÇOX YAŞADI ........ 121
KEŞKƏ KEŞKƏLƏR OLMAYAYDI ........ 123
MƏNDƏ ELƏ KÖNÜL VAR ........ 124
ŞEYTANA İNANMAYIN ........ 126
TAPINANLAR VAR (Bütpərəslik) ........ 127
NƏFSİNİ BOŞLU BOŞUNA BURAXMA, ........ 128
ONU TƏRBİYƏ ET ........ 128
SEVGİYƏ GƏLƏN İLHAM HƏR ŞAİRƏ GƏLƏ BİLMƏZ ........ 129
İNSANI HƏBSXANA DEYİL, ........ 132
MƏNƏVİYYAT TƏRBİYƏ EDƏR ........ 132
SƏN ÇARƏSİZİN ÇARƏSİSƏN ........ 133
ATEİSTLƏRƏ SÖZÜM ........ 135
NƏFS İNSANLA ALLAH ARASINA GİRƏR ........ 137
DƏYƏRİMİ VAXTINDA BİLƏSƏN ........ 138
BÜTPƏRƏSLİK ........ 139
SEVGİ YOLU ........ 141
HARAYIM ÇATMIR SƏNƏ ........ 146
NAMƏRDDƏN VƏFA GÖZLƏMƏ ........ 148
8 MART QADINLAR GÜNÜ ........ 149
YUXARIDAN AŞAĞIYA BAXAN İMANSIZA ........ 150
NƏFSİNİ ENMƏDİKCƏ SƏN ........ 152
BU DÜNYADAN O DÜNYAYA ........ 154
ŞÜKÜR BU QƏDƏR TƏAMLAR YARATMISAN ........ 156
HƏQİQƏT QAPISI ........ 157
SƏNƏ ŞÜKÜRLƏR OLSUN ........ 158
HAQSIZ MÜHARİBƏ EDƏNLƏRƏ ........ 160

BİZƏ ƏMANƏT VERİLƏN CANIN QƏDRİNİ BİLƏK ... 162
KEŞKƏ GÖRƏ BİLƏYDİN ... 163
SON PEŞİMANLIQ ... 165
RUHUNU ŞEYTANA SATMIŞLARA ... 167
VƏFALIM ... 169
İMANSIZIN İMANLIYA İMANSIZ DEMƏSİ ... 171
DAD YARIMÇIQ ƏLİNDƏN ... 172
NANKORU ADAM SANIRIQ ... 173
KEÇMİŞ ANILARIM ... 174
AZADLIQ ... 175
SƏNİNLƏ ÇOX XOŞBƏXTƏM YA RƏBBİM ... 177
LÜTV EYLƏ ... 179
YA RƏBBİM, YENƏ QİSMƏTİN KƏDƏRDİ ... 181
YATMA OYAN ... 184
NECƏ GÖZƏLDİR ƏTİRLİ GÜLLƏR ... 185
QURTULUŞ GÜNÜMÜZ ... 187
DÜNYANIN DƏRDİNİ MÜDRİKLƏR ÇƏKƏR ... 188
ÖZÜNƏ YENİ SƏHİFƏ AÇ ... 191
MÖMİNLƏRƏ SALAM OLSUN ... 194
ALLAH KÖNÜLLƏRƏ GÖRƏ VERƏNDİ ... 196
CƏNNƏT-CƏHƏNNƏM BU DÜNYADADI DEYƏN ... 199
YA RƏBBİM İNSAN YUXUDA SƏNİ GÖRƏ BİLƏRMİ? ... 201
KEŞKƏ YENİDƏN BAŞLAYIM DEYƏCƏKSƏN DAYANMA O ANDA TÖVBƏ ET ... 202
DAMLA OLUB DƏRYALARA QATILACAYDIM ... 204
GÖZƏL SEVGİM ... 206
ANAM ÜÇÜN DARIXMIŞAM ... 207
MƏN ŞEİRİMDƏN İLHAM ALIRAM ... 211
VƏFALISAN KÖNLÜM ... 213
BAHAR GƏLİR ... 215
31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ ... 216
SƏN KÖNLÜMDƏ BİR BAHARSAN ... 217
MƏSUM KÖRPƏLƏR ... 218

GERÇƏKLƏ ÜZ-ÜZƏ QALDIM ........................................ 219
SƏNİ GÖRMƏYƏN GÖZLƏR........................................... 220
ELƏ ATA-ANA VAR Kİ ..................................................... 221
ELƏ ATA-ANA VAR Kİ ..................................................... 223
İRFAN ELMİNİ DOĞRU BİLİB .......................................... 227
YAZAN ALİMLƏRƏDİR SÖZÜM...................................... 227
VƏSF EYLƏ ....................................................................... 229
VAĞZALI  HAVASINDA GEDƏN GƏLİN........................ 231
TƏƏSSÜF ......................................................................... 232
GƏLƏCƏYİNİ DÜŞÜNMƏYƏNƏ ...................................... 233
BU QİSAS YERDƏ QALMAZ ........................................... 235
NƏ ÇƏKDİYİMİ İLLƏRƏ SOR.......................................... 236
İKİ MİN ON İKİNCİ İLİ YOLA SALIRIQ ......................... 238
İNADKARLARA ............................................................... 242
GÖSTƏRMƏSİN................................................................ 244
ÇƏTİN İMTAHAN DÜŞÜB MƏNƏ ................................... 246
YALAN OLAR.................................................................. 248
SƏNƏ DOĞRU GƏLƏRKƏN ............................................ 249

Mətn yığımı-Dizayn: ***Ülviyyə Quliyeva***

Çapa imzalanmışdır: 30.07.2016
Kağız formatı: 60x84 1/16
Həcmi: 16 çap vərəqi
Tiraj: 200 nüsxə; Sifariş: 1035